Ələkbər Quliyev

# NİKAHIN ENSİKLOPEDİYASI

47749

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

ÇAŞIOĞLU
2008

*Yaşından asılı olmayaraq*
***bütün sevənlərə ithaf edilir!!!***

**Rəyçi:** **Cümşüdov V.H.**
*Bakı Slavyan Universitetinin Pedaqogika və Psixologiya kafedrasının dosenti*

**Ələkbər Quliyev. Nikahın ensiklopediyası.**
Bakı: Çaşıoğlu, 2008. – 192 s.

Q $\frac{5001000000 - 489}{082-08}$

© Ələkbər Quliyev, 2008



## RƏYÇİ

Müasir dövrdə ailənin quruluşunda, ailə daxili münasibətlərin xarakterində meydana çıxan yeni cəhətlər ailə həyatının etika və psixologiyasını yaxşı mənimsəməyi tələb edir. Ər-arvad münasibətləri normaları kişi və qadının psixologiyasını, onların daxili aləmini ciddi şəkildə dəyişir.

Ər-arvad münasibətlərində cinsi normalar, sosial, mənəvi, hüquqi və s. normalarla üzvi surətdə birləşir, onların təbii münasibətləri tədricən sosial mənəvi məzmun daşıyır.

Nikah üçün arzu olunmaz hesab edilən keyfiyyətlər məlumdur və onların olması labüddür. Bu keyfiyyətlər (eqoizm, kobudluq, namussuzluq, şöhrətpərəstlik, deyingənlik, xırdaçılıq, hikkəli olmaq, kin və ədavət saxlamaq, sərtlik və s.) ailədə normal münasibətlərin yaranmasına mane olur, konflikt və dalaşmalar üçün şərait yaradır.

"Yaxşı ər" və "yaxşı arvad" olmaq üçün bir-birinin psixologiyasını dərindən öyrənməli, ailəninin çoxcəhətli vəzifələrini düzgün bölüşdürməyi bacarmaq lazımdır.

Psixoloji tədqiqatlar göstərir ki, bir-birilə ilk dəfə görüşən adamlar bir-birilərini qavrayarkən ən çox üç cəhətə: a) fiziki simaya, b) ekspressiv davranışa və geyim xüsusiyyətlərinə diqqət yetirirlər. Mənəvi xüsusiyyətlər isə bu zahiri əlamətlərin kölgəsində qalır, əxlaqi keyfiyyətlərə fikir verilmir. Deməli, ailə münasibətlərinin öz qanunları, qanunauyğunluqları və səciyyəvi xarakterləri var ki, onları bilmək bu münasibətlərin idarəolunmasına, düzgün qurulmasına köməklik göstərə bilər.

Bu baxımdan –lazımınca həyat təcrübəsi və özünə

məxsus dünya ğörüşü olan həkim nevropatoloq, psixoloq, astroloq Quliyev Ələkbər Eyvaz oğlunun təqdim etdiyi "Nikahın ensiklopediyası" kitabı olduqca maraqlı, dəyərli, ailənin təməl daşını qoyanların maraqlı psixoloji xüsusiyyətlərini özündə toplamışdır.

Əsrlər boyu ulu babalarımız sağlam astroloji məlumatlardan bəhrələnmiş və öz işlərini bu əsasda qurmuşlar. Ailə münasibətlərinin psixologiyası böyük bilik sahəsi olsa da bu sahədə zodiak illərinin əhəmiyyətli rol oynaması indiyə kimi öyrənilməmişdir.

Bu gün sosioloqlar, demoqraflar, psixoloqlar, pedaqoqlar, hüquqşünaslar, təbiblər də gənclərin ailə həyatına hazırlanmasına xüsusi diqqət yetirirlər. Bu kitabda da ailənin qurulması, onun psixoloji bünövrəsinin düzgün qoyulması yollarını göstərməyə cəhd olunmuşdur.

Sosioloqların hesablamalarına görə kişi və qadınların 70%-i bir-birini sevərək evlənir. Evləndən 5-6 il sonra qəribə hadisələr baş verməyə başlayır. Məlum olur ki, onların yalnız 46%-i öz həyat yoldaşını sevir, 24%-i isə sevmir. Ümumiyyətlə bu ailələrin çoxunda məhəbbət hissi yoxa çıxır, boşanma halları artır. Bunlar isə insanların sadəcə bir-birini başa düşməməsin-dən, bir-birinə dözməməsindən, hikkədən, kindən doğan hisslər nəticəsində baş verir.

Kitabda verilən nikah cütlərinin zodiak illərinə görə xarakteristikası olduqca maraqlıdır. Tarixi şəxsiyyətlərin, yazıçıların, şairlərin, rəssamların, aktyorların ailə həyatlarından verilən nümunələr bir daha sübut edir ki, ər-arvadın bir-birinin xasiyyətinə bələd olması, onların bir-birinə uyğunlaşması möhkəm ailə qurmaq üçün olduqca vacibdir.



Zənnimcə kitab geniş oxucu kütləsinin nəzərindən qıraqda qalmayacaq və öz dəyərliliyi ilə yeni ailə həyatı quranların bu sahədəki biliklərinin daha da zənginləşməsinə xidmət edəcəkdir.

**Cümşüdov V.H.**
***Bakı Slavyan Universtitetinin***
***Pedaqogika və psixologiya***
***kafedrasının dosenti***

## MÜƏLLİFDƏN

Bu kitabda biz çalışmışıq ki, insanlar arasında harmonik münasibətlərin yaranmasında astroloji biliklərin əhəmiyyətini geniş formada oxuculara çatdıraq. Birinci növbədə kişi və qadın arasında. Axı ailə qurmaqla biz yeni bir həyatın bünövrəsini qoymuş oluruq. Ancaq təəssüflər olsun ki, çox vaxt yaşlı nəsil ilə gənc nəsil arasında yaranan ziddiyyət və mübahisələr geniş vüsət alır və biz onların şahidi oluruq. Əsas səbəb isə odur ki, yaşlı nəsil cavanların səhv fikirlərini, hisslərini və davranışlarını ya araşdırıb götür-qoy edə bilmir, ya da bunu etmək istəmir.

Cavanların qəlbini qırmayıb, onları başa düşərək kömək etmək lazımdır ki, qoy bütün yaxşı cəhətlər onlarda çiçəklənsin.

Bu layiqli ata və ananın yeganə yoludur. Bax elə burada sizə astrologiya elmi kömək edəcək.

Bizim ulu babalarımız kitabı oxuduqları kimi ulduzları da oxuya bilirdilər. Planetlərin bizim həyatımıza, sağlamlığımıza və taleyimizə təsirini astroloji biliklər almaqla öyrənmək mümkündürmü?

Ulduz falı altında nə çatdırılır?

Bütün bu suallara astroloji ədəbiyyatda cavab tapmaq olar. Ağacın iki ucu var. Və hər birində yeganə fərdi, digərinə məxsus olmayan əlamətlər var. Biz hamımız bir-birimizi tamamlayırıq, əgər insan zəifdirsə ancaq sosial və ailə münasibətlərinin gücsüzlüyü sayəsində özünü göstərə bilməmişsə, onda başqa sözlə desək, yüksək səviyyəyə qalxmaq mümkün deyil.

Hal-hazırda dünyada vacib olan problemlərdən biri – insan münasibətlərinin ekologiyasıdır. Təbiətin qorunub saxlanılması ilə əksər dövlətlər məşğuldurlar və bu sahədə böyük nailiyyətlər əldə ediblər. Qarşılıqlı münasibətlərdə bir-birini anlamaq isə çox çətindir. Əgər hər bir kəsin təbiətin inkişafında iştirakı mümkün deyilsə, onda hər birimiz elə indi bu dəqiqədən dünyanı yaxşılaşdıra bilər: insanlar arasında – tərəf müqabilləri ilə, əməkdaşlarla, yoldaşlarla, dostlarla, qonşularla xoş münasibətlər yarada bilərik. Əsası isə odur ki, astrologiya özünü dərindən dərk etməyə, başqalarını başa düşməyə və onları olduğu kimi qəbul etməyə imkan verir.

İlk dəfə nikahın ulduz falı 1990-cı ilin yazında yazılmasına baxmayaraq, onu nəşr etmək mümkün olmadı və bu illər ərzində o, nikahın ensiklopediyasına doğru sürətlə hərəkət etməyə başladı, özündə bütün vacib nümunəvi nikahları sistemləşdirdi və onlara aydınlıq gətirdi.

Tam arxayınlıqla demək olar ki, nikahın strukturunda ulduz falından kənara çıxma yoxdur. Nikah insan həyatının elə sahəsidir ki, orada onların heç birinə üstünlük verilmir. Hamı bərabərdir. Sadə insanların və yüksək səlahiyyət vəzifələri olanların və eləcə də yaradıcı və elmi iş adamlarının nikah hüquqlarında heç bir fərq yoxdur. Nikahın ensiklopediyası dolğun bir şəkildə olmalıdır. Kim üçün bu mövzu maraqlıdırsa, o bu işin iştirakçısı ola bilər, eləcə də SİZ MÖHTƏRƏM OXUCU.

Lakin bu ensiklopediya ilə işləmək üçün ulduz falının əsasları ilə tanış olmaq lazımdır.

MƏSLƏHƏT: sizi maraqlandıran nikah növünü oxumağa TƏLƏSMƏYİN. Bütün kitabı diqqətlə oxuyun

və insanların xarakteristikası ilə tanış olun. XƏBƏRDARLIQLARI, MƏSLƏHƏTLƏRİ oxuyun, NİKAH NƏZƏRİYYƏSİNİN ÖZÜNÜ anlamağa cəhd edin.

Nikahın xarakterini müəyyən edən faktorlar həddsiz dərəcədə çoxdur: nikah bağlayanların doğulduğu gün, ay, il, onların milliyyəti, TƏHSİL, ailə və NƏSİL adət və ənənələri. Sadalananlara baxmayaraq burada nikah bağlayanların doğum ili əsas olaraq götürülür. Məhz o, nikahın inkişafının əsas tendensiyasını müəyyən edir. Bir-birinə əks olan iki cür düstur mövcuddur: əgər ulduz falı insanın niyyətini, arzusunu, məramını, fikrini açıqlayırsa, deməli o, nikahın mümkünlüyünə və ehtimalına cavab verməyə səy göstərir. Bir sözlə nikahın motivlərini ulduz falı ilə müəyyən etmək mümkün olduğu halda, nikahın reallığını, onun nəyə gəlib çıxacağını isə ancaq şərq münəccimliyi müəyyən edir.

Şərq bürclərinə görə insanın doğulduğunun necə təyin olunmasını yada salmaq olduqca vacibdir.

| | | |
|---|---|---|
| 1900, 1912, 1924 | | 1984 – Siçan |
| 1901 | | 1985 – Öküz |
| 1902 | | 1986 – Pələng |
| 1903 | | 1987 – Pişik |
| 1904 | | 1988 - Əjdaha |
| 1905 | | 1989 – İlan |
| 1906 | | |
| 1907 | | |
| 1908 | | |
| 1909 | 1981 | 1993 - Xoruz |
| 1910 | 1982 | 1994 - İt |
| 1911 | 1983 | 1995 – Donuz |



Bu cədvəldən göründüyü kimi öz doğum ilinin bürcünü bilmək üçün göstərilən illərdən ya 12 çıxılır, ya da toplanılır.

**Qeyd: 1 yanvardan 20 marta qədər olan tarix ötən ilə aid edilməlidir, çünki beynəlxalq astronomik il Qoç bürcündən hesablanır.**

Biz oxucuları bütün tərkiblərlə tanış edəcəyik. Oxucu bilməlidir ki, nikahda olan bütün insan cütləri üç tərkib hissədən: hakimiyyət, təsərrüfat və seksdən ibarətdir. Bunlardan ən vacibi 12 heyvan işarəli illəri dörd üçlüyə ayıran ancaq bir tərkib hissədir.

Oxucu bilməlidir ki, At, Pələng, İt ilində doğulan kişiləri biz subyektiv olaraq güclü, xeyirxah kimi qəbul edirik. Siçan, Meymun, Əjdaha işarəli olanları qəribə canlılar, Pişik, Donuz, Keçi sakit, freqmatik, Xoruz, İlan, Öküz işarələrindən olanlar isə mübariz, enerjili canlılar kimi qavrayırıq.

Biz əminik ki, astrologiya elminin əsaslarını öyrənərək nikahın əsas nəzəri tərkib hissəsi ilə razılaşacaqsınız. Insandan ilahi tərəfdən ona verilməyəni tələb etmək olmaz. Lakin, onun doğulduğu ili bilərək və insanın hansı bacarıqlara malik olduğunu üzə çıxardaraq, onu bu baxımdan qiymətləndirmək lazımdır.

**Həkim neyropatoloq, psixoloq, astroloq.**
***QULİYEV ƏLƏKBƏR EYVAZ OĞLU***

***«Ağıl təbiətin inкişafının ən yüкsəк, ən ali, sonuncu həddidir. Ona görə də, o, insanın öyrənə biləcəyi ən çətin, ən mürəккəb bir predmetidir. Bu sahədə müvəffəqiyyət aldə etməк üçün digər elmlərin yüкsəк inкişafı lazımdır»***

***Modsilin, İngiltərə,***
***1852-ci il.***

***«İnsanlar böyüк ideyanı müdafiə edərкən qüvvətli olurlar, onun əleyhinə getdiкdə isə gücsuzləşirlər»***

***Ziqmund Freyd***
***Psixoanalizin banisi***
***Avstriya (1856-1939)***

***«İnsanları hadisələrin özü yox onların başverma səbəbləri maraqlandırır»***

***Epiкrit***

***«Autoqen məşq bir çox hallarda etibarlı yardım göstərir. O insanda özü haqqında aydın təsəvvür yaradır, daxili imкanlara yol açır, onu həmfiкirlərinə qovuşdurur. Autoqen məşq sarsılmış ruhi sağlamlığın bərpa olunmasına, həyatı dolğun və ahənqdar qavramağa кöməк edir. Autoqen məşq insana texniкi tərəqqi ilə yanaşı addımlamağa imкan verir, onu xarici amilərin nörəri yox, agası edir»***

***X.Lindeman,***
***Almaniya***



# İKİNCİ KİTAB

## *Ailə*

## I HİSSƏ

## VEKTOR DAİRƏSİ

*Diqqət!*

Bilavasitə nikaha keçməmişdən öncə, mütləq yoxlamaq lazımdır ki, sizin ittifaq vektor dairəsinə aiddirmi?

144 vairantın 24 nikahında nikah quruluşu yox, vektor dairəsi müəyyənedici rol oynayır. Vektor dairəsi o qədər əzəmətli hadisədir ki, o nikah quruluşunun qanunlarına üstün gəlir, onları ört-basdır edir.

Vektor dairəsi qanunlarını anlamaq, başa düşmək üçün müvəqqəti olaraq zodiak müxtəlifliyini mütləq yaddan çıxarmaq lazımdır. Vektor dairəsi qarşısında hamı bərabərdir. Vektor cütlüklərində nə iradə, nə məntiq, nə də intusiya yoxdur. Bütün 24 cütlükdə yalnız bir xüsusiyyət, sahib və nökər qarşılıqlı münasibətləri vardır.

Siçan-At, At-Qaban, Qaban-Əjdaha, Əjdaha-Pişik, Pişik-Xoruz, Xoruz-İt, İt-Öküz, Öküz-Pələng, Pələng-Keçi, Keçi-İlan, İlan-Meymun, Meymun-Siçan (sahib birinci yerdədir).

Sadalanan 12 cüt bu 24 nikahı təşkil edir. Sadalanmadan görürük ki, vektor münasibətləri zodiakın mahiyyətindən, onun təfəkküründən asılı deyildir. Onlar idrakın (ağılın) nəzarətinə tabe deyillər, insanın iradəsindən, onun arzusundan asılı olmayaraq əmələ gəlir və inkişaf edirlər.

Vektor münasibətlərinin çərçivəsini 24 nikahla müəyyən edərək, bu nikahların daxilində ər-arvad arasındakı

qarşılıqlı münasibətlərin xarakterini dəqiq qeyd edə bilmərik, çünki vektor münasibətləri mistik, qasırğa quruluşlu qanunlara görə inkişaf edir, burada hərəkətin istiqaməti aydın olsa da, onun xarakteri aydın deyildir.

Vektor (riyazi hesablama yolu ilə) nikahın müxtəlif ssenariləri məlumdur, ancaq bu o demək deyil ki, hər bir yeni vektor nikahında iş təzə, orijinal ssenari üzrə getməyəcəkdir. Yalnız bir şey aydındır ki, vektor (hesablama) nikahı, vektor münasibətləri energetik qasırğadır, burada tarazlaşdırılmış və etibarlı quruluş yaratmaq olduqca çətindir. Vektor nikahındakı həyat barıt çəlləyi üzərindəki həyata bənzəyir, hər bir an gözlənilməz, qəfil hadisə baş verə bilər.

Nikahların əlavə xarakterik göstəricisi.

| ər\arvad | At, Pələng, İt | Siçan, Meymun, Əjdaha | Xoruz, İlan, Öküz | Pişik, Qaban, Keçi |
|---|---|---|---|---|
| | Fəsil I | Fəsil 10 | Fəsil 6 | Fəsil 14 |
| At | 157 | 82* 85 88 | 46 49 52 | 118,121*, 124 |
| Pələng | 248 | 83 86 89 | 47 50 53* | 119, 122, 125 |
| İt | 369 | 84 87 90 | 48* 51 54* | 120 123 126 |
| | Fəsil 9 | Fəsil 2 | Fəsil 15 | Fəsil 8 |
| Siçan | 73*76 79 | 10 13* 16 | 127 130 133 | 64 67 70 |
| Meymun | 74 77 80 | 11 15 17 | 128 131*134 | 65 68 71 |
| Əjdaha | 75 78 81 | 12 14 18 | 129 132 135 | 66* 69* 72 |



| | Fəsil 5 | Fəsil 16 | Fəsil 3 | Fəsil 11 |
|---|---|---|---|---|
| Xoruz | 37 40 43* | 136 139 142 | 19 22 25 | 91* 97 94 |
| İlan | 38 41 44 | 137 140* 143 | 20 23 26 | 92 98 95* |
| Öküz | 39 42* 45* | 138 141 144 | 21 24 27 | 93 99 96 |
| | Fəsil 13 | Fəsil 17 | Fəsil 12 | Fəsil 4 |
| Pişik | 109 112 115 | 55 58 61* | 100* 103 106 | 28 31 34 |
| Qaban | 111* 113 116 | 56 59 62* | 101 104 107 | 29 32 35 |
| Keçi | 110 114 117 | 57 60 63 | 102 105* 108 | 30 33 36 |

**Qeyd: Ulduzlu rəqəmlər–Vektor cütlüyünü göstərir.**

Amma istərdik ki, bu nikahın birmənalı faciəvi izahından uzaq olaq. Onun geniş enerjisi böyük sarsıntıların və yüksək uçuşun mənbəyidir.

İnsan heç bir nikahda, öz hisslərində və sarsıntılarında belə yüksəyə qalxa bilməz. Bu yalnız bu cür qarşılıqlı münasibətlərdə baş verə bilər.

Lakin həyatımıza bir az geniş şəkildə baxaq, biz hamımız bu dünyanın müvəqqəti sakinləyirik, bu mənada isə hətta ən stabil nikah vektor nikahından bir az yaxşıdır. O insanların həyatını nəzərdən keçirək ki, onlar insanı bütünlüklə özündə qərq edən bu çətin və uzun yola qədəm qoymuşlar.

Bryusov V (xoruz) Nadejda Lvovoya (pişik) həsr etdiyi şerlərdə məhəbbəti və ölümü əlaqələndirirdi:

Siz, sevənlər inanın

Məhəbbət bir şeyə gətirir bizi
Kədər və sevinc, qaranlıq və işıq içindən
Dəhşətli, xoşbəxt ölümə aparır bizi.

İ. Buninin "Kornet Yelaginin" işi hekayəsi real hadisələr əsasında yazılmışdır. Yelagin (Bartnev-At) Sosnovskayanı (Visneyevskaya-Siçan) eşq, məhəbbət ehtirası anında öldürür. Bütün bu hadisə olduqca iyrəncdir, murdardır. Bu hadisənin iyrəncliyi isə onun idraka, ağıla tabe olmamasında, öz hərəkətlərini cilovlaya bilməməsindədir. Bəli, bəzən dairə elə burulur ki, bu uçurumdan çıxmağa bir həyat da bəs etmir.

Qadın və kişi arasında dairəvi münasibətləri demək olar ki, həmişə "faciəli məhəbbət", ehtiras müşaiyət edir. Təkcə bütün bunların acısını çəkən dadını görənlər deyil, digərləri də deyə bilərlər ki, bu bir o qədər də məhəbbət yox, tamamilə izah olunmayan bir şeydir.

N. Berberova (Öküz) Xodaseviçlə (İt) olan həyatından yazır:

"mənim onunla olan xoşbəxtliyin heç də sevinc, işıq, firavanlıq, həzz, rahatlıq, sakitlik kimi sözlərlə müəyyən olunan xüsusiyyətə malik deyildi. O ondan ibarətdir ki, mən onunla yanaşı həyatı daha qüdrətli özümü daha canlı hiss edirdim, nəinki onunla görüşənə qədər. Onun kontrastlarında mən həyata alışır və mənim o vaxt əldə etdiyim iztirablar özündə daha çox həyat eşqi yaşadırdı. Əgər mən ətraf və ətrafdakıları "Bəli", "yox", "intensivlik" kimi bölsəydim belə bəzən elə olurdu ki, məndə enerji hər bir möcüzənin mümkün olacağından xəbər verirdi.

Nə vaxt ki, sahib-nökər cütlüyünü yaradan qadın və kişi görüşürlər, onda nə baş verir?



Dairəvi qarşılıqlı təsirin xarakterini izah etmək o qədər də asan deyil, amma bir şey aydındır ki, bununla yanaşı şəxsiyyəti müdafiə edən bütün pərdələr, örtüklər götürülürlər. İnsan, müstəqil vahid bir varlıq kimi mövcud ola bilmir.

Nikolay Çauşesku (At) və Yelena Çauşesku (Qaban) haqqında məhkəmədə vəkil Teodoresku belə demişdi ki, "onlar o dərəcədə qovuşmuşdular, uyğunlaşmışdılar ki, ikibaşlı divə, bədheybətə oxşayırdılar"

L. E. Belozerskaya – Bulqakova A.N. Tolstoy (At) və N. V. Krandievskaya – Tolstoy (Siçan) haqqında yazır: onlar Aleksey Nikolayeviçlə son dərəcə bir-birinə möhkəm bağlanmış cütlük təəsüratı doğururdular. Elə bil ki, onların ümumi qan dövranı var. Sonradan onları Berlində gördüm, qeyri-adi ailə birliyi və uyğunluğu əvvəllər olduğu kimi qalırdı.

O, həmçinin Yeseninin bioqrafı İlya Şneyderin Aqysedor Dunkan (Pələng) və Sergey Yesenin (keçi) haqqında sözlərini misal gətirir: "onlar bir bezin qırağı, bir yuvanın quşudurlar, bir-birilərinə oxşayırlar, bir nümunə kimi biçilmişlər, hər ikisi həddindən artıq istedadlıdır, hər ikisi emosionaldır, qabağıalınmazdır, bir işi axıra çatdırmağa meylli deyillər"

Hər ikisi bir-biri üçün cəlbedici və inkaredici gücə malikdirlər. Və onların məhəbbət romanı təkcə "acı" deyil həm də "xoşbəxt-bədbəxt" və "bədbəxt-xoşbəxt" necə istəyirlər o cür başa düşüləndir və başqa cür ola bilməz.

Jorj Sand (Siçan) və Alfred Myusse (At) haqqında deyirdilər ki, onlar " bir- birləri üçün yaranmışlar, bununla bərabər bir yerdə ola bilmirdilər. Ayrılıq zamanı isə

Myusse öz sevgilisinə mərhumiyyətlə dolu xeyirxah məktublar göndərirdi. Onlar bir yerdə olan vaxt isə "barışıqlar, küsüşmələrlə bir-birini əvəz edir, hərarətli məhəbbət açıqlamaları isə dəhşətli qalmaqal, qovğa ilə başa çatdırdı. Myusse Sandı qısqanaraq, onu xəyanətdə günahlandırırdı.

Vektor nikahının paradokslarından biri də ondan ibarətdir ki, insanlar bir-birindən ayrı yaşaya bilmədiyi halda, həm də birlikdə yaşaya bilmirlər.

Kuprinin qızı yazır: "Əgər Mariya Karlovanın (Siçan) xatirələrinə görə mühakimə yürütsək onda belə təəsürat yaranır ki, Kuprin (At) evdə işləyə bilmirdi. Fikirləşmək belə qəribədir ki, öz arvadı və uşağı ilə bir şəhərdə yaşayaraq, o mehmanxanada otaq tutur və yaxud Lavra Danilovskiyə və ya Qatçinə gedir ki, işləyə bilsin.

Jorj Sand Alfred Myusseyə yazırdı: "Əlvida, əlvida, mən səni tərk etmək istəmirəm, və sənə yenidən yiyələnmək də istəmirəm. Mən heç bir şey, heç bir şey istəmirəm. Mən səni daha sevmirəm və əbədi olaraq sənə məftunam. Mən səni daha istəmirəm, lakin sənsiz keçinə bilmirəm. Deyəsən təkcə bir səma ildırımı məni məhv edərək müalicə edə bilər. Əlvida, qal, get amma təkcə deməki, mən əzab çəkmirəm. Yalnız təkcə mənim məhəbbətim mənim həyatım, mənim ürəyim, mənim qardaşım mənim qanım məni daha çox əzab çəkməyə məcbur edə bilər: get ancaq gedərkən məni öldür.

Myussenin və Sandın məhəbbət hekayəsi haqqında onlarla kitab və məqalə yazılmışdır. Vaxt var idi ki, ədəbi tənqidçilər və tarixçilər "Myusseçilərə" və "Sandçılara" bölünmüşdülər və onların arasında bu romanın kədərli finalında kimin onun və yaxud o birisinin günahkar



olması haqqında qızğın mübahisələr gedirdi. Lakin onların məhəbbəti dünya ədəbiyyatına dörd roman: Myussenin "Əsrin oğlunun etirafı", J. Sandın "Kişi və qadın", Pol Myussenin "Kişi və qadın" və Luiza Kolenin "O" romansını verdi.

A. Axmatovanın (Öküz) və N. Qumilyovin (İt) nikahı çox qısa oldu.Əgər Qumilyov hələ "şən, ümumi ev həyatı arzuları ilə yaşayırdısa, onda Axmatovani vektor dairə ehtirasları təsir altına alırdı" "Əvvəllər olduğu kimi o mənimlə "Məhəbbət müharibəsi" aparmaq istəyir, mənə əzab, iztirab vermək təmtəraqlı izahlarla və barışıqlarla qısqanclıq səhnələri düzəltmək onun üçün "oyun risklə və vəcdlə davam edirdi. Bütün bunları Qumilyov İrina Odoyevçevaya danışırdı.

Tam inamla demək olar ki, ailə həyatı üçün vektor münasibətləri tövsiyə olunmur. Yaranan vəziyyətdən yeganə çıxış yolu ayrılmaqdır.

Axmatova və Qumilyov iki il də bir yerdə yaşamadılar, Sand və Myusse iki ildən sonra ayrıldılar, beləki Sand Myussedən gizlicə olaraq öz doğma Noanına getdi. A.N. Tolstoy və N.V. Krandiyevksaya Tolstaya 20 il birgə həyat sürəndən ayrıldılar, Kuprin və Mariya Karlovnada, Berberova və Xodaseviçdə ayrıldılar. Şneyder Yeseninlə Dunkanla romanını "acı" adlandırdı, Mayakovskinin (İlan) axırıncı məhəbbəti Veronika Polonskaya (Meymun) oldu; özünün həlledici, son qərarımdan bir az əvvəl Merilin Monro (pələng) Robert Kennediya (Öküz) rast gəldi, Bryusova məhəbbətinə (Xoruz) görə Nadya Lvova (Pişik) həyatını intihar ilə qurtardı.

Vektor nikahlarına yalnız yaradıcı mühitdə haqq qazandırmaq olar. Onları müşayiət edən qəlb çılpaqlığı

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

yaradıcı axtarış yanğı üçün zəmin hazırlayır. Demək olar ki, göstərilən bütün ittifaqlar bu cür növə aid olunanlardır. Bizim dövrümüzdə də onlar olduqca çoxdur: E. Maksimova (Pişik) – V. Vasilyev (Əjdaha), A. Lazarev (Pələng) – S. Nemolyayeva (Öküz) və digərləri.

Amerikalı ulduz Ceyn Fondun (Öküz) və telemaqnat Ted Ternerin (Pələng) görüşünü də həmçinin təsadüfi və ani adlandırmaq olar.

Əlbəttə heç də bütün "həlledici məhəbbətlər" sahib – nökər münasibəti deyildir. Ancaq bu cür nikahların faizi o vaxt yüksəlir ki, cəmiyyətdə patriarxal ənənələrlə möhkəm ailələrin qurulması zəifləyir. Məhz onda tez-tez sağlam düşüncənin və ağılın əksinə olaraq ehtiraslı məhəbbətə görə nikahlar birinci plana çıxırlar.

Myusse yazırdı ki, məhvedici ehtiraslara cəhd yalnız o insanlarda olur ki, onlar "tənhalıq, darıxma, inamsızlıq" kimi simptomları olan xəstələliyə tutulurlar.

Yəqin ki, Xodaseviç də həmçinin "həlledici ehtiras" axtarırdı və onu Nina Berberova ilə ittifaqda tapdı. Onun əvvəlki Marina Rındina (Qaban) və Anna Çulkova (İt) ilə ulduz falına görə yaxşı variantlar hesab edilən iki nikahı isə ona məhvedici (həlakedici) dərəcəyə malik və hər şeyi əhatə etməyə qadir hissləri verə bilmədilər.

Həyatda hər bir insanın vektorda yeri var, hətta ən tədbirli və ehtiyatlı olanında orada yeri var; yüzfaizli sığorta yoxdur, hətta, o heç lazım da deyil. Vektor münasibətləri həm nökərə, həm də sahibə və eləcə də hər bir adama çox şey verir, ona görə ki, xarüqadə, xəyalı xoşbəxtliyin ardınca gələn əzab ola bilər ki, olduqca böyük mükafat kimi görünməsin.

İ.Odoyevtsieva yazır: "mən əminəm ki, Axmatova



Qumilyovun əsas məhəbbəti idi və özünün çoxsaylı aşiq olmalarına baxmayaraq, o, ölümünə qədər ona olan məhəbbəti sönmədi, soyumadı".

Marqarita Tuçkovanın (Öküz) general Aleksandr Tuçkovla xoşbəxtliyinin və eləcə də Tuçkov Borodina döyüşündə həlak olarkən kədərinin həddi-hüdudu yox idi. Ərinin cəsədinin 2-günlük uğursuz axtarışından sonra Marqarita onun həlak olduğu güman edilən yerdə Snas-Borodin qadın monastrının əsasını qoydu, təsis etdi və oranın iqumenyası (qadın monastrının başçısı) oldu.

İnsanlar tərəfindən davranış norması kimi ortaya qoyulan əxlaq, mənəviyyət azad, müstəqil, şəxsiyyət üçün hesablanmışdır. Bələki, vektor dairəsi həm nökəri, həm də sahibi hər ikisini mənəviyyatdan məhrum edir. Sahibin soyuqluğu və kobudluğu mənəviyyatsız olduğu kimi nökərin də rəhmdilliyi, mərhəmi də həmçinin mənəviyyatsızlıqdır.

Bürc münasibətləri özünü onda təzahür edir ki, nökər nə qədər sahibindən üstün olsa da, o yalnız pyedestaldır ki, onun sayəsində sahib ağıllı, güclü, ali olur. Nökər bu pyedestalı məhəbbətlə və məftunluqla, pərəstiş etməklə və könüllü olaraq ucaldır.

Sahibin yanında nökər bütün öz məziyyətlərini, yaxşı cəhətlərini heç vaxt göstərə bilməz və bir də sahib bu cəhətləri bütünlüklə qiymətləndirməyi bacarmaz. Sahibin nökəri dəyişdirmək cəhdi əbəs yerə özünü bu cür aydın biruzə verir.

Aleksandır Düma - oğul (Meymun) dostuna öz arvadı N.İ. Narışkina (Siçan) haqqında yazır: "mənə öz qəribə özünəməxsus tərbiyəsi, öz ətrafı və hətta öz avaralığı ilə korlanmış bu gözəl məxluqu yenidən tərbiyə etmək

böyük zövq verir"

Kseniya Kuprina xatırlayır: "ağıllı, kübar parlaq qadın Mariya Karlovna Kuprinin ipə-sapa yatmayan əxlaqını cilovlamaq və ondan məşhur yazıçı etmək məqsədini qarşıya qoyur. O vaxtlar belə söz-söhbət gəzirdi ki, Kuprin öz istedadının tanınmasında öz arvadına-naşirinə onun yüksək vəzifəlilərlə əlaqəsinə minnətdar olmalıdır"

Axmatova haqqında danışarkən Qumilyovun təəcübü necə də səmimi səslənir: "mənim ağlıma belə gəlməzdi ki, o, istedadlıdır. Axı bütün xanımlar royalda çalır və şeir yazırlar".

Hər bir sahib nökərin can atdığı dərk olunmamış, mistik bir idealdır. Yalnız bu pərəstiş dözüm hər şeyi bağışlamaq üçün bir əsasdır.

Qumilyov öz arvadının dahiliyini böyük gecikmə və çətinliklə qiymətləndirdi, Pasternak isə Axmatovanın ona hədiyyə etdiyi fotoqrafiyanın üstündə aşağıdakıları yazmışdı: "Anna Andreyevna Axmatovaya zəifliyim başlancığına və qurtaracağına , o adama ki, məni həmişə sevindirmiş və ruhlandırmış, o adama ki, mənə yaxındır və doğmadır məndən böyük və ucadır"

F.İ.Tyutçev (Qaban) ikinci arvadı Ernestina Tyutçevaya (At) məktubunda etiraf edirdi: "Ah sən nə qədər də məndən yaxşısan, nə qədər ucasan, alisən. Sənin məhəbbətində nə qədər ciddilik və yaxşı cəhətlər var və mən özümü səninlə yanaşı nə qədər dayaz və yazıq hiss edirəm".

Alfred Myusse 1834 il aprelin 30-da Sanda öz başlarına gələnləri romanda yazmaq niyyətini xəbər verərək yazırdı: "mən heç olmazsa sənin sümüklərin üstündə sənə mehrab, səcdəgah ucaltmaq istəyirəm". Digər



məktubunda isə qeyd edir ki, "sənin ağuşunda elə bir an var idi ki, onu xatırlamaq mənə indiyə kimi maneçilik törədir və uzun müddət digər qadına yaxınlaşmağa manеə törədəcəkdir".

Puşkin Karolina Sobanskaya (Pələng) məktublarında etiraf edir ki, "onun bütün səlahiyyətini, hakimiyyətini öz üzərində hiss edib bundan əlavə ona məhəbbəti bütün əzabını və lərzəsini, titrəyişini dərk etdiyinə görə minnətdardır və bu günə qədər onun qarşısında qorxu hissi keçirir və onu rədd edə bilmir və bir tikə çörək istəyən həqiqi dilənçi kimi dostluq üçün yalvarır. Başa düşərək ki, onun xahişi "olduqca mənasız və bayağıdır, o yenə də yalvarmaqda davam edir: mənə sizin yaxınlığınız lazımdır", "mənim həyatım sizin həyatınızla ayrılmazdır". Müasirlərin yazdığı kimi, o həlledici, kübar, cinayətkar qadın isə öz oyunu ilə Puşkini ümidsizliyə qədər çatdırdı. Bu qadına olan ehtiras onu məhv etdi, o onun torunda çapalayır, onu qısqanırdı". Ancaq Puşkin onun cavabsız məhəbbətinə, sitayişlə dolu misralar həsr etdi:

Mən sizi sevirdim. Məhəbbət ola bilər ki hələ..."

Digər böyük rus şairi M.Y.Lermontovun (İt) hissi N.F. İvanova (Xoruz) ilə bölünmüşdü amma qadın tezliklə öz əhdi-peymanını, sadiqliyini pozdu və xəyanət etdi. Lermontov üçün bu fəlakətə bərabər idi. Ancaq bu qadına həsr olunmuş şeirdə nə tənə, nə inciklik, nə də küsmək var:

Mənim üzərimdə qazanılan  
Hüquqları acıqla istifadə etdin  
Və əvvəlcə mənə məhəbbətlə zövq verdin  
Sən xəyanət etdin. Allah sənə yar olsun  
Amma yox mən səni lənətləyə bilməzdim

Səndə olan hər şey mənim üçün müqəddəsdir.

J.Sandın həkim Paqelloya olan məhəbbəti haqqında məlumatlandıran məktubuna Myussenin cavabının şərhə ehtiyacı yoxdur: "Paqelloya çatdır ki, mən ona sənə olan məhəbbəti və qayğısı üçün minnətdaram. Mən bu adamı, sən necə istəyirsən elə də başa düş, sənin qədər sevirəm. Həyatımın bütün sərvətini itirməyimə səbəb odur, mən isə onu bu sərvəti mənə hədiyyə edən bir adam kimi sevirəm. Mən sizi bir yerdə görmək istəməzdim, amma mən xöşbəxtəm ki, siz bir yerdəsiniz. Oy mənim mələykəm, xöşbəxt ol və bununla məndə xöşbəxt olaram"

Yəqin ki, oxşar hissləri öz arvadı Polina Viardonun (ilan) İvan Turgenevə (Pələng) olan məhəbbətinə əngəl törətməyən, Lui Viardo da (Meymun) keçirmiş idi. Bundan əlavə, Turgenev biləndəki onun nikahından – kənar Pelageya adlı qızı var, ər-arvad Viardolar təklif edirlər ki, onu öz himayələrinə götürsünlər və qız 12 yaşına qədər Plina Viardonun qızı Luiza ilə birlikdə tərbiyə olundu.

Vektor dairəsində nökərin pərəstişkarlığı və hər şeyi bağışlamaq keyfiyyəti uyğunlaşır və ya daha doğrusu sahibi kobudluğa təhrik edir.

N. Berberova xatırlayır: "Gecələr Xodaseviç yazır. Mən onun pijamasını sinəmə sıxaraq yatıram ki, o nə vaxtsa onu geyəndə isti olsun. Tez-tez gecə o məni oyadır "Gəl kofe içək, çay içək, söhbət edək. Mən isə mürgüləyirəm".

Qumilyov İ. Odoyevçevaya etiraf edirdi: Bəli, əlbəttə mən dərk edirəm ki, bir çox hallarda günahkaram. Mən olduqca tez bir vaxtda ona xəyanət etməyə başladım. Ancaq mən öz xəyanətlərimdə günah görmürdüm. Məncə onlar mənim ölməz məhəbbətimlə gözəl yola gedirdilər.



O isə absolyut sadiqlik tələb edirdi. Məndən özündən. O hətta mənə yuxuda xəyanət etdiyinə görə göz yaşları içərisində peşmançılığını etiraf edirdi. Və mənim gülməyimə görə dəhşətli surətdə cinlənirdi, qəzəblənirdi.

Kuprinin birinci arvadı Mariya Karlovna "ona işarələrlə başa salmağa çalışırdı ki, kim ona və nə cür pərəstiş edir. O Kuprini Batyuşkovla dostluğunu qısqanırdı və həvəclə onu pozmağa cəhd edirdi., çalışırdı.

Kuprinin Butyuşkova məktubundan: "Bəzən mən sənə qarşı ədalətsiz oluram, yalnız o zaman nə vaxt ki, M.K. məni inandırmağa çalışırdı ki, sən onun məşuqu olmusan. Mən bunlara inanmadım, ancaq güclü şübhələrə düşür və hiddətlənirdim. O sənin haqqında axmaq lətifələr, ləqəblər uydurur və ertəsi gün mənə istinad edirdi".

Görünə bilər ki, sahibin nökər-sahib cütlüyündə vəziyyəti olduqca cəlbedicidir. Amma yadda saxlamaq lazımdır ki, hər hansı bir qarşılıqlı təsirə daxil olarkən biz özümüz dəyişirik.

Sandın və Myussenin romanını "xəstəliklər" romanı adlandırmaq olar. Onun xronologiyası belədir: 1833 ilin yay və payız aylarında sevgililər, yalnız Fontblö meşəsində Myussenin əsəbi ürək tutması ilə korlanan, xoşbəxtlikdən ləzzət alırdılar. 1833 ilin dekabrında Sand və Myusse ikilikdə İtaliyaya yola düşdülər, lakin ora gedərkən Sand xəstələndi. Venesiyada Myusse xəstələndi, onda ağır əsəbi qızdırma baş verdi. Sand fədakarcasına günlərlə xəstəyə qulluq etdi.

Digər vektor cütlüyü Yelena Balmont (Əjdaha), Konstantin Balmont (Pişik). Kseniya Kuprina Yelenanı belə təsvir edir: "onun arvadı Yelena baxmayaraq ki, onda o hələ cavan qadın idi mənə çox qoca görünürdü. An-

caq Balmonta olan ağlasığmaz məhəbbəti onu qarasaçlı, dişsiz, qurumuş mumiyaya çevirmişdi, onda yalnız qəribə faciəvi gözlər yaşayırdı".

Əsəb sisteminin daim həyəcanlı halda olması, bir-birinə nüfuz etmə, şəxsiyyətin bütün intim cəhətlərinin açıqlığı-bütün bunlar təkcə qısqanclığın, qovğanın, didişmənini deyil, həm də psixikanın və sağlamlığın tədricən (sürətli və asta-asta) geridönməz pisləşməsinin əsas səbəbidir.

Vektor dairəsindən çıxmağa qarşılıqlı cəhdlər münasibətləri və sağlamlığı belə yaxşılaşdırmır. Onun qurbanları gərginliyi aradan götürməyin iki yolunu tapmışlar: spirtli içkilər və xəyanətə cəhd.

Səciyyəvi fakt odur ki, "Sand xəstələndiyi vaxt Myusse darıxmağa, kədərlənməyə başladı... hətta hansısa genuya rəqqasəsi ilə ona xəyanət etdi".

Həməsr Tyutçevin (Qaban) Ernestina (At) ilə nikahı haqqında yazırdı: ehtiraslı məhəbbətlə kəsilmiş bu nikah o qədər də xüsusi xoşbəxt deyildi və tezliklə cavan qadının rəqibləri ortaya çıxdı və 11 ildən sonra Fyodr İvanoviç ondan tamamilə soyudu, öz qəlbini və ürəyini, özünün bütünlüklə yeni sevgilisinə verdi.

Əgər sahib nökəri buraxmasa o heç zaman dairədən, öz sahibindən qurtula bilməz. Hətta verilən bu cür azadlıq nökər üçün bir yükə çevriləcək.Aleksandr Blokun şeirlərinin ehtiraslı Karmeni Delmas şairin sonuncu günlərinə qədər onun Bloka lazım olmaması fikrinə inanmır və bununla barışmırdı. Axı onların romanının əvvəlində o yazırdı: mən uşaq deyiləm, mən çoxlu sevmişəm və çoxlu aşiq olmuşam. Bilmirəm hansı sehrlənmiş gülü siz mənə atdınız, siz atmadınız amma mən tutdum. Mən



tam bilmirəm ki, indi neyləyim, eləcə də mən bilmirəm ki, mənim iradəmdən əlavə məndə nə var, onunla neyləyim, məndə çoxdan yaddan çıxmış hisslər oyanır, böyüyür".

Aparılan tədqiqatlar göstərir ki, "dairədən buraxılan nökər" bu cür sıx nikahda "məşğulluğa" görə onun üçün əlçatmaz olan sahələrdə həmin saat uğurlara nail olur.

Buna baxmayaraq bir çoxları vektor nikahını dayandırmırlar, kəsmirlər və bütün çətinliklərə baxmayaraq onda yaşamağa davam edirlər.

Vektor ittifaqında nikahın sanballı mötəbər yaş dövründə kəsilməsi, ər-arvadın yaşlarındakı böyük fərq bu nikahın yumşalmasına səbəb ola bilər. Əgər nökər qadındırsa bir qayda olaraq, bu da asanlıqla dözülür. Tez-tez ayrılmağa məruz qalan həyat stili olduqca güclü rahatlıq gətirir. Amma ən uğurlu variant ondan ibarətdir ki, "nökər" böyük maaşla **"fidyə"** versin, ailə təsərrüfatında həddən artıq iştirak etsin. Əgər, əlbəttə bütün bunlara hələ güc qalıbsa. Axı belə də olur ki, sahib taqəti olmayan gücdən düşmüş nökərə xidmət etmək məcburiyyətində qalır.

Bəs dairəvi nikahda özünü hər halda necə aparmaq lazımdır?

Axı məhəbbət, birgə təsərrüfat, bəzən isə uşaqlarda var. Ailəni saxlamaq üçün nə etmək lazımdır?

Birincisi, vahiməyə düşməmək öz həyatına diqqətlə baxmaq, Onu digərləri və vektor nikahları halları ilə tutuşdurmaq, bu hadisənin sizin üzərinizdəki, səlahiyyət gücünü qiymətləndirməyi yoxlamağı bacarmaq.

Vektor ittifaqında konkret situasiyanı bilmədən məsləhət vermək olduqca çətindir. Ancaq biz buna cəhd edə-

cəyik, yoxlayacayıq.

Yadda saxlayın ki, sahib öz-özlüyündə ətrafdakıların və hətta nökərin nəzərində həmişə haqlıdır, buna görə də nəyisə sübut etməyə cəhd etmək lüzumsuzdur. Taleyi dəyişməyə və **nökərdən başçılığı geri almağa cəhd etməyə dəyməz.** Yaxşı olardı ki, bir addım sola, bir addım sağa və quruyub qal......bu uçurumdur.

Əgər az-az görüşmək arzusu yaranırsa buna qarşı çıxmayın bir balaca nəfəsinizi dərin. Əgər münasibətlər yol verilənlərdən kənara çıxarsa, onda özünüzə hesabat verin-dairə geriyə fırlanmır, yaxşılaşmaları gözləmək lazım gəlmir.

Sahibin nökərə həmişə yazığı gəlməlidir, axı biz doğulma ilini seçmirik.

Ayrıldıqdan sonra heç vaxt sahibdən qisas almağa cəhd göstərməyin.

Vektor nikahında öz dairəsinə növbəti qayıtmaqla boşanmaq variantına tez-tez rast gəlinir. Əlbəttə, bunu heç cür tövsiyə etmək olmaz, buna baxmayaraq, bir qayda olaraq, bu cür qayıdılmış nikahlarda qarşılıqlı münasibətlər ən humanist ssenariyə görə baş verir. Bu illyuziyadır-dairə humanizmi tanımır.

Hər halda görəsən bütün həyatı boyu vektorlu münasibətlərdə yaşamaq olarmı? Bəli. Yalnız siz xoşbəxtliyin qiymətini yadda saxlayın və onda "cəsurların igidliyinə biz mahnı oxuyuruq".

Ola bilər ki, dairənin təhlükəli olması haqqında xəbərdarlıq gərgin hisslərin yeni həvəskarlarını dayandıra bilməsin. Sadə məsləhət qoy gərgin hisslər nikaha qədər qalsın. Başa düşmək lazımdır ki, ailə sonsuz döyüşlər və həlledici ehtiraslar üçün yer deyil.



Və əlbəttə məhəbbətsiz olmayan, olduqca sakit və tarazılaşdırılmış ittifaq uşaqları tərbiyə etmək, təsərrüfat işləri aparmaq, həyatda bir-birinə arxa olmaq, məhəbbəti tərənnüm edən və səmimi ər-arvad münasibətlərinə kitabın növbəti hissələri həsr olunmuşdur.

## II HİSSƏ
## *ÜMUMI DIL*
### *(Artıq-əskik danışmadan)*

Ər-arvadın ümumi dil tapmasının necə mühüm olduğunu demək artıqdır. Elə nikahlar var ki, onlarda ümumi dil tapmaq üçün çox böyük səy göstərmək lazım deyil, qarşılıqlı anlaşılma öz-özünə gəlir. Onlar haqqında aşağıdakı fəsillərdə nəql olunur:

1 Fəsil

**Ər: At, Pələng, İt, arvad: At, Pələng, İt**

**2 Fəsil**

**Ər:Siçan, Meymun, Əjdaha; arvad: Siçan, Meymun, Əjdaha**

**3 Fəsil**

**Ər: Xoruz, İlan, Öküz; arvad: Xoruz, İlan, Öküz**

**4 Fəsil.**

**Ər: Pişik, Qaban, Keçi; arvad: Pişik, Qaban, Keçi.**

Göstərilən işarələr arasında nikah təbiətə daha yaxındır. Zooloji əcdadların sözsüz danışığı həm də insan ittifaqına köçürülür. Ehtimal olunur ki, xüsusi qarşılıqlı anlaşılma o nikahlarda olacaqdır ki, orada ər və arvad eyni işarədən olsunlar.

Əgər sadalanan 36 nikahdan birinə daxil olmaq sizə nəsib olubsa onda təbiət sizin tərəfinizdədir. Bu cür nikahlarda əlaqə yaratmaq o qədər də çətin deyil, əsas problem onları dağıtmamaqdadır.

Bu cür nikahda yaşamaq asan və sadədir. Heç kimə heç nəyi başa salmaq lazım deyil, ər-arvad bir-birilərini sözsüz başa düşürlər. Ən gözəl atalar sözü və məsəlləri bu cür ittifaq üçün yararlıdır, uyğundur:



"Ər-arvadın savaşı, yaz gününün yağışı"

"Ər-arvad ipəkdir, araya girən köpək"

"Söz gümüşdür, susmaq-qızıldır".

Ancaq hər şeyi asanlıqla korlamaq qolar. Ümumi dil nikahını həyat yoldaşına inamsızlıq, kənardan müdaxilə, nikahın qəsdən islah olunmasına cəhd məhv edir. Bu cür ittifaqa təbiət hadisəsi kimi münasibət göstərmək və onun təbii axarına, inkişafına mane olmamaq lazımdır. Hər hansı idraki müdaxilə qeyri-qanunidir.

O adam xoşbəxtdir ki, ciddi mübahisələrdən, küsüşmələrdən, münasibətləri aydınlaşdırmaqdan qaça bilsin. Bütün bunlar yalnız ər-arvad arasında müxtəliflikləri aşkar edir.

Bu cür nikahın zahiri harmoniyasına çox da şirnikməyin və ümumi dil tapmağa, əldə etməyə cəhd etməyin, çalışmayın. O yalnız sizin bənzərsizliyinizi aşkar edə bilər.

Və nəhayət, seksual müxtəlifikdən qorxmayın və seksual vəhdətə nail olmağa cəhd etməyin. Bu nikahın gözəlliyi ondan ibarətdir ki, insani münasibətlərin bu sahəsində hər biri müstəqil xətti aparır və bununla öz həyat yoldaşını zənginləşdirir.

Seksual və mənəvi münasibətlər olduqca müstəqil şəxsiyyətlər kimi qalmalıdırlar. Buna görə də bir-birinə "şəxsi işlər adasını" saxlamağı yaddan çıxarmayın. Nikah onsuzda olduqca sıx ittifaqdır, bir-birinizə nəfəs almaq imkanı verin.

Bələki, ümumi dil nikahlarında məntiqin müdaxiləsi olmayan həyat üstünlük təşkil etməlidir, onda təbiət o işarələrə böyük şans verir ki, onların nikahı fəsil 2 və 4 təsvir olunur. 1 və 3 fəsillərdə təsvir olunan nikahlar

idrakın müdaxiləsindən qaça bilməzlər.

Bu cür ittifaqlarda ər-arvadın nə ilə məşğul olmaları böyük əhəmiyyət kəsb edir, bununla yanaşı o situasiyalar üstünlük təşkil etməlidir ki, orada onların hər ikisi dil sahəsində-poeziya, musiqi və s. məşğuldurlar.

Bir halda ki, nikah real olaraq zooloji analoqa yaxındır, onda onu yuva tikməklə (ayı yuvası, mağara, ovçu yatağı və s. o yerlə ki, harada uşaqları yaxşı tərbiyə etmək olar) müqayisə etmək olar.

Əgər birgə həyat dövründə bir-birini çətinliklər, anlamamaq dövrü başlayırsa, onda məhz bu cür nikahlarda ər-arvad uşaqları tərbiyə etmək xatirinə öz ittifaqlarını qoruyub saxlayırlar.

## FƏSIL 1. ARXADAŞLAR (SILAHDAŞLAR)

Ər: At. Pələng, İt
Arvad: At, Pələng, İt

Nümunələr:

V.S. Vısotski – Marina Vladi (Pələng, Pələng)
V.E. Meyerxold – Z.N. Rayx (İt-At)
K. Marks – J. Marks (Pələng- İt)
K. Debyussi – E. Debyussi (İt- İt)
Xuan Karlos I – kraliça Sofiya (Pələng- pələng)
A: Qriqoryev – L. Korş (At-İt)
A.İ. Soljenisin – N.D. Soljenisina (At-Pələng)
A.P. Yuşnevski – M.K. Yuşnevskaya (At- İt)

Bu növ nikahlarda kişi romantik məhəbbətin mənbəyidir və idarəolunan iradəyə malikdir. Qadın müəyyən sxemlərlə yaşayan, dümdüz, fəal, həmişə nəyisə planlaşdıran məntiqçidir. Ona həyatda komnpomislər naməlumdur. Təfəkkür növünə görə müxtəlif olan insanları ümumi dil yaxınlaşdırır. Hər ikisi üçün anlaşılmayanı dərk etmək arzusu xarakterikdir, irəli getmək, ailə həyatında hər ikisi patriarx həyat tərzi, sistemi tərəfdarıdırlar, böyük hərflə başlayan ailə qurmaq istəyi hər ikisinə aiddir. Həyatın məqsədini onlar nəslin davam etdirilməsində görürlər. Ulduzlar falı quruluşunun nikah nəzəriyyəsində bu cür ittifaq silahdaşlar adını almışdır. Bu dəqiq, ancaq olduqca quru tərifdir. Onda çoxlu məhəbbət, romantizm vardır. Amma əsas rolu burada maraqların ümumiliyi, qarşılıqlı anlaşılma, sadiqlik, məsuliyyət və hər ikisinin borc hissi oynayır.

Biz artıq demişdik ki, bu üçlük qadınlar At, Pələng, İt hər hansı nikahda ərin silahdaşıdırlar. Öz üçlüyünün kişiləri ilə nikah bu qabiliyyətin reallaşması üçün geniş üfüqlər, imkanlar açır. Bundan əlavə, qeyd olunan işarələrin kişilərinə mütləq bu cür arvad lazımdır.

N.Qumilyov (İt) İ. Odoevtsevoyae etiraf edirdi: "Mən şən ümumi ev həyatı arzulayırdım, mən istəyirdim ki, o (A. Axmatova) təkcə mənim arvadım olmasın, Həm də mənim dostum və şən yoldaşım olsun".

Bu növdən olan uğurlu ittifaqların kişilərinin öz sevgilisinə romantik məhəbbəti nəzərə çarpmadan işə məhəbbətlə qovuşur.

Arvadın daimi, zəifləməyən fəallığı, onun müəyyən məqsədə yönümlüyü kişiyə dayanmaq, zəifləmək imkanı vermir. Bu cür nikahların qazandıqları, imkanları, uğurları, nailiyyətləri genişdir, olduqca çoxdur. Qadın ərini onun işlərinə mane olan bütün maneələrdən azad edir, kişinin gücü, qüvvəti ikiqat artır. Demək olar ki, arvad ruhlandırıcı, ilhamverici məhəbbətlə sevir.

Vsevolod Emilyeviç o saat inandı ki, Rayx böyük aktrisa olacaq, o onun imkanlarına zərrə qədər də şübhə etmirdi. Amma onun şübhələri ehtiraslı, ilhamlı məhəbbət alovunda əriyib gedirdi.

Z.N. Rayxın aktyor istedadı haqqında İ. İlyinskinin iki fikri: onun səhnə acizliyi və həmçinin fiziki hazırsızlığı və sadəcə desək, yöndəmsizliyi olduqca gözə çarpan idi.

Bir müddət keçdikdən sonra o etiraf edirdi: "Vsevolod Emilyeviçdən o çox şey öyrənə bildi və hər halda başqalarından pis olmayan aktrisa oldu".

Marina Vladinin xatirələrindən: "Bizim otuz yaşımız və böyük həyat təcrübəmiz var. Biz isə bir-birimizə məhəbbəti ilk dəfə dadan uşaq kimi məftunuq, valehik. Heç bir şey və heç zaman yaddaşdan sonsuz yaxınlığın ilk dəqiqələrini silə bilməz. Biz bundan sonra və əsrlər boyu bir yerdəyik". "Sən mənə şeirlər söyləyirsən, oxuyursan, bu bizim həyatımızın dərin həmrəyliyinin təmasının ən dolğun dəqiqələrindən biridir. Bu sənin mənə ən yüksək, ali hədiyyəndir. Otuz yaşında sən istedadlı bir insan idin. Qırx iki yaşında sən artıq bəşəriyyətə öz yaradıcılığını qoyub gedən Şair.

Klod Debyussi üçün "həqiqi drama Emma ilə ayrılığı idi..." Öz qastrol səfərlərinin hər bir mərhələsində ona ehtiraslı məktublar yazırdı: "Mən ürəkdə özümə dayaq axtarıram, amma çox güclü ağrı hiss edirəm, çünki o yalnız səndə özünə dayaq tapır. Hər şeydən əvvəl, əgər səninlə musiqi arasında seçim etsəm, düzünü axtarsan onda musiqi qısqana bilərdi. Arxayın ol ki, əgər ola bilər ki, mən daha onu yaza bilmərəm, onda onu bil ki, sən məni daha sevmirsən, ona görə ki, mənimlə bəzi



cəlbedici söhbət və mənim fiziki qabiliyyətlərim səni saxlamağa mənə kömək edə bilməzdi".

Bu cür nikahlarda arvad yalnız ərinin istəklərini, cəhdlərini gözəl başa düşməklə kifayətlənmir, onu hər şeydə müdafiə edir, bununla yanaşı öz təfəkkür müstəqilliyini qoruyur, onu problemə aid yeni baxışla zənginləşdirir, ərinin fəaliyyətini həmişə qiymətləndirə bilir.

Marqarit Lonq xatırlayır "xanım Debyussi... intuisiya həmişə deyə bilər ki, nə onun ərinin musiqisinin xeyrinə xidmət edə bilər..." – o davam edərək yazır: "əgər son dərəcə dəqiq düşünülən və həmişəlik möhkəmləndirilən hər hansı bir ifa ənənəni cüzi olsa da təhrif edirdi onda xanım Debyussi "hörmətsizlik", "şərəfsizlik" kimi ifadələr işlətmək dərəcəsinə qədər gəlib çatırdı."

Ailədə və işdə ər-arvad arasında bu cür anlaşılma bu cür qadınların öz ərlərinin xatirəsinə və işinə sadiqliyi, ər öləndən sonra arvadın qohumlarla və kənar şəxslərlə olan konfliktləri başa düşüləndir.

Marina Vladi yazır: "Semyon Vladimiroviç... siz insana böhtan atdınız, bu sizin doğma oğlunuz idi. On iki il ərzində mən sizi barışdırmağa cəhd etdim. Amma sizi yalnız şəxsi sakitliyiniz narahat edirdi. Siz heç vaxt oğlunuzun əsərləri ilə lazımınca maraqlanmamısınız. Siz heç vaxt onun mübarizəsini başa düşməmisiniz, ona görə ki, o sizin həyat haqqındakı təsəvvürlərinizə uyğun gəlmirdi".

Yekaterina Meşerskaya öz valideynləri haqda deyir: " atam qatı, qızğın idmançı, nadir üzgücü idi. O, vəhşi atlara təlim verən, yeriş öyrədən idi. Atlar onun şövqü idi, o onlara mübtəla olmuşdu. O, məni 83 yaşı olanda törətdi, mənim anam atamdan 48 yaş kiçik idi, o bütün

həyatı boyu onun xatirəsinə sadiq qaldı, unutmadı."

Mariya Kazimirovna Yuşnevskaya onun ərinin dekabrist və ömürlük katorqaya məhkum olduğunu öyrəndikdən sonra elə o dəqiqə ərinin ardınca getmək üçün ərizə verir; dünyada onunla xoşbəxt arvad kimi 14 il yaşayaraq mən öz müqəddəs borcumu yerinə yetirmək istəyirəm və onunla onun fəlakətli, müsibətli vəziyyətini bölüşmək istəyirəm. Ona bəslədiyim təşəkkür, minnətdarlıq hissinə görə mən məmuniyyətlə təkcə dünyadakı bütün müsibətləri və yoxsulluğu özümə götürməzdim, eləcə də öz həyatımı məmuniyyətlə verərdim ki, yalnız onun aqibətini, taleyini yüngülləşdirim."

F. Engels yazırdı ki, "Jenni Marks.... ərinin təkcə taleyini, əməyini, mübarizəsini bölüşdürmürdü, həm də bu işlərdə yüksək şüurluqla və alovlu ehtirasla fəal iştirak edirdi."

Marqarit Lonq xatırlayır: "1905-ci ildə Metrin arvadı olan Emma Debyussi həm də onun böyük kahinəsi oldu. Yazı stolu kimi dinməz,diqqətli, sarsılmaz hansına ki, adət etmisən, hansı ki, sizin vücudunuzun şıltaqlıqlarını bilir və hansı ki, sizi köhnə dost kimi qəbul edir. Və ona hər şeyi demək olar: o yalnız yavaşcadan, asta-asta addımlarla keçib gedər və onun qızılı gözləri deyər ki, hər şey qaydasındadırmı?

V. Visotski:

"Əllidən az, qırxdan çoxdur yaşım on iki ildir
səninlə qorunaraq yaşayıram mən".

Verilən şəkil, mənzərə demək olar ki, idealdır, amma At, Pələng, İt üçlüyü olan qadınlara onların dözümlüyünə bağışlamaq qabiliyyətinə görə abidə ucaltmaq olar, axı iradəli ər ilə birgə yaşamaq, onun hökmlərini qəbul



etmək və bununla yanaşı öz-özlüyündə qalmaq olduqca çətindir.

M. Vladi: "Mən o vaxta kimi bu yaxınlarda sənin qanuni arvadın oldum və sənin istəyinlə nikah haqqında şəhadətnamə məni sənin bütün ədəbsizliklərinə dinməz-söyləməz dözməyə məcbur edirdi. Faciə başlayır ... mən adətən səni olduqca gec tapıram, nə vaxt sənin vəziyyətin, sənin içki yoldaşlarını narahat etməyə başlayanda tapıram. Və bu vaxt ən çətin anlar başlayır, mən səninlə evdə qalıram ki, səndən butulkanı alım. İki gün ah-nalə, baş ağrısı. Və yəqin ki, mən səni nənəmin öz dəlisov ərini sevdiyindən az sevmirəm ona görə ki, mənim hirsim tez soyuyur və mən asanlıqla bağışlayıram. Sən hiss edirsən ki, günahkarsan və söz verirsən ki, və söz verirsən ki, bu bir daha təkrar olunmayacaq".

Qəribə olsa da bu nikahda həlledici rolu ərin romantik, idraəolunmayan çılğın məhəbbəti oynaya bilər. Əgər o öz arvadını sevirsə (axı Visotski Marina Vladini günlərlə hava limanlarında gözləmiş, küsüşəndən sonra onu beynəxalq şəbəkələrdə axtarmış, ona şeirlər həsr etmiş və .s.) onda bu gözəldir. Yox əgər məhəbbətin səmti dəyişərsə, qanıqaraçılıq, pis hadisələr baş verə bilər. Məhəbbət elə bir sahədir ki, orada ər-arvad özlərini inamsız hiss edirlər və bələdçiyə ehtiyacları vardır. Bu sahədə konflikt zamanı birinci yerə ər-arvadın müxtəlif mahiyyəti çıxır. İradəli ər qadın acizliyi, zərifliyi ilə deyil, bütün istiqamətlər üzrə yaxşı təşkil olunmuş düşünülmüş əməliyyatlarlı ilə qarşılaşır.

Nikah ideyalı xarakter daşıyır, onda patriarx ənənələr güclü olur. Ər rəhbərlik arvad isə kömək edir, hamı sıx kontaktda və bir-birinin dadına çatır, kömək olur. Ər-

arvadın xoşbəxtliyi uşaqlarda, ailədədir və Appolon Qqriqoryevin və Lidiya Korşun yolu ilə getmək lazım deyil.

Onların nikahı heç kimə xoşbətlik gətirmədi, beləki, Qriqoryev Lidiyaya onun bacısını sevərək evləndi. "yalnız il yarım – iki il ərzində gənc ər-arvad xoşbəxt idilər... sonradan qarşılıqlı soyuma və uzaqlaşma münasibətlərin pozulmasına gətirib çıxardı. Ər öz arvadına etinasızlıq göstərməyə başladı və bundan sonra onu bütün yuyulmayan günahlarda günahlandırmağa başladı".

"L.F. Korşla birgə həyata qayıdış Qriqoryevə mümkün olmayan kimi gəlirdi: artıq qarşılıqlı hörmət qəti şəkildə itirilmişdi və görünür ki, arvadın xəyanəti meydan oxumaq xarakteri daşıyırdı.

Marina Vladi: "həyatda cəmi iki dəfə mənim gücüm tükəndi. Birinci dəfə birgə həyatımızın ən əvvəlində nə vaxt ki, sən sayıqlayarkən məni öz adımla çağırmadın. Ikinci dəfə, nə vaxt ki, sən məni dəhlizə tulladın və hamam otağını bağlayaraq, butulkanı içib qurtarmağa başladın. Hirsimdən boğularaq, mən qapını çırpdım və səni başımdan elədim. Təbii ki, hər iki halda sən yarım il cəhənnəm əzablarında yaşadın. Həmçinin mən də".

Ola bilər ki, məhz buna görə rus kitabı "Domostroy" bu növ nikahlara həsr olunmuşdur. Ər-evin bənnası, rəhbəri, gözəl pedaqoqudur. Arvad - yorulmayan evdar qadın, qayğıkeş ana və özünün mübarizliyinə və güzəştsiz olmasına baxmayaraq, ərinin iradəsini yerinə yetirir, ancaq onun iradəsi yumşaq olmalıdır.

Yadda saxlayın. Arvadın bu nikahda hakimiyyət üçün mübarizə aparması əbəsdir. Ərə də hakimiyyət üçün mübarizə aparmaq lazım deyil, o özü ona gələcəkdir.



## 1 Nikah Ər-At, Arvad-At

Nikah açıq xarakter daşıyır. Dostlarla ünsiyyət, eləcə də qarşılıqlı kinsiz olmaq və ürəyində kin saxlamamaq, ədavətsizlik ailə həyatının çətin dəqiqələrində kömək etməlidir.

Ər-arvadın temperamenti, özündən tez çıxması, həssaslığı (tez inciməyi) pis nəticələrə ayrılmağa gətirib çıxara bilər, əgər nikah cavan yaşlarında kəsilibsə bu tez-tez baş verir. Nə vaxt ərin hökmü, əmri olduqca açıq olur, onda düzünü axtarsan mübariz arvad döyüşə başlayır. Nəyin bahasına olursa olsun bundan qaçın, axı sizin nikahınız bizim cəmiyyətin əsasıdır.

## 2 Nikah. Ər-At, Arvad-Pələng

Çox az nikahlardan biridir. Bu nikahda ər-arvadın xarakterindəki müxtəlifliklər yalnız onların ittifaqını möhkəmləndirir. Ərin optimistliyi, həyat enerjisi, eləcə də həlimliyi arvadın metodikliyi, sistemliyi, planlılığı hər ikisinə bəs edir.

Ərə məsləhət olardı ki, o arvadının olduqca qapalı xarakterini, açığa dəyişməyə cəhd etməsin yadda saxlasın ki, onunla yanaşı zərif bir insan var, hansı onun sadəliyə və açıqlığa olan cəhdlərini ürək acısı ilə qəbul edə bilər.

Ər yaddan çıxarmamalıdır ki, onun arvadı üçün hər hansı həddən artıq fəallıq qəbul edilməzdir. Bu fəallığa arvad olduqca az müddətdə davam gətirə bilər və sonradan depressiyalar başlayar, daim pis əhval-ruhiyyə hökm sürər.

3 Nikah. Ər-At, arvad-İt

Ərin optimistliyi, onun məhəbbəti arvadın xarakterini yumşaltmalıdır. Ər yadında saxlamalıdır ki, o olduqca iradəli və müstəqil insanla bağlıdır. Arvad mənsəbə çatmaq, karyerası üçün çalışa bilər, amma ev, ailə onun üçün dünyada hər şeydən vacibdir. Bu cür evdar qadının təsərrüfatı, məişəti, qidası ən yüksək səviyyədə olmalıdır.

Kişinin rəhmdil, ürəyiyumşaq, həssas naturasına müraciət ultimatum formada olmazsa arvad bütün istəklərinə nail ola bilər.

4 Nikah. Ər-Pələng, arvad-Pələng

Nikah qapalı xarakter daşıyır. Ərin məhəbbəti ilə isinən arvad, orada bütünlüklə əriyib gedir, həll olunur. Ərin rəyi arvadın da rəyidir. Bu silahdaşların nikahının etalonudur.

Onların evində sakitlik, rahatlıq və komfort olacaqdır, tamamilə yeməyə sitayiş mümkündür. Adətən arvad çox yaxşı evdar qadındır, ər rəhbərliklə məhdudlaşır, ancaq o heç də məişətin bütün ağırlıqlarını arvadın kövrək çiyinlərinə qoymamalıdır. Bir-birini hifz edərək ər-arvad ailədə lazım olan rahatlığı yaradırlar ki, onsuz onlar keçinə bilməzlər.

Arzu etmək istərdik ki, bir-birinizə qısqanclıq üçün bəhanə, səbəb verməyin. Hər ikisində hiss idarə olunmayan ola bilər.



5 Nikah. Ər-Pələng, Arvad-At.

Qeyri-sabit nikah variantıdır, burada arvadın enerjili, açıq, ərin ləng, mərhəm xarakterindən əmələ gələn mərkəzdənqaçma tendensiyalar güclüdür. Əlavə olaraq ər vəhşi qısqanclığı ilə fərqlənir.

Arzu etmək istərdik ki, arvadın ətraf mühitlə kontaktına daha sakit reaksiya versin. Arvad isə ərin hakimiyyətini tanımalı və öz xarici əlaqələrini məhdudlaşdırmalıdır.

6 Nikah. Ər-Pələng, Arvad-İt

Arvadın məqsədyönlü, olduqca iradəli xarakteri ona yalnız ailənin maraqları ilə yaşamağa imkan vermir. Ər onu onun daim əmələ gələn planlarına, ideyalarına, həmişə məşğul olmasına qısqanmamalıdır. Axı əsası odur ki, ailə bu cür arvad üçün-onun həyatının mənasıdır.

7 Nikah Ər-İt, arvad-At

Arvadın nikbinliyi ərin xarakterində də faydalı səmərə verir, yox əgər arvadın enerjisi həddən artıqdıqdırsa, onda konflikt (ziddiyyət) təhlükəsi çox böyükdür. İşləmək arzusu, özünü bacarığına görə bütünlüklə işə həsr etməsi onu göstərir ki, ər özünə həmfikir, məsləkdaş tapmışdır. Onun üçün bu olduqca vacibdir.

Arvad da ərin mümkün xəsisliyinə ürək ağrısı ilə reaksiya verməməlidir. Axı o ailə üçün çalışır. Arvadın bir şeylə həddindən artıq maraqlanan xarakterinə ər öz hərəkətlərində ciddi məqsədyönlülük qarşıya qoyur. Bu

cür uyğunlaşma həmişə uğura gətirib çıxarır.

8 Nikah Ər -İt, arvad-Pələng

Arvad ərinə həyatı nikbinlik əlavə etmir, amma onu sakitləşdirir, incikliyi başa düşər, yalnız onun işləri ilə yaşar, öz xəyalpərəstliyi ilə onu təmiz dünyəvi problemlərdən qoparar.

Nikah qapanmaya cəhd edir. Arvad üçün burada problem mövcud deyildir, lakin bir müddətdən sonra ər aşkar edə bilər ki, dostlarsız qalmış və bunları çox iztirabla, əziyyətlə başa düşər.

Ər-arvadın tez-tez ürək sıxılmalarına tutmaları və melanxoliyasına çox da dərindən reaksiya verməməlidir.

9 Nikah. Ər-İt, arvad –İt

Nikah demək olar ki, həmişə xoşbəxtdir. Iki adam arasındakı bu ittifaqda onları yalnız ümumi dil deyil, həm də demək olar ki, bir-birinə oxşar təfəkkür növləri birləşdirir. Nikah ideyalı xarakter daşıyır. Ər-arvad həmişə qoyulmuş məqsədə nail olurlar, bundan əlavə onların bütün istəkləri də üst-üstə düşür.

Ailə onların hər ikisi üçün həyati məqsəddir, özlərinin ikiqat gücünü onlar möhkəm, mötəbər, ləyaqətli ev qurmağa sərf edirlər.

Onların devizi belədir: "mənim evim, mənim qalamdır". Bu cür eyniliklərdə konfliktlər ikiqat təhlükəlidir, buna görə də ətraf mühitdən təcrid olunmayın, dostları unutmayın.



## II FƏSIL. BOL-BOL MƏHƏBBƏT, EŞQ, SEVGI

**Ər: Siçan, Meymun, Əjdaha**
**Arvad: Siçan, Meymun, Əjdaha**

Nümunələr:

L.N. Tolstoy-S.A. Tolstoya (Siçan-Əjdaha)
A.A. Fet-M.P. Fet (Əjdaha-Siçan)
I Pyotr- Yekaterina I (Siçan-Siçan)
II Nikolay-Aleksandra Fyodorovna (Əjdaha-Meymun)
N.M. Muravyov-A.Q. Murovyova (Əjdaha-Siçan)
Q.V. Plexanov-R.M. Plexanova (Əjdaha-Əjdaha)
R. Naxapetov- V. Qlaqoleva (Meymun-Meymun)
E. Urbanski – D. Rittenberq (Meymun-Əjdaha)

Ər həqiqi məhəbbət və idarəolunmayan iradə mənbəyidir. Ər məhəbbətdə özünü bütünlüklə nəzarətdə saxlayır, öz hisslərini idarə edir amma onun iradəsi real dünyanın dəyişməsinə reaksiya vermir, iradi fəallıq qəflətən zühur olur və qəflətən də yoxa çıxır. Iradənin bu cür növü ətraf üçün olduqca həlimdir və hər şeydən artıq ona malik olan əzab çəkmir.

Arvad realistdir, onun təfəkkür növü sağlam məntiqə və intusiyaya əsaslanır. Amma ər-arvadın dili birdir, onu məhəbbətin dili adlandırmaq olar. Arvadın daxili soyuqluğu ər üçün faciə deyildir. O, öz rəfiqəsinin ürəyinə asanlıqla yol tapa bilər. Bu üçlük üçün qadınla münasibətdə çeviklik, tez uyuşmaq ayrılmaz səciyyəvi xüsusiyyətdir. L. Tolstoy öz nişanlısına yazırdı: "Şərəfli bir adam kimi deyin. Siz mənim arvadım olmaq istəyirsiniz? Yalnız bu səmimi qəlbdən gəlirsə, siz cəsarətlə "bəli" deyə bilərsiniz. Əgər sizdə zərrə qədər şübhə varsa, onda yaxşı olardı ki, "yox" deyin. "Yox"

kəlməsini eşitmək mənim üçün fəlakət olardı, ancaq mən qabağı görürəm və özümdə güc tapardım ki, buna dözüm.

Kənar müşahidəçidə bu nikahda məhz məhəbbət gözə çarpır və bu da bu ittifaqlarda bir çox çətinliklərin səbəbi olur.

Kuzminskaya T.A: Tolstoyların nikahı haqqında yazır: "Onlar bir-birilərinə baxdılar. Onun tərəfindən zəif qayğıkeşlik və qadın tərəfindən hansısa sevgi itaəti var idi. Mənə aydın oldu ki, onların hər ikisi ağrıdıcı dərəcədə qısqancdırlar və bununla öz həyatlarını zəhərləyirlər, özlərinin səmimi qəlbdən gələn münasibətlərini korlayırlar.

Aleksandrina Muravyova haqqında həməsr xatırlayır ki, "O, ərinə fədakarcasına məftun idi". Artıq katorqada zarafatla verilən suala, o kimi daha çox sevir, Allahı və ya ərini Aleksandrina Qriqoryevna tam ciddi olaraq cavab verdi ki, "Allah özü tənbeh etməz ki, o Nikituşkanı daha çox sevir".

Aleksandrinanın əri üçün kim demək olduğu onun məktublarından aydın görünür: "Mən aramsız olaraq sənin haqqında düşünürəm və səni səmimi qəlbdən sevirəm. Qarşılıqlı məhəbbətimiz bizim xoşbəxtlik üçün kifayətdir. Sən özün əvvəllər mənə yazırdın ki, bizim firavanlığımız bizim özümüzdədir".

"Ər böyük ruh düşkünlüyü dəqiqələrində mənə sənin portretinə baxmaq kifayətdir və bu məni ruhlandırır".

Aleksandrina Muravyova haqqında deyirdilər. "o məhəbbət təcəssümüdür". (İ.D. Yakuşkin) (Öküz). Məhəbbət işlərində və dostluqda onun üçün mümkün olmayan şey yoxdur". (İ. Puşkin) (At).



Romanovlar nəslinin, axırıncı çar cütlüyü haqqında yazılmışdır:

"Təvazökar darmştad şahzadəsi Aliksi dünyanın qüdrətli dövlətlərindən birinin şahzadəsi ilə məhz məhəbbət bağladı. Nə vaxt ki, şahzadə xanım onun arvadı olmağa razılıq verdi xoşbəxt şahzadə anasına yazırdı:

"Mən uşaq kimi ağlayırdım o da mənimlə bərabər. Bütün dünya mənim üçün başqa cür görünürdü. Rus imperatriçəsi Aleksandra Fefodrovna olan şahzadə xanım ona ingiliscə yazırdı: "mənim qiymətsiz Nikim, mənim dərin məhəbbətimi ifadə edən söz yoxdur, o gündən-günə dərinləşir və sədaqətlə doludur. İnanırsanmı sevgilim hiss edirsənmi, mənim ürəyim necə də tez-tez döyünür və yalnız sənin üçün, mənim ərim üçün".

Ümumi dil, ərin ağlına ən qəribə ideyalar gələndə və onu rahat buraxmayanda, nikahda ən yerinə düşən olardı. Sergey Solovyov yazırdı: Pyotr onun ürəyinə yatan, və ondan geri qalmayan Yekaterina Alekseyevna Skavoronskaya evləndi."

Ümumi dil hələ hər şey demək deyil, ər-arvad arasında müxtəlifliklər də var. Amma bu o haldır ki, müxtəliflik nikahda kömək edir, arvadın realizmi həyatdan əli üzülmüş ərə ayağa qalxmaq imkanı verir. Zidra Rittenberq xatırlayır: "Mən deyə bilmərəm ki, ona dəlisov məhəbbətə görə ərə getdim. Və o bunu başa düşürdü. Mən qəti dərk etdim ki, bu istedadlı, amma çox tənha insana lazımam. Yevgeni başısoyuq, səhlənkar yaşayırdı və mən başa düşdüm ki, onun istedadı sabun köpüyü kimi bir anda yox ola bilər. Ona özək lazım idi və o bunu məndə gördü. Və mən başa düşdüm, dərk

etdim ki, mən ona gözəl kukla kimi yox, bir insan kimi lazımam".

Aleksandrina Muravyovada: .... sonra hər şey olacaq: "Göz yaşları, əsəb tutmaları, ümidsizlik. Lakin çox vacibdir ki, ilk olduqca mürəkkəb an (ərin həbs edilməsi) o ruh sarsılmazlığı göstərir, özünü itirən çaşqın ərinə kömək edir".

Aleksandra Fyodrovna haqqında yazırdılar: "Hökmdar üçün böyük dərd idi ki, bu dəhşətli günlərdə onun həqiqi və yeganə dostu imperatriçə Aleksandra Fyodrovna onunla deyildi".

Əgər ayrı-ayrı şiddətlər təhlilsiz harmoniyanı riyazi hesablama yolu ilə yoxlamaq cəhdi olmadan inkişaf edərsə, onda bu cür nikahlarda hər şey gözəl ola bilərdi.

Ərin məhəbbətindən çiçəklənən bu cür ittifaq, bu məhəbbətdən məhv ola da bilər. Baş verənlərin məntiqli izahına cəhd ailə gəmisini daha qüvvətlə silkələyə bilər. Görünür ki, T.A. Kuzminskaya bu haqqda söyləmişdir:

"Onu (Tolstoyu) tanımaq lazım idi ki, başa düşəsən ki, xoşbəxtliyin adi şəkli onu qane edə bilməzdi... bu xoşbəxtliyin formalar ona bayağı, şit görünürdü. O, özünü əldə edilmiş ideallarm zəncirlərində hiss edirdi və əzab çəkirdi. O, ona sadiq, onu sevən və özünü bütünlüklə ailəsinə həsr edən, öz uşaqlarının anasını, arvadını sevməyə bilməzdi. Həyatında dəfələrlə təkrar edirdi: "Yox, artıq bu cür yaşamaq olmaz xoşbəxtlik bunda deyil." Onda bəs nədədir? O, bu xoşbəxtliyi bütün həyatı boyu axtarmış bəxt pərisini, tale quşunu axtaran kimi, o isə onun qəfəsində oturubmuş".

Biz burada bu növ nikahların əsas ziddiyyətlərinə çox yaxından yaxınlaşırıq. Bu nikah məhəbbət üçündür. Ər-



arvad nə qədər çox məhəbbət bağında olsalar, bu bir o qədər ailə üçün yaxşıdır. Məhz əbədi gözəl arvad olaraq o ərin rəfiqəsi olaraq qalır, arvad ona məhəbbət çılğınlığını, istisini saxlamağa kömək edir, lakin ərin mistik axtarışlarında onun ardınca gedə bilmir, çünki arvad hər nədəsə uzunmüddətli qeyri-müəyyənliyə dözmək iqtidarında deyil. Tələb etmək ki, arvad işlərdə ona yardımçı, silahdaş olsun yanlış olardı.

Biz artıq söyləmişik ki, Tolstoylar birgə həyatın ilk günlərində, başlanğıcında çox xoşbəxt idilər, "Amma indi 48 il keçmədən sonra, o çətinliklə ona dözürdü. Bəzən onun qoca, dərd-qəm içində məhəbbətə həris qalan arvadı onun yanına gəlirdi və qabağında diz çökərək xahiş edirdi ki, o, 50 il əvvəl öz gündəliyində sevgilisinə yazdığı valehedici məhəbbət sözlərini onun üçün ucadan oxusun. Və onda əri həmişəlik gedən o gözəl xoşbəxt günlər haqqında oxuyarkən hər ikisi ağlayırdı. Gör, həyat gerçəkliyi uzaq illərin romantik arzularından necə də kəskin fərqlənir."

## 10. Nikah. Ər-Siçan, arvad-Siçan

Əgər məhəbbət bütün dünyanı xilas etməsə də, bu nikahı arvad xilas edər. Lakin məhəbbətin çılğınlığında heç vaxt böyük dərinliyi əldə etmək lazım deyil. Arvada öz gözəlliyini qorumaq lazımdır ki, daha da seksual görünsün, ər isə məhəbbət xüsusiyyətlərini – geyimləri, gülləri, pulu yaddan çıxarmamalıdır.

Nikahın açıq xarakteri çoxlu dostların olmasına imkan verir. Öz məhəbbətinizi başqalarından gizlətmək olmaz. Qoy hamı sizdən zövq alsın, sizə fərəhlə baxsın.

11 Nikah. Ər-Siçan, arvad- Meymun

Bu nikahda siçan tayfasından olan bir çox donjuanlar öz məhəbbət karyerasını başa vururlar. Onları başa düşmək olar, nəhayət onlar istədikləri ideala rast gəliblər. Məhəbbət qarşılıqlı olacaq, amma ehtiyatlı olun.

Bu nikah, ilk növbədə, vektor dairəsi qanunlarına tabedir, buna görə də o stabilləşə bilməz. İradə ərə lazım olmayacaq, gec və ya tez onun nökər vəziyyəti mənəvi qoparmaya gətirəcəkdir. Bu özünü nədə göstərəcək qabaqcadan demək mümkün deyil. Vektor dairəsinə aid fəsili oxuyun.

12 Nikah. Ər-Siçan, arvad-Əjdaha

Nikah kifayət qədər dəqiq "bol-bol məhəbbət" tərifinə uyğundur. Arvad öz realizmini ailənin xeyrinə yönəldəcək, axı ortodoksal (öz məsələlərində ardıcıl və sabit olan) əlamətlər ailəliyin dayaqlarıdır, ər isə məhəbbətin bu ittifaqdan getməsinə yol verməyəcəkdir.

Gündəlik həyatda ərə ünsiyyət vacibdir; coşqun arvada isə olduqca az çirkli iş. Siçan ərə daha çox yüksəklik, ucalıq arzu etmək olar. Əjdaha kobudluğu sevmir. Qaldı ki, arvada, müvafiq olaraq, az ideyalılıq və inadkarlıq.

13 Nikah. Ər-Meymun, arvad-Siçan

Ərin cazibədarlığı sonsuzdur. Bu cür nikaha tez-tez bir çoxlarına rədd cavabı verən gözəllər girirlər. Nəhayət, arvadın idealı onunla yanaşıdır, amma qadın nə qədər



yaxşı və sədaqətli olsa da, düzünü axtarsan, ideal nikah olmayacaqdır. Bu nikah vektor dairəsinə tabedir və demək olar ki, hər şey gözləmək olar. Ümid edək ki, ərin rəhmdilliyi arvadı başa düşməsi imkan verməyəcəkdir ki, o sahib hüquqlarından arvadın zərərinə istifadə etsin. Arvada isə arzu edərdik qanuni ərinə qarşı qiyam qaldırmasın.

14. Nikah. Ər-Meymun, arvad-Əjdaha

Bir-birini gözəl başa düşən insanların ittifaqı. Ər arvadın daim kompliment eşitmək istəyini hiss edir, arvada isə ərin estetizmə qapılması, naturasının incəliyi, zərifliyi yaxındır. Ərin sirli, müəmmalı olması onun cazibəliliyini daha da artırır.

Ər yadında saxlamalıdır ki, arvadı onun kimi enerjili deyil. Əgər arvadın istirahət üçün kifayət qədər vaxtı olsa, onda onun xəyalpərəstliyi ərin qarşısında qəribə bir dünya açacaqdır. Arvadın ərinə heyranlığı onun bir çox arzularını yerinə yetirmə ruhlandıracaqdır. Əsası isə odur ki, ərə öz istedadını gizlətməyə imkan verilməsin.

15. Nikah. Ər-Meymun, arvad-Meymun.

Nikah qapalı xarakter daşıyır. Bir tərəfdən tam qarşılıqlı anlaşılma, digər tərəfdən isə şəxsiyyət müstəqilliyi üstünlük (prioritet) təşkil edir. Nikahın əsası hörmətdir.

Arvada ailədə başçı odur kimi düşünmək lazım deyil. Onun əri həmişə öz xəttini həyata keçirəcək. Öz ərinizin xeyirxah ürəyinə müraciət edin, onun qəribəliklərinə

iltifatlı, rəhmdil mülayim olun, onda siz çox şeyə nail ola bilərsiniz.

Əgər evin təchizat işləri arvadın əlindədirsə, onda yaxşı olardı ki, ərə öz istedadını açmağa imkan verməyin.

Biz əminik ki, sizin ikitərəfli siyasətçiliyiniz və ziyalılığınız sizə münasibətləri aydınlaşdırarkən hər hansı çətinliklərdən yaxa qurtarmağa kömək edir.

16 Nikah. Ər-Əjdaha, arvad-Siçan

Xarakterinə görə açıq-saçıq olan arvad ətrafındakılarda ərinə heyranlıq, məftunluq atmosferi yarada bilər. Bundan ruhlanan ər mümkün olmayanları, dağı dağ üstünə qoyar.

Hər ikisi naturalarına görə təsərrüfatçıdırlar və olduqca enerjilidirlər. Ər gözəl başa düşür ki, həyatda ən qiymətli şey ailədir. Arvad bunu yadında saxlayaraq ərinin real qəlbini qızdıran qəribəliklərinə iztirabla reaksiya verməməlidir.

17 Nikah. Ər-Əjdaha, arvad-Meymun

Ərin məhəbbətinin ülvi xarakteri arvada aydın olacaqdır. Eşqdən əlavə, bu ittifaqı romantikada tərk etməyəcəkdir.

Təsərrüfat baxımından burada problemlər olmamalıdır. Qızıl əlləri olan arvad ərin bu sahədə romantiq şövqünü qiymətləndirməyi bacarar. Ancaq arvad hiss etməlidir ki, ərinə istirahət və xəyallara dalmaq daha yaxşıdır.

O halda, əlbəttə problemsiz ötüşmək olar ki, əgər



praqmatik arvada ər "bu dünyadan xəbəri yoxdur" kimi görünsün.

18 Nikah. Ər-Əjdaha, arvad-Əjdaha

Öz vahidliyinə görə nadir nikahdır. Ər-arvdad hər şeyi, demək olar ki, eyni cür qəbul edirlər və onların hərəkətləri də bir-birindən o qədər fərqli deyil.

Onların hər ikisi ortodoksdurlar, deməli, ailə həyatını sevirlər. Amma qarşılıqlı inadkarlıq, tərslik, bir-birinə güzəştə getməmək, eyniliyin davamı kimi, çox pis nəticələr verə bilər.

Adətən arvad öz qəribə, tuhaf ərinə belə mühüm sahəni etibar etməyərək təsərrüfatı öz əlinə alır. Ər ona elə məhəbbətlə cavab verir ki, arvadın kənar şəxslərin komplimentlərinə ehtiyacı qalmır. Amma bir-birinə qapanaraq qalmaq məsləhət deyil.

## III FƏSIL. ƏLAHƏZRƏT QADIN

**Ər: Xoruz, İlan, Öküz**
**Arvad: Xoruz, İlan, Öküz**

Nümunələr:

I. Napoleon – Mariya Valevskaya (Öküz-Xoruz)
D. Kennedi – J. Kennedi (İlan-İlan)
N.P. Oqaryov – M.L. Oqaryova (Xoruz-Öküz)
F.I. Şalyapin – İ.İ. Şalyapina (Xoruz -Xoruz)
A.K. Tolstoy – S.A. Miller (Öküz-Xoruz)
N. Qubenko – J. Bolotova (İlan-İlan)
A.A. Fadeyev – A. Stepanova (Öküz-İlan)

A.Q. Razumovski – imperatriçə Yelizaveta Petrovna (İlan-Öküz)

Bu nikahları müasir adlandırmaq olar.

Arvadın iradəsi ona ailə həyatının bütün sahələrində əsas rolu oynamağa imkan verir.

Arvad ailə başçısıdır. Amma bu hakimiyyəti nümayiş etdirmək, gözə soxmaq lazım deyil. Bu sakit və yumşaq baş verməlidir. Qoy ər ailənin nominal başçısı hesab olunsun. Bununla belə nəzərə almaq lazımdır ki, arvadın iradəsi ərə də ötürülür. Bununla birlikdə kişinin xarakterinin digər xüsusiyyətləri fəallığı və məqsədyönlülüyü və bunların bu cür uyğunlaşması çox şey əldə etməyə imkan verir.

Arvad idarə etməlidir, lakin heç bir halda ərinin təşəbbüslərini boğmamalıdır, çünki ailənini qurulmasında bütün ümidlər arvadadır. Qoy arvadın ərinə məhəbbəti ona diktator olmamaqda kömək etsin, ancaq əri üçün zəruri iradə köməyi təmin etsin. Qoy ərin enerjisi necə deyərlər, sülh məqsədləri üçün istifadə olunsun.

Bütün ümumi dil tapmaq nikahlarında olduğu kimi burada da münasibətlərin xüsusi dərinləşmələrindən qaçmaq, ünsiyyətin ecazkar səthiliyini qorumaq, ailə həyatının məişət tərəfini sevmək, fikirlərini uşaqların üzərində cəmləşdirmək və sonradan da öz şəxsi, məhrəm işlərindən ayrılmaq imkanı əldə etmək.

Həqiqətdə bu cür nikahların ümumi dili necədir? Demək olar ki, bu dil mübariz, həmlə edən, hücumə keçəndir.

Şalyapin öz gələcək rəfiqəsinə məhəbbətini heyrətləndirici hücum stilində, çox saylı tamaşaçıların önündə izhar etdi. O səhnədə oxumağa başladı:

Onegin, and içirəm qılıncıma
Mən dəlicəsinə Tornagini sevirəm
Həyatım mənim kədərlə keçirdi
O peyda oldu və yandırdı...



Başa düşüləndir ki, Xoruz, İlan, Öküz üçlüyünün məntiqi, əlamət, işarə dili təkcə mübarizliyi ilə deyil, həm də möhkəm qaydalara normalara, qanunlara məhəbbətlə bağlıdır. Bəlkə buna görə də D. Kennedinin və J. Kennedinin nikahı Jaklinin qohumu yazıçı Qor Vidalda belə təəsürat yaratdı "XVII əsr ruhunda aksiya: təmiz iş müəssisəsi".

1850/51 ilin qışında A.K.Tolstoyun həyatında, onun bütün poeziysına və bundan əlavə onun bütün mənəvi bioqrafiyasına müstəsna təsir göstərən görüş baş verdi, o Sofiya Andreyevna Miller ilə tanış oldu. Qarşılıqlı hiss xarici manelərlə toqquşdu. Tolstoyun anası oğlunun aşiq olmasına qəti qarşı idi, Sofiya Andreyevanın əri boşanmaya razılıq vermirdi. İlk baxışdan bir-birinə aşiq olan, bir-birinə qovuşmağa cəhd edən iki insan öz məhəbbətləri üçün 12 il mübarizə apardılar.

Tolstoyun-Millerə məktubundan:"biz heç zaman tam xoşbəxt ola bilməyəcəyik, amma bizim mənəvi təməli, xeyixahlığı yaratmağa və onları bir-birimizə verməyə məmnunluğumuz var. Mən iztirablı və kədərli xoşbəxtliyi sevirəm"

Nikolay Oqaryov isə öz nikakını gör necə qiymətləndirirdi: "məndə bir damla da olsun dahi, iradə yoxdur. Lakin mən özümü həmişə istədiyim kimi aparacam: aldadıb çağıracaqsan-gələcəm, mənim ağuşuma tullanacaqsan qucaqlayacam, fikir verməyəcəksən geri çəkilə-

cəm, qaytaracaqsan-qayıdacam" Belə görürük ki, bu nikahın mənası fərasətli Oqaryovdan açıqlanmadı (yaddan çıxartmayaq ki, Xoruzlar çox fərasətlidirlər) və o arvadının iradəsinin böyük gücə malik olduğunu, onların münasibətində başçı olmağı haqqında öz hesabını çəkirdi. Və onların həyatı, Oqaryovla deyilən sxem üzrə baş tutdu. Qadın həmişə öz şərtlərini diktə edirdi, "gah bu, gah da digəri ilə çıxıb gedirdi, ər isə hətta belə nikah əlaqələrini poza bilmirdi"

Anatoli Aleksin maraqlı bir hadisəni danışırdı ki, İv Montan iradəli rəfiqəsinin təkidli çəkindirmələrinə baxmayaraq özünün xoşagələn, ancaq olduqca kinoartistin kamera səsilə fikirləşmədən aparıcı opera solistləri ilə vokal mübahisələrinə girirdi.

Bu konfuzun nəticələrini yekunlaşdıraraq Aleksin yazır "mən gördüm ki, qəribə olsa da o bir çox kişilər İv Montana həsəd aparırdılar, onlar onun səsinə və populyarlığına görə deyil, onun aktyorluq reputasiyası üçün ümidsiz halda mübarizə aparan belə bir arvadı olduğuna görə həsəd aparırdılar".

Bu nikahın əsas xüsusiyyəti necə də dəqiq göstərilmişdir - ər iş görür həyata keçirir, amma reputasiyaya arvad nəzarət edir. Bu cür nikah da belə də davam edir.

Imperatriçə Yelizaveta Petrovnanın Aleksey Razumovski ilə nikahı bu cür ittifaqların tipik nümunəsidir.

Xoruz, İlan, Öküz işarəli qadınlar məhəbbəti gözləmirlər, amma özləri sevirlər. Onların məhəbbəti kordur, öz sevgililərinin çatışmazlıqlarını görmürlər. Tarixçi Solovyov yazırdı: "Razumovski bacarıqsız və enerjisiz bir adam idi, amma öz vəziyyətindən razı idi, heç bir işə qarışmır, heç kimə və heç nəyə zərər yetirmirdi... bizə



Razumovski haqqında yalnız bir şikayət gəlib çatıb ki, kefli olarkən o sakit olmurdu.

Və bu cür insanı Yelizaveta sevərək onu xidməti pillələr ilə öz səviyyəsinə qədər qaldırdı: kamerger (saray xadimi), qraf, general-poruçik, general-feldmarşal. Yelizavetanın xasiyyəti onunla olan münasibətlərini qanuniləşdirməməyə imkan vermədi və bunun nəticəsi olaraq 1742-ci ildə gizli nikah qeydə alındı.

Razumovskinin karyerası 1762-ci ildə Yelizavetanın ölümü ilə sona çatdı.

Ola bilər ki, buna oxşar nikahların içərisində ən məşhuru I Napaleonun və Mariya Valevskayanın nikahıdır. Mariyanın Napaleonla münasibətlərinin bütün tarixi yumşaq, həlim, təmkinli, amma özünü tanışlığın ilk dəqiqələrindən göstərən, güclü qadın iradəsi ortaya qoyulması ilə yadda qaldı. Nə vaxt ki, o hətta kütlənin (döyüşdə olduğu kimi) onu tapdalayacağından belə qorxmayaraq, risk edərək, onu yararaq Napoleona tərəf addımladı və bütün bunlar onunla qurtardı ki, o Napoleonun böyük knyagina Anna ilə Polşa üçün arzu olunmayan nikahını pozdu.

"nə uyğundur, nə uyğun deyil kimi səhvsiz instinkt qabiliyyəti olan bu xanım şübhəsiz özünün çətin vəziyyətində onu sakit olmağı, əminliyi öyrətdi. Görünür ki, bu iradədir".

Kişiyə bu cür məhəbbətin və iradənin öhdəsindən gəlmək çətindir. Mariya Valevskaya Napoleonun "uzun illər davam edən yeganə, çox tez ötüb keçən aşiq olması deyil".

Bu cür nikahların pozulmasının əsas səbəbi, arvad tərəfindən həddən artıq təzyiq, sıxma-boğmadır.

İradə tərəfdən tarazlığın olmaması F.İ.Şalyapin ilə İola Tornaginin boşanmasının səbəbi oldu. Hər bir yuva nikahında olduğu kimi onların çox uşağı oldu (5) və "Şalyapin vətəndaş müharibəsinin çətin illərində özünün birinci ailəsinə qayğıkeşlik göstərirdi, müntəzəm olaraq onları ərzaqla təmin edirdi. O İola İqnatyevnaya qəlbdən yanaşır, məktublarında həmişə onun haqqında soruşur, onunla məktublaşır. Nə vaxt ki, İola Sovet Rusiyasından oğulları Fyodru və Borisi gətirir, Şalyapin onunla yaxın adamı kimi ünsiyyətdə olur. Şalyapin onunla boşanmasına yalnız 1927-ci ildə rəsmiləşdirir.

## 19 Nikah. Ər-Xoruz, arvad-Xoruz

Nikah açıq xaraker daşıyır. Ər-arvad belə hesab edir ki, hər bir qonaq Allahdandır. Amma yaxşı olardı ki, onları əhatə edən insanlar hər şeyin həddini bilsinlər. Arvada öz qərarlarını daha yumşaq, həlim həyata keçirmək lazımdır. Ər, əgər arvad ona özünü ailənin başçısı hiss etməyə imkan versə, arvadın liderlik roluna müqavimət göstərməyəcək. Kişinin kontaktlarını nəzarətdə saxlamaq və səbəb olmadan qısqanmamaq. Yaxşı olardı ki, sizin mübahisələr, küsüşmələr uzun sürən olmasın. Sizin hər ikiniz acığı tez soyuyan və kinsizsiniz, nəyə görə lüzumsuz ciddiliyi özünüzə yükləyəsiniz.

## 20 Nikah. Ər-Xoruz, arvad-İlan

Enerjili, bir az təlaşa düşən ər öz müvazinətli, təmkinli, zərif arvadında sakitlik və başa düşülmək tapır. Belə bir əri olan arvad özünə zəiflik göstərə bilər, işləməkdən daha çox dincəlməyə üstünlük verə bilər. ancaq ərin bu xeyirxahlığına nanəcibliklə cavab vermək lazım deyil. Şirnikdirici şeylərdən qaçın, tamahsızlanmayın. Qoy sizin hər ikiniz üçün əsas xoşbəxtlik sizin ailəniz olsun. Əgər əriniz tanışlarının sayını azaltmırsa, onda arvadın qısqanclığı vahiməli, qorxuducu gücə çevrilə bilər.



## 21 Nikah. Ər- Xoruz, arvad-Öküz

Öz məhəbbətinə baxmayaraq arvad ərini təkcə öz iradəsi və həm də insafsızlığı, kobudluğu ilə ərini qıra bilər. Heç bir diktat olmamalıdır. Təsərrüfat baxımından ər-arvad tam qarşılıqlı anlaşma tapmalıdırlar. Onlar üçün iş nə qədər çox olsa bir o qədər yaxşıdır. Avaraçılıq onların hər ikisi üçün məhvedicidir.

Yaxşı olardı ki, arvad ərinin çoxsaylı tanışlarını evdə toplamağa nail olsun. Bir tərəfdən nəzarət digər tərəfdən isə özününüzün möhkəm ailə olduğunuzu ətrafdakılara göstərmək xoşdur.

## 22 Nikah. Ər-İlan, arvad- Xoruz

Əgər arvad evdə rahat, komfortlu şərait yaradarsa, evi, öz açıq-saçıqlığı sayəsində mehmanxanaya döndərmirsə, onda ittifaq çox gözəl olacaqdır.

Arvada bütün tanışlarını yaddan çıxartmaq lazımdır, axı əri həmişə diqqət və qayğıkeşlik tələb edir. Əgər o bunu əldə edə bilmirsə, onda onun depressiyaları birgə mövcudluğu zəhərə döndərəcək. Qoy arvad öz ərində tez inciyən, mülayim qəlbi görsün.

23. Nikah. Ər-İlan, arvad-İlan

Nikah qapalı xarakter daşıyır. Bu onun rəhnidir ki, bu cür ittifaqları uzun müddət məhəbbət tərk etməyəcəkdir.

Iki həssas insan qovuşur, yox əgər onların yalnız özlərinə yazığı gələcəksə, onda ailə alınmayacaq. Arvad məhəbbətin və iradənin mənbəyi kimi, bu ittifaqı isindirir, lakin yaşlaşdıqca depressiya dövrləri hər ikisində arta bilər. Sakit və səliqə-sahmanlı ev ər-arvadın xilasıdır. Bu cür ailənin təsərrüfat tərəfdən həyəcanlanmağı lazım deyil. Bir məsləhət hər şeyi birlikdə edin və yaxud məişət işlərinin sahələrini dəqiq bölüşdürün.

24. Nikah. Ər-ilan, arvad-Öküz

Ehtimal ki, ər arvadın hökmlərinə dözməyəcək. Arvad öz səadətini, ailəsini dağıda bilər. Əgər arvad bütün məişət çətinliklərini öz üzərinə götürərsə, ərindən heç bir fəallıq tələb etməyəcəkdir, başa düşəcəkdir ki, ərinin daimi diqqətə ehtiyacı var, onda ailə olduqca möhkəm olar. Yenə də yalnız çoxlu şərtləri gözləmək şərtilə.

Konfliktlərdən qaçmağa cəhd edin çünki, onlar sizin dünyaya olan baxışlarınızın arasında bütün uçurumu üzə çıxara bilər.

25 Nikah. Ər-Öküz, arvad-Xoruz

Bu ailədə əsas iş və təsərrüfatdır. Ər-arvad fədakarcasına zəhmətkeşdirlər. Bir ailədə, demək olar ki, növbəti alış-veriş haqqında düşünməyən arvadla simic ər birliyi ziddiyyətlərə gətirib çıxarmamalıdır. Sizin hər ikiniz üçün ailə bu dünyada ən yüksək sərvətdir.



Bütün anlaşılmazlıqlara baxmayaraq yadda saxlayın ki, sizin baxışlarınız bir çox halda üst-üstə düşməlidir.

Arvada bilmək lazımdır ki, onun əri kifayət qədər iradəlidir, bununla yanaşı o özünə və ətrafdakılara xüsusi mərhəmətliliyi ilə seçilmir. Deməli, arvad böyük diplomat olmalıdır və işləri, münasibətləri araşdırmağa çatdırmamalıdır.

26 Nikah. Ər-Öküz, arvad-İlan

Ərin sanballılığa, təmkinliliyə, müstəqilliyə cəhd etməsi arvad tərəfindən qurulan evdə onun arvadında təcəssüm olunur. Bu cür arvad ərin nəzərinə çarpmadan onu yumşaqlıqla dəyişdirə bilər. Arvadın iradəsi ailədə təngə gətirən, zəhlə tökən olmamalıdır, arzu formasında söylədiyi qərarları ərin cəhdləri ilə bir-birinə uyğun gəlməlidir.

Ərin bütün istiqamətlərdə fəallığı arvada imkan verər ki, gərgin olmasın, çox istirahət etsin. Arvad isə cəhd eləməlidir ki, ərinə ailə başçısı və onu dolandıran imici yaratsın.

27 Nikah. Ər-Öküz, arvad-Öküz

Ər-arvad ekizlərin üçüncü və axırıncı nikahıdır. Dünyanın qavranılması və hərəkətləri hər şeydə üst-üstə düşür. Nikahın ortodoksal xarakteri onu daha da monolit edir.

Hər ikisinin xoşbəxtliyi ondadır ki, onlar həmfikirlərini tapmışlar. Ailənin səadəti üçün onların özlərinə ya-

zığı gəlmir.

Ər-arvadın eyniliyi konfliktlərin səbəbi ola bilər. Arvad iradənin həqiqi daşıyıcı kimi qiymətləndirməlidir ki, əri onun tez-tez digər kişilər üçün dözülməz olan güclü xarakterinə ərinin sakit münasibət bəsləməsini qiymətləndirməlidir.

## IV FƏSIL. SAKIT LIMAN

### Ər: Pişik, Qaban, Keçi
### Arvad: Pişik, Qaban, Keçi

Nümunələr:
İ.İ. Ulyanov - M.A. Ulyanova (Qaban – Keçi)
O.E. Mandelştam – N.Mandelştam (Pişik- Qaban)
V. Jukovski – M. Protasova (Pişik – Pişik)
K. Batyuşkov – A. Furman (Keçi – Qaban)

O qədər də ailəyə istiqamətlənməyən bu işarə altında doğulanlar üçün bu cür nikah yaxşılardan biridir. Nəzəriyyə bu nikaha gülümsəyir. Axı ümumi dil nikahında çox da dərinliklərə getmək, məna axtarmaq lazım deyil. Və bütün bu təbii sadəliyi seyrçi ər və ərin dilində sərbəst danışan mistik arvadın sakit nikahında asanca realizə etmək olar. Ər-arvada heç birinə sözlər lazım deyil, bir baxış, təbəssüm, him-cim tamamilə kifayətdir.

Ola bilər ki, nikah aktiv fəaliyyətə o qədər də meylli deyil. Nümunələrə baxın - onlar olduqca azdır. Dördündən üçü şairlərdir, biri müəllimdir. Deməli bu nikah poeziyaya zərər vurmur. Bəli, olarmı ki, şair sakit liman



arzusunda olmasın.

Jukovski "bilirdi ki, Maşa ilə o xoşbəxt olacaq. Ona kübar mənasızlığından uzaq kənd tənhalığında öz ocağı olan həyat görünürdü". Amma bu yalnız arzu olaraq qaldı. Jukovski və Protasova qohum çıxdılar və öz talelərini birləşdirə bilmədilər.

Ulyanovlar ailəsi haqqında çox yazılmışdır. Və hər bir kitabda bu rahatlıq və sakitlik atmosferası göstərilmişdir.

M. Prilejaeva "Yemək stolu arxasında qış gecələri bütün ana hekayələrini saymaq mümkün deyil. Ağ abajur altında asılan lampa yanır. Işıq yumşaq-yumşaq düşür. Danış, ana!"

"Onlar sakitcə zala daxil oldular. Yarıqaranlıq idi. Royalın şamdanlarında şamlar yanırdı. Anam çalırdı. Anam günəşli yay kimi, aydın işıqlı nə isə çalırdı. Volodya atam ilə küncdə oturdular, uzun müddət musiqiyə qulaq asdılar".

Məhz bu cür atmosfera üstəgəl ananın yumşaq iradəsi imkan verir ki, uşaqlarda olan bütün hər şey özünü biruzə versin. Adətən bu cür nikahlar çoxuşaqlıqlığı ilə fərqlənmirlər, amma onlar istedadlı uşaqlarla məşhurdurlar.

Arvadın iradəsi təkcə uşaqların tərbiyəsində özünü biruzə vermir, o nikahın bütün xarakterini müəyyən edir. Məhz arvad ailənin sevimlisi ərin həyatını kökündən dəyişən qərarlar qəbul edir.

Bir neçə söz M. Protasova haqqında: "Nə zaman professor Moyer ona evlənmək təklifi etdi birinci olaraq Maşa davam gətirə bilmədi, o təklifi qəbul etməyə hazır idi. Maşaya elə gəldi ki, o Vasili Aleksandroviçlə onların mürəkkəb münasibətlərindəki müşkül məsələni həll edə

bilər. Bununla bərabər o əmin idi ki, onlar dost olaraq qalacaqlar" əslində belə də oldu.

" Toydan sonra Jukovski Moyerlə daha yaxın oldu, Onların ümumi işi, onlara əziz olan qadının xoşbəxtiyi üçün çalışan sadiq yoldaşlar" oldular.

Anna Furman Batyuşkovun hisslərinə cavab vermək istəmədi və heç nə onun bu qərarını dəyişdirə bilmədi. "Tezliklə sevgilisinin həssas ürəyi ilə anladı ki, Anna öz razılığını öz şəxsi istəyinə qarşı çıxaraq vermişdir. Bu o demək idi ki, Annanın ona qarşı hissi yox idi. Bölünməmiş məhəbbətlə evlənmək isə ədəbsizlik və bayağılıqdır".

Mandelştam cütlüyü xoşbəxt idi. Burada da arvadın sərbəstlik xarakteri özünü göstərdi.

Osip Mandelştamın növbəti monoloqu İ. Odoyevtsevanın kitabında verilmişdir:

"Nadya sən yenə də mənim kostyumumu geyinmisən. Gör bir nəyə oxşayırsan. Abır-həya, biabırçılıq, deyərək arvadın məzəmmət edir".

Heç olmazsa Jorj onu inandırsın ki, bu ədəbsiz nalayiq hərəkətdir. Anna məni eşitmir və mənim kostyumlarımı köhnəldir, yırtıb dağıdır".

Bu cür söhbətlər atalar sözü ilə çox gözəl müəyyən edilir: "Ər-arvadın savaşı, yaz gününün yağışı".

Arvadın mistisizmi onu real dünyadan çox da uzağa apara bilməz, buna zəmin isə intuitor (intuisiyanı dərk etmək vasitə kimi qəbul etmək) ərdir. Ərin dünyanı başa düşməsi sağlam düşüncəyə, özgənin fəaliyyətinin yekunlaşdırmağa əsaslanır. Bəli, ər də öz-özlüyündə daimi diqqət, kifayət qədər qayğıkeşlik tələb edir. Arvadın iradəli köməyi ilə o həyatdakı bütün çətinliklərin



öhdəsindən gələ bilər.

Nadejda Mandelştam öz ərinin nə həbsi zamanı, nə Çerdinidə sürgündə, harada o intihara cəhd etmişdi, nə Voronejdə ikinci sürgün zamanı onu tərk etmədi. Ərinin ölümündən sonra o onun ədəbi irsini qorudu onu naşiri oldu və çətin günlər haqqında xatirələrini yazdı.

Nikahın çox sakit şəraiti fonunda arvadın iradəsi, əgər o nəzarətə tabe olmazsa, qəmgin, kədərli fəsadlar verə bilər. Axı ər heç bir hökmə, əmrə dözməz, və yaxud daha doğrusu, bu ittifaqda sakitliyin itirilməsinə yol verməz. Bu üçlüyün kişiləri bütün digər kişi cinsinin nümayəndələrindən fərqli olaraq gərginliyə, əsəbiliyə uzun müddət davam gətirə bilmirlər. Bu halda onlar ideal duyğunu, həyata tənqidi baxışı itirirlər, sadəcə olaraq, şəxsiyyət kimi mövcud ola bilmirlər.

Maşa Protasovanın həkim Moyerlə nikahından sonra "Jukovski həqiqətən də onlarla birlikdə Derptdə yerləşmək fikrində oldu. Lakin artıq tezliklə ağır, mənəvi süstlük başladı. Həyat romanı qurtardı..."

"Amma Batyuşkov nahaq yerə fikirləşirdi ki, ürək xəstəliyindən asanlıqla sağala bilər. Onun mənəvi vəziyyəti getdikcə kədərli və həyəcanlı olurdu. Bu böhran güclü əsəb pozuntusu ilə sona çatdı. İllərlə inoxondriya (xəstələnməkdən qorxma ilə baş verən ruh düşkünlüyü) inkişaf edir, o monastıra getməyə can atır, dəfələrlə həyatına sui-qəsd etməyə cəhd edirdi. Dəliliyi hədələyici xarakter alan zaman onu ruhi xəstələr üçün olan müəssisəyə yerləşdirdilər.

Axırıncı iqtibaslar (sitatlar) bu Pişik, Qaban, Keçi üçlüyünün qadınlarına xəbərdarlıqdır. Əgər sizsin iradəniz şıltaqlıqla, dava-dalaşla özünü doğrultmayan

tələblərlə ifadə olunursa, onda siz ailənizi itirmək təhlükəsi qarşısında olursunuz. Axı öz dincliyi üçün sizin ərləriniz hər şeydən keçərlər. Amma arvadın sakit nəzarəti ilə onlar ailəyə, uşaqlara çox şey verə bilərlər.

Dinclik arzusu bu ailə üçün xoşbəxtlik arzusu qüvvəsinə bərabərdir. Dinclik, dalğınlıq, həyatın sakit sevinci bütün bunları biz Nadejda Mandelştamın axırıncı faciəvi məktubunda tapa bilərik:

" Osyuşa bizim səninlə uşaq həyatımız necə xoşbəxtlik idi. Bizim küsüşmələr, deyişmələr, oyunlar və bizim məhəbbət. İndi mən hətta səmaya baxmıram. Əgər bulud görsəm, kimə göstərəcəm?

Yadımdadır biz necə yoxsul, avara üstüörtülü araba evimizə bizim dilənçi yemək-içməyi sürüyüb gətirirdik. Yadımdadır, möcüzə ilə əldə olunan çörək və onun ikilikdə yemək necə yaxşı idi? Və bizim Voronejdə axırıncı qışımız. Bizim xoşbəxt dilənçiliyimiz və şeirlər....

Hər bir fikrim sənin haqqındadır. Hər bir göz yaşı və təbəssüm sənə. Mən hər günə və bizim acı həyatımızın hər bir saatına xeyir-duamı diləyirəm, mənim dostum, mənim cığırdaşım, mənim kor bələdçim.

Biz kor küçüklər kimi bir-birimizə çarpırdıq və bizə olduqca xoş idi. Və sənin yazıq isti başın, və bütün dəliliklər, onlarla biz günlərimizi alovlandırırdıq. Bu xoşbəxtlik idi və biz həmişə bilirdik ki, məhz bu xoşbəxtlikdir...!"

## 28 Nikah. Ər-Pişik, arvad-Pişik

Nikah ər-arvadın romantizmi və xəyalpərəstliyi ilə coşub-daşır.



Bu cür nikahda iki tendensiya toqquşur: Ər-arvadın dinc xarakterinə görə qapanmaya cəhd və birinci tendensiyanın əksinə insanlarla ünsiyyətdə olmaq həvəsi, istəyi. Ünsiyyətdə olun, dincəlin və təsərrüfata o qədər də əhəmiyyət verməyin.

Arvada bilmək lazımdır ki, əgər ər evdə arvadın üzündən onun şıltaqlığı, isterikası üzündən dinclikdən məhrum olarsa, onda o çıxıb gedər. Sərbəstlik və qarşılıqlı hörmət və bir-birinə az iddia, tələb çox vacibdir.

Təbii analogiyaya çox da bənd olmayın, çoxlu uşaq lazım deyil.

## 29 Nikah. Ər-Pişik, arvad-Qaban

Ər-arvad bir-birlərini kifayət qədər yaxşı başa düşürlər. Onlar ikilikdə və səs-küylü kompaniyalarda vaxtı eyni cür asan keçirirlər. Ağıllı uyğunlaşma zamanı bu hər ikisi üçün yaxşıdır.

Birgə həyat zamanı məişətlə və ərin ailə işlərində tamamilə iştirak etməmək arzusu ilə toqquşan arvad özünün başısoyuqluğunu, səhlənkarlığını yaddan çıxarmalı və rahat, dinc ocaq yaratmaq üçün məqsədyönlü işləməlidir. Yalnız dinc şəraitdə ər maliyyə fəaliyyətində uğurlar qazana bilər.

## 30 Nikah. Ər-Pişik, arvad-Keçi

Çox ehtimal ki, arvad əgər, əlbəttə, o döyüşkən pişiklə toqquşmayıbsa ərini hər hansı bir sahədə daha fəal olmağa məcbur edəcək. Arvad üçün əsas hədd-hüdudu qorumaqdır, çünki ər şıltaqlığa uzun müddət davam

gətirməyəcək.

Evin təsərrüfat işlərinə öz öhdəsinə götürərkən, arvad evdə çox dostcasına bir şərait yaratmalıdır. Amma, digər tərəfdən, ərin üzərində daim nəzarət lazımdır, çünki kişinin məsuliyyətsizliyi həddini aşar.

Əgər xəyalpərəst ər arvadına olan diqqəti yaddan çıxarmırsa, onda o bununla öz həyatını çox yüngülləşdirər.

31 Nikah. Ər-Qaban, arvad-Pişik

Ünsiyyət zamanı ərin nəşəli, əyləncəli və səhlənkar olması arvadın yüngüllüyü ilə gözəl uzlaşır, birləşir. Çətin ki, onun şikayətləri ərin ürəyinə yol tapsın. Arvada dözüm göstərmək və ərin ürəyinə dolayı yol tapmağa cəhd etmək lazımdır. Ailə həyatının bütün digər sahələrində və ərin soyuqluğu ilə barışmaq lazım gəlir.

Əgər qarşılıqlı tələblər olduqca böyük olacaqsa, onda bu cür nikahın dağılması ehtimalı böyükdür, çünki, ər nəyi isə bağışlamağa meylli deyil.

32 Nikah. Ər-Qaban, arvad- Qaban

Nikah qapalı xarakter daşıyır. Nəşəli, əyləncəli, əhlikef, kompaniya sevən adamlar bir-birini taparkən və tam anlaşılma hiss edərkən sakitləşirlər. Nikah tez-tez baş tutmayan iş təəsüratı yaradır.

Təsərrüfat çox vaxt lazımi səviyyədə aparılmır, bu ər-arvadın hər ikisinin mövcudluq üsuluna tam etinasızlığının nəticəsidir. Əgər qaban həqiqətən "yelbeyindirsə" onda kənardan əsən küləkdən qorxun.



33 Nikah. Ər-Qaban, arvad-Keçi

Arvadın iradəsi sabahkı gün haqqında düşünməyən əhlikef əri ailə firavanlığı üçün çalışan enerjili bir insana çevirməlidir. Arvad üçün isə əsas diktatdan, hökm etməkdən qaçmaq və evdə sakit olmağa cəhd etməkdir. Ərin soyuqluğu ilə barışmaq lazımdır. Axı, özünə yazığı gəlməyən ərin digərlərinə də yazığı gəlmir. Ailəni təkcə yaxşı maddi vəziyyət deyil, həm də ər-arvadın zərifliyiə və ziyalılığa ümumi cəhdi möhkəmləndirər.

34 Nikah. Ər-Keçi, arvad-Pişik

Əgər ər-arvad həyat çətinliklərinə qarşılıqlı şikayətdən qaça bilsələr, onda bu çox uğurlu ittifaqdır.

Əgər ailə enerjili, zəhmətkeş ər üçün etiraz qəbul etməyən avtoriterdirsə, onda ailə üçün gözəl maddi şərait yaradacaqdır. Arvad özünə çox vaxt ayıra bilər, məişət, iş, uşaqlar arasında özünü min yerə vurmaz, ər hər işə vaxt tapar.

Amma arvad ərini diqqətdən kənarda qoymamalıdır, dərdinə şərik olmalı, onun bəzi zəhlətökənliyini bağışlamalı, onun ambisiyalarının gülünc olmasını qabartmamalı, axı o uşaq kimi küsəyəndir.

35 Nikah. Ər-Keçi, arvad-Qaban

Ər çox ehtimal ki, bu cür əhlikef, əyləncəli və ruhdan düşməyən arvadla taqətdən düşər, zəifləyər. Ərin məqsədyönlülüyü və enerjisi istirahətə və fəaliyyətsizliyə düçar olar. Amma hər şeyin öz hədd-hüdudu olmalıdır.

Qoy ər bu cür sakit mövcudluğun, həyatın maliyyə təminatını yaddan çıxarmasın. Nikahın qapanması hər ikisinin maraqlarına qarşı getmir. Ərin estetik meylləri arvad tərəfindən başa düşüləndir. Çətin ki, ər arvaddan ona çox vacib olan diqqəti və şəfqəti, hüsn-rəğbəti ala bilsin, görə bilsin. Seksual münasibətlərdə də çətinliklərin olması tamamilə mümkündür.

36 Nikah. Ər-Keçi, arvad-Keçi

Ər-arvadın ortodoksal (bir məsləkin sabit və ardıcıl tərəfdarı olan şəxs) olmağı nikahı çox monolit edir. Ailə üçün yarananlar bütün öz güclərinin evdə rifah, firavanlıq, zəriflik yaratmaq üçün sərf etməlidirlər, buna yönəltməlidirlər. Uğur onlar üçün təmin olunmuşdur.

Hər ikisi həssasdır, eyni vaxtda isə kəskin adamlardır. Bir-birinizi qoruyun, qarşılıqlı anlaşmada olun, özgənin fikrini qəbul etməmək istəyi sizin ailəni möhkəmləndirməz. Daha təbii olun, gizlətməyin ki, siz xasiyyətinizə görə uşaqsınız.

Yadda saxlayın ki, uzunmüddətli gərginlik sizin üçün əsəb pozuntularına gətirib çıxarar. Qoy eviniz sizin üçün dinclik və etibarlıq adası olsun.



# III HISSƏ. *ÜMUMI TƏFƏKKÜR* *(bərabər nikah)*

Əgər ümumi dil tapmaq mümkün deyilsə, onda niyə ümumini saf insan mühitində, ümumi fikirlər, ümumi iş, ümumi məna içərisində bunu tapmayasan. Bərabər nikah tərifində bu nikahın bütün gözəllikləri və çətinlikləri verilmişdir.

5 Fəsil

Ər: At, İt, Pələng, Arvad: Xoruz, İlan, Öküz

6 Fəsil

Ər: Xoruz, İlan, Öküz arvad: At, Pələng, İt

7 Fəsil

Ər: Siçan, Meymun, Əjdaha, Arvad: Pişik, Qaban, Keçi

8 Fəsil

Ər: Pişik, Qaban, Keçi, arvad: Siçan, Meymun, Əjdaha

Bir çox insanların nikahda bərabərliyə nail olmaq arzusu yuxarıda göstərilən ittifaqlarda əldə olunur. Nə məhəbbətdə, nə hakimiyyətdə, nə təsərrüfatda ər-arvaddan heç biri heç bir üstünlük qazana bilməzlər. Elə gələ bilər ki, buna yalnız sevinmək lazımdır. Amma ər-arvad mürəkkəb və əzablı, tikanlı yola qədəm qoyurlar. Birincisi, ər-arvadın bərabərlyi onları üstünlük qazanmaq üçün mübarizəyə qaldıra bilər. Ikincisi, bu növ nikah ər-arvadın hər birini daim öz üzərində işləməyə məcbur edir. Axı müstəqil şəxsiyyət öz üzərində kiminsə üstünlük qazanması ilə barışa bilməz. Bu nikahda sənin

nailiyyətlərinə qısqanclıqla baxan, sənə çatmağa cəhd edən, səninlə yanaşı sənin yoldaşın, sənin rəqibin, sənin hakimin durur.

Əgər o səndən geri qalıbsa və gücü hələ tükənməyibsə səni ötüb keçməyə cəhd edəcəkdir.

Ola bilər ki, bu yarışda praktiki, ani məna yoxdur, lakin əvəzində mənəvi məmnunluq olduqca böyükdür.

Birinci hissə nikahlarından fərqli olaraq burada hər şeydə məna axtarmaq dərinliyə gedərək sermyaqa həqiqətini (sermyaqa həqiqəti: zarafatyana, dərin və sadə, nəyinsə canından gələn bir həqiqət) müəyyənləşdirmək lazımdır. Daimi söhbətlər, oxunan, sezilən, hiss edilənlərin müzakirəsi, ən balaca belə hərəkətin izahı, aydınlaşdırılması, sizə nəyin sizi birləşdirdiyini axtarıb tapmağa kömək edir. Və, əksinə, tam başa düşülməyən mühitdə adətlər, maneralar, rejim və s-dən yaxa qurtarmaq və yaxud onlara şərtləndirici əhəmiyyət vermək lazım deyil. Bu cür nikah səthi münasibət mərhələsində yaxa qurtararaq o saat dərinləşməlidir. Əgər kişilərdə mahiyyət dilə uyğundur, onda o qadınlarda gizlədilmişdir. Onu açmaq lazımdır. Bunun üçün daimi ünsiyyət və söhbətlər aparmağa ehtiyac var. Bir də, əgər ayrılıq varsa mütləq ətraflı yazışmalıdır. Nahaq yerə bu növ uğurlu nikahları cildlərlə yazışmalar müşaiyət etmir. Və, əlbəttə, məhəbbət sevgi ər-arvadda eynidir və onlar bir-biirlərini asan başa düşürlər. Bundan əlavə məhəbbət bu cür yarış xarakterli nikahı yumşaldır.

Söz yox bu cür nikahlarda üstünlüyü iradi və məntiqli növ təfəkkürə malik olanlar qazanırlar (fəsil 5 və fəsil 6) mistikləri və intuitorları ən çətin və mürəkkəb yol gözləyir.



Peşədən çox şey asılıdır. Siyasətçi və yaxud yazıçı, hərbçi və yaxud multipikator üçün həyatda təfəkkür dildən daha çox önəmlidir. Bu cür nikahlarda onlar özlərini daha inamlı hesab edirlər.

Kompaniya, bir yerdə vaxt keçirmək, oturub-durmaq bu nikah üçün qurtuluşdur. Beləki, ər-arvad ailəni təkcə öz uşaqlarını tərbiyə etmək üçün yuva, yataq, yuvacıq kimi görmürlər, həm də bir iş birliyi yaradırlar. Əgər ər-arvadı iş birləşdirirsə, bu ya siyasət və yaxud biznes ola bilər, hakimiyyət uğrunda mübarizə və yaxud yaradıcılıq olsun, hər şey yaxşı olacaqdır. Bəs uşaqlar? Onlar bu nikahda işə sipər ola bilməz.

## FƏSIL 5. MƏHƏBBƏT VƏ IRADƏ (DAŞ QAYAYA RAST GƏLDI)

**Ər: At, Pələng, İt**
**Arvad: Xoruz, İlan, Öküz**

Nümunələr

V.İ.Lenin – N.K.Krupskaya (At-İlan)
İ.S.Turgenyev – Polina Viardo (Pələng-İlan)
İ.A.Bunin – V.N.Muromtseva (At-İlan)
Pol Lafarq – Laura Marks (Pələng-İlan)
A.Dovjenko – Y.Solntseva (At-Öküz)

Adətən bu cür nikah qarşılıqlı və ehtiraslı məhəbbətə görə bağlanır. Məhəbbət aşiqlərin qarşısında duran bütün dil sədlərini dağıdır. Onlar bütünlüklə öz hisslərinin qulu

olur, tez-tez öz məhəbbəti xatirinə mümkün olmayan işlər görürlər. Və əgər hər ikisinin həyatında idraka böyük yer ayrılırsa, onda hələ yazışmaq imkanı var.

Lenin həbsxanada yatarkən Krupskayaya öz məhəbbətini "kimyəvi" üsulla yazılmış məktubda etiraf etmişdi. Şuşenskidən, yenə də "kimyəvi" üsulla Nadejda Konstatinova yazdı ki, onun yanına gəlsin və onun arvadı olsun.

Nataliya Dmitriyevna Fonvizina "gizlicə, öz uzaq malikanəsinə getmək adı ilə Sibirə dostlarının yanına getdi. Buna İ.İ. Puşşinlə qabaqcadan olan yazışma səbəb oldu, bu da tam parlaq sübut etdi ki, "məhəbbət qocaya, cavana baxmır" 1857-ildə ürəyin hökmü ilə (və həmçinin ecazkar ikonanın məsləhəti ilə) 52 yaşlı N.D.Tonvizina 59 yaşlı dekabristlə nikaha girdi.

Turqenev Viardoya yazırdı: "Mənə yeddi ildən sonra bütün həyatımda sizə həsr olunan həmin dəyişilməz, həqiqi, dərin hissi özümdə hiss etmək çox xoşdur. Bunu duymaq mənə günəşin parlaq şüası kimi təsir edir".

"Nə qədər ki, mən yaşayıram bu cür xoşbəxtliyə layiq olmağa cəhd edəcəm.

Mən bu sərvəti özümdə daşıdığım andan özümə hörmət etməyə başladım".

Qarşılıqlı məhəbbətlə isinən insanlar bir-biri üçün yaşayırlar. Polina Viardonun rus yazıçısına məktubu təsdiq edir ki, yazıçının ona olan hissi (yer üzündə heç vaxt görünməyən – onu yazdığı kimi) cavabsız deyildi, o, qarşılıqlı idi.

Təbiətdə fədakar hər hansı romantik hiss və romantik məhəbbət müstəsna deyildir.

Um-el-Banin İ.A. Buninin arvadı haqda yazır: "ona



məftun idim, qəlbinin xeyirxahlığı insana sadiqlik halbuki, o buna layiq deyildi, qısqanclığın tamamilə olmaması... qadın üçün yalnız vacib o idi ki, o xoşbəxt olsun".

Amma romantik öz hisslərini idarə edə bilmir. O yalnız istəyir ki, məhəbbət dəyişilməz qalsın və başa düşmür ki, dünyada hər şey dəyişir. Buradan da bütün faciələr başlayır.

Heç kim Bunin qədər öz yaradıcılığında romantik məhəbbətin əzablarını verə bilməmişdir. O Mixaylov yazır: məhəbbət Bunində faciəvidir, məhəbbətdə dünyanın əsaslarında mükəmməlliyin olmamasına qarşı etiraz və çağırış səsi ucalır... Buninin personajları öz yolunda xoşbəxtlikdən bədbəxtliyə qədər çatırlar, onlara verilən xüsusi, son dərəcə "ülvi" təvazökar hüdudda təbiətlə və əbədiyyətlə ideal hissləri tələb edərək çəkişməyə qədər qalxırlar.

Buninin qardaşı Yuliyə olan məktublardan misralar:

" Öz iztirablarının təsvir etməkdən imtina edirəm və heç lazım da deyil. Lakin mən həlak olmuşam, bu baş vermiş faktdır. Bir az bundan əvvəl mən üç saat stepdə (çöl) uzanaraq həm ağlayır, həm qışqırırdım, ona görə ki, bəlkə də heç bir insan böyük iztirab, böyük ümidsizlik, təhqirlər və qəflətən itirilən məhəbbəti, ümidi bütün bunlardan həyəcanlanmayaraq və yaşamamışdı. Sən təsəvvür edə bilməzsən mən onu necə sevirəm. Mənim ondan başqa əziz və qiymətli adamım yoxdur".

İki romantikin qarşılıqlı məhəbbəti hüdudsuzdur. Kiminsə məhəbbəti soyuyar, konfliktlər yaranar, iradə baş qaldırar və bunlar hər şeyi qəti surətdə qarışdırarlar.

Polina Viardo ərini tərk etməmək qərarına gəldi,

bunun iradəli bir qərar olduğuna şübhə yoxdur.

Budur onun sözləri: "Mənim həyatımda acı dəqiqələr çox idi... mən böyük səhvlər edə bilirdim ona görə ki, iradədən məhrum olmuşam. Mən onu vaxtında əldə etdim ki, canım dişimə tutaraq öz borcumu yerinə yetirim, mənim idrakım və onunla bərabər iradən mənə qayıtdı. Ona sahib olaraq mən hamıdan güclü oldum. Mən səhvlər etmədim.

Bəli, Turgenyev və Viardo bütün həyatı boyu öz romantik məhəbbətlərini daşıdılar, amma ailə qura bilmədilər.

Bu cür nikahlarda ər-arvad ən qısa yolla anlayırlar ki, onlar eyni adamdırlar buna görə də rəqabət ruhu (daş qayaya rast gəldi) məhəbbət tükənəndə onların birgə mövcudluğunu zəhərləyə bilər. Ola bilər ki, bu nikahda müştərək iş, xoşbəxt həyatın ən mühüm komponenti ola bilsin.

Solntseva Dovjenkonun bütün filməlrinin ən yaxşı aktrisası idi.

"Vera Nikolayevna Buninin arvadı olduqdan sonra, demək olar ki, yarım əsr ərzində onu müşaiyət etdi, ona hörmət göstərərək, qayğısını çəkdi, onun yazıçı adətlərini və hətta "Yanının" şıltaqlıqlarını öyrəndi. Bunun jurnalistlərdən birinə dedi: baxın mən tezliklə öləcəm və siz görəcəksiniz Vera Nikolayevna yenidən "Arsenyevin həyatını" yazacaqdır".

Bəli, birgə yaradıcılıq, əməkdaşlıq bu nikahın ən yaxşı variantı hesab oluna bilər. Turgenyevin və Viardonun ittifaqı haqqında məhz belə yazılmışdır: Viardo özünü bəstəkarlıq sahəsində sınamaq istəyəndə o (Turgenyev) onun üçün romans mətnləri, libretto və ssenarilər yazırdı. Turgenyev Viardonun tənqidi rəyini yüksək qiymətləndirərək onu özünün bütün yaradıcılıq ideyaları ilə tanış edirdi.



"Nadejda Konstantinovanın həyatındakı ən yaxşı işıqlı günləri Vladimir İliçlə bağlı idi. Nadejda Konstantinovna deyirdi ki, o şəxsi həyatında xoşbəxtdir. Amma o təkcə arvad deyildi... Leninin asan olmayan bütün həyatı boyu Nadejda Konstantinovna onun sadiq dostu və silahdaşı, onun partiya yoldaşı oldu". ... "Vladimir İliç Nadejda Konstantinovanı inqilabçı və marksist kimi qiymətləndirir və hörmət edirdi, daim onunla məsləhətləşir, biirnci olaraq onunla fikirlərini və planlarını bölüşdürürdü. Onların əməkdaşlığı tam və harmonik idi".

Yekunda mütləq demək lazımdır ki, nə vaxt nikahda iki güclü şəxsiyyət varsa, onda birinci yerə bir-birinə hörmət qoyulmalıdır. Yalnız bu cür münasibət saysız-hesabsız konfliktərdən qaçmağa imkan verər.

## 37 Nikah Ər-At, arvad-Xoruz

Nikah açıq xarakter daşıyır. Yaxşı olardı ki, böyük evə və açıq stola malik olasınız.

Ərin həssaslığı onun sevgilisinin saflığını, adiliyini, yerkənliyini təəccübləndirə bilər, lakin bu həyata ümumi baxışla müqayisədə xırda bir şeydir.

Burada romantik ehtiras coşur, dalğalanır, ola bilsin ki, buna görə də məhəbbət öz yerini hakimiyyət uğrunda mübarizəyə verərək bu cür ittifaqı tez tərk edir. Yadda saxlayın ki, bu mübarizə mənasızdır.

38 Nikah. Ər-At, arvad-İlan

Ər-arvadın xarakterlərindəki müxtəliflik təmiz və zahiridir. Məhz onlar möhkəm ailənin qurulmasına kömk edirlər. Ərin açıq-saçıqlığı və enerjili olması arvadın estetizmi və təmkinliliyi ilə uzlaşır. Hər ikisinin məhəbbəti və həssaslığı onların ittifaqını yalnız möhkəmləndirir. Məhəbbət aləmini tez tərk etməyə çalışmayın.

Qadın iradəsinin üç nümayəndəsindən yalnız İlan ərini tam başa düşə bilər, onun işində öz xüsusi yerini tapar.

Ər yadda saxlamalıdır ki, onunla yanaşı komfortu və rahatlığı sevən zərif, incə bir adam var.

39 Nikah. Ər-At, arvad-Öküz

Bu ittifaqda digərlərindən daha tez birinci yerə iki iradənin mübarizəsi çıxır. Arvad sadəcə öz hakimiyyətpərəstlik və diktatorluq şakərlərin iddiaların gizlədə bilmir. Həssas qəlbə və müstəqil xarakterə malik ər buna uzun müddət dözə bilməz.

Əgər ər təsərrüfat problemlərini arvada həvalə edib evin qurulmasın prosesinə müdaxilə etmirsə, çox ağıllı və müdrik hərəkət edir. Arvad yadda saxlamalıdır ki, əri iradəsinin yumşaq və həlim olmasına baxmayaraq güclüdür.

40 Nikah. Ər-Pələng, arvad-Xoruz

Böyük müxtəlifliklərə əsaslanan nikahda vaxtı gələndə hər şeyin yerini bilmək əsas olur. Ər heç vaxt arva-



dından ona arzu olunan absolyut tabeçiliyə nail olmayacaq. Öz sevgilisini bütün dünyaya qısqanmağa əsas yoxdur. Arvad bütün bacarıq və istedadını ideal və nəfis, ən əsası isə, sakit ailə qurmağa yönəltməlidir. Daimi qonaqlar əri yalnız qıcıqlandıracaqlar.

41 Nikah. Ər-Pələng, arvad-İlan

Nikah estetik xarakter daşıyır. Hər ikisi təkcə qəlblə deyil, həm də davranışda, geyim tərzində, məhəbbətdə komforta və rahatlığa görə kübar, əsilzadə, aristokratdırlar.

Daimi qarşılıqlı nüfuz, bir-birinin maraqları ilə yaşamaq ehtiyacı məhəbbəti bu ittifaqdan uzun müddət buraxmır. Ər-arvadın mərhəmliyi bərabər nikahda çox vacib olan qarşılıqlı nüfuzu yoluna qoymağa kömək edir. Yalnız mərhəmli olana quyunun dərinliyinə girmək olar.

42 Nikah. Ər-Pələng, arvad-Öküz

İki iradə, iki məhəbbət, ən əsası isə vektor dairəsi. Əgər o burulmağa başalyırsa, onda praktiki olaraq nikahı xilas etmək mümkün deyil. Real həyatda ər-arvadın demək olar ki, qarşılıqlı təmas nöqtəsi yoxdur. Arvad evdar qadındır, həm də enerjili, insafsız, rəhmsiz və bu cür fəallığı ərindən tələb edəndir. Ər sakitliyi xasiyyətcə estet nökərdir. Ərin iradəli xasiyyəti alçaldılmaya məruz qalmayacaqdır. Nikahın yaşamaq şansı olduqca azdır. Birdən möcüzə baş verə bilər və sahibə öz passiv və fərasətsiz ərinə yazığı gələr, onda birgə həyat mümkündür.

Amma... şəraitə görə çıxış edin. Məhəbbət qısqanclıqla əvəz olunar.... riskə getmək məsləhət deyil.

43 Nikah. Ər-İt, arvad-Xoruz

Və yenidən iki iradə, iki məhəbbət və vektor dairəsi. Ər-arvadda ümumi cəhətlərin çox olmasına baxmayaraq nikah kifayət qədər ümidsizdir. Arvadın məhəbbətinə baxmayaraq ərinə hörməti olduqca çətin əldə olunur. Əvvəl-axır arvada onunla darıxdırıcı və usandırıcı olur, axı o ünsiyyətli, canlı qadındır. Qovğalar, küsüşmələr, tez-tez baş verir. Şübhəsiz ki, sahibə həmişə haqlıdır, nökər-ər ümidsizlikdən döyüşə atıla bilər. Nikahı yalnız hər ikisinin xeyirxahlığı xilas edə bilər. Bir də standart məsləhət olduqca az kontaktda olmaq. İş, iş və yenə də iş.

44 Nikah. Ər-İt, arvad-İlan

Ər, arvad tərəfindən tam anlaşılma əldə edir. Ər üçün bu olduqca vacibdir, çünki hər hansı bir ədalətsizlik onun tərəfindən ürək acısı ilə duyulur. Qarşılıqlı pessimizim bu ittifaqı çətin ki, möhkəmləndirsin. Ər-arvada arzu olunardı ki, onlar öz evlərini tərki-dünyaya çevirməsinlər və qəti surətdə qapanmasınlar.

Qoy arvad ərinin inadkarlığını və düzlüyünü ürəyinə salmasın.

45 Nikah. Ər-İt, arvad-Öküz

Yenə də iki məhəbbət, iki iradə və vektor dairəsi. Amma yaddan çıxarmamalıyıq ki, burada sahib hər halda ərdir. Ər-arvadın qovuşması vektor dairəsindən əlavə



ortodoksallıq müstəvisində baş verir, arvad, təbii olaraq, bütünülüklə ərin mövqeyinə keçir. Ər isə daha çox aqressiv olur.

Arvad ər ilə hər şeydə razıdır. Onun həyata olan şikayətlərinə məftunluqla qulaq asır, şıltaqlıqlarını yerinə yetirir və dözür. Ailənin qurulması üçün canından keçir, özünə yazığı gəlmir. Bu sərt, acıqlı qadının bu cür ərlə yanaşı necə şam kimi əriyib getməsini müşahidə etmək çox qəribə və təəccüblüdür.

## VI FƏSIL. ÜMUMI IŞ.

**Ər: Xoruz, İlan, Öküz**
**Arvad: At, Pələng, İt**

Nümunələr:

F.M. Dostoyevski – A.Q. Dostoyevskaya (İlan-At)
Qyustav Flober – Luiza Kole (İlan – At)
Elem Klimov – Larisa Şepitko (Xoruz-Pələng)
Yuri Nornşteyn – Yadviqa Yarbusova ( İlan – At)
V.M. Şukşin – L.N. Fedoseyeva- Şukşina (İlan – Pələng)
Pol Nyumen – Coan Vudvort (Öküz – At)

Deyildiyi kimi, bütün bərabər nikahlardan bu ən əlverişli və münasibdir, bir halda ki, məhz orada ümumi işi tapmaq və birgə işləyərək bir-birini başa düşmək daha asandır.

Nornşteyn və Yarbusova ümumi iş tapdılar, hər ikisi animasiya ilə məşğul oldular, xanım bütünlüklə məntiqi

təfəkkür mühitində (rəsmiyyətləşdirilən) yaşayır və dil fərqlərini aşkar etmir. Sədd mövcud deyildir. Sadəcə bəxtləri gətirən cütlük kimi Pol Nyumeni və Coan Vudvortu göstərmək olar. Onlar 30 ildir ki, evlidirlər. Bu Hollivud ulduzlarının ümumi işi kinomatoqraf var. Bərabər nikahda həmişə olduğu kimi rəqabət ruhu mövcuddur. Coan Vudvortun müsahibəsindən: "əvvəllər mən çox güclü qısqanırdım , ona görə ki, Pol heç hər hansı bir görünən problem olmadan ulduz oldu, halbuki mən ikinci eşelonda qaldım.. Onda mən də ulduz olmaq istəyirdim..."

Müxbirin: "siz 1958-ildə evləndiniz ... Sizin ər-arvad həyatınız (1991-il) indi çətindir və yaxud ağırdır" sualına Pol Nyumen belə cavab verdi: "asan. Rəqabət problemi yoxa çıxdı".

Belə, onlar buna necə nail oldular? Coan Vudvortun sözləri bu cür nikahda yaşayanlar üçün parol ola bilər. O dedi: "biz həmişə çalışmışıq ki, baş tuta bilməyən hər şeydə birlikdə baş çıxardaq və yoluna qoyaq".

Hollivudun iki ulduzunun nikahı bərabər nikahlar üçün bir də onunla tipikdir ki, ər –arvadın işi ailədən üstündür. Anadan olduğu gündən analığa, ailəyə, evə meylli olan Coan Vudvort (at) deyir: "mən möhkəm əminəm ki, qadın hər şeyi əldə edə bilməz. Mənim qızlarım bir-birinin ardınca dünyaya gəldilər, axşam çəkilişlərdən evə qayıdarkən onlar artıq çoxdan yatmışdılar.... Mən öz-özümdən soruşurdum... "Sən niyə onları doğdun? "onların görünüşü məni qıcıqlandırırdı və mən onlara münasibətdə ədalətsiz idim. Əgər bu gün seçim etməli olsaydım, yəqin ki, ana olmazdım".

Ər-arvad çox fəaliyyətli bürclərə məxsusdurlar və



hətta onların məqsədləri tamamilə müxtəlif olsa belə asanlıqla ümumi işin zəruriliyini dərk edirlər. Yadımızdan çıxarmayaq ki, At, Pələng, İt üçlüyünün qadınları öz meyllərinə, qabiliyyətlərinə görə ərin silahdaşıdırlar, hətta bərabər nikahda onlar öz həyatlarını ərin maraqlarına tabe edə bilərlər.

İllər keçdikdən sonra Coan Vudvort etiraf edirdi ki, bir şeyə çox sevinirəm ki, mənim şöhrətim ərimin şöhrətindən az idi.

Bizim tariximizdən F.M. Dostoyevskinin nikahı... onun həyatına o yazıçı fəaliyyətinin ən böhranlı anında daxil oldu və o saat onun işində əvəzolunmaz köməkçiyə çevrildi, onun mühafizə edən pəri oldu. 14 il Dostoevski ilə birlikdə və otuz yeddi il onun xatirəsinə həsr olunan ömür Anna Qriqoryevna üçün zamanın amansız real münasibəti oldu.

Leonid Qorssman yazırdı ki, Anna Dostoevskayanın həyatı "fəaliyyət məhəbbəti adlanan çətin və nadir hadisə nümunəsidir".

Anna Qriqoryeva Dostoevskaya ömrünün sonunda yazırdı: "20 yaşım olanda mən özümü Fyodr Dostoyevskiyə həsr etdim. İndi mənim 70-dən çox yaşım var və mən hər bir fikrimlə, hərəkətimlə təkcə ona, onun xatirəsinə, işinə, uşaqlarına, nəvələrinə məxsusam".

Lidiya Flodoseyeva – Şukşina: "Şukşin mənim ağrım, mənim sevincim, mənim fəxrim, mənim yaddaşımdır."

Lidiya Nikolayevna V.M. Şukşin adına incəsənət və mədəniyyət mərkəzi yaratdı. Budur onun sözləri. "bu andan etibarən, mərkəzlə bağlı olmayan nə varsa mənim üçün ikinci plana keçdi... uzun aylar Mərkəz bizim mətbəxdə fəaliyyət göstərdi, biz burada gecələr aramsız

olaraq mübahisə edir, müzakirə aparır və təkliflər irəli sürürdük...

- Nə oldu, çəkilişlər ikinci plana keçdi?
- Mümkünmü? Çəkilişlərə vaxt yoxdur. Mən demək olar ki, heç yana çıxmıram.

Hər ikisinin zəifliyinin və superfəallığının səbəbi daim özünü təsdiqləməkdir. Və bunun nəticəsi kimi saysız-hesabsız komplekslər.

Flober Luiza Koleyə yazır: "bədbəxt təhlil maniyası tamamilə mənim zəhləmi tökür. Mən hər şeyə şübhələnirəm, Hətta öz şübhələrimə də . Sən məni elə sevirsən ki, özündə illyuziyalar yaradırsan, məndə istedad, ağıl, üslub (stil) tapırsan. Bu məndə! Məndə!. Sən artıq tənqidi bacarığını itirmisən və səni sevəni böyük insan kimi qəbul edirsən. Axı mən bülbül deyiləm, meşənin cəngəlliyində gizlənən birəbitdən quşuyam ki, onu özündən (savayı) başqa heç kim dinləmir. Əgər ki, mən haçansa görünsəm yalnız öz əsərlərimlə təchiz olmuş halda ola bilər, buna isə mənim cəsarətim çatmaz.

Ər-arvad bir-birinə öz komplekslərini və şübhələrini aradan qaldırmaqda kömək edə bilərlər. (bunun üçün isə ümumi iş və daimi fəaliyyət lazımdır).

Amma ola bilər ki, bunun əksi baş versin. Komplekslər güclənsin. Ərin və arvadın mübariz ruhu, onların etirazları açıq bildirməsi fəsadlara gətirib çıxara bilər. Şər deməsən xeyir gəlməz deyiblər, axı düzlük və ani reaksiya hər ikisi üçün çox cazibəlidir.

Dostoyevski haqqında yazırdılar: "ki, Anna Qriqoryevna öz-özlüyündə qalaraq ərinin ağır xarakterinə heç bir az da olsun uyğunlaşmırdı. Onların görüşdükləri ilk günlərdən düzgün götürülmüş bu müstəqillik Dostoyevski tərəfindən qiymətləndirildi və tezliklə o özünü artıq "əziz Aneşkasız" təsəvvür edə bilmirdi.



Amma düzlükdə, israrlı olmaqda, təkiddə ölçü lazımdır. Bu bürclərin nümayəndələrini çox ehtimal ki, tələsdirmək yox, dayandırmaq lazımdır.

Flober yazırdı: Məni heç bir şeyə məcbur etmə, mən hər şeyi özüm edəcəm.

At, Pələng, İt bürclərindən olan qadınların romantik və füsunkar gözəlliyi insanı ovsunlayır, valeh edir. Onların obrazı romantik məhəbbətlə doludur.

Flober Luiza Koleyə etiraf edirdi: "Sən mənim cəsarət edib xoşuna gəlmək istədiyim yeganə tayı-bərabəri olmayan bir insansan və ola bilər ki, xoşuna gəldiyim də tək sənsən. Mən maşın dəqiqliyi ilə yaşayırdım... Sən ortaya çıxdın və barmaqlarının ucu ilə gəldin ki, bütün bunları alt-üst edəsən. Köhnə mayalar qıcqırıb coşdular, ürəyimin gölü titrəməyə, çırpınmağa başladı. Mən... səni həmişə düşünürəm, sənin çöhrən, çiyinlərin, mərmər kimi zərif boynun, gülüşün, sənin ehtiraslı amiranə bununla bərabər məhəbbət çığırtısı kimi, zərif səsin haqqında daim düşünürəm"

Optimist Atların İlan bürclü kişilərlə nikahı xüsusilə əlverişlidir. Bu nikahların əsas xüsusiyyəti həyat enerjisinin az ehtiyatı, daim üzə çıxan pessimizmdən ibarətdir.

Nümunə kimi Floberin məktubundan bir parçanı göstərək: "Həmişə uşaq görərkən mən fikirləşirəm ki, o qocalacaq, beşik görəndə isə yadıma qəbir düşür. Qadın görəndə onun skeletini təsəvvür edirəm. Şən, sevincli şəkillər məni kədərə, qəmə qərq edir. Mən olduqca çox əzab, iztirab çəkirəm. Ağılsız kədər mənim boğazımdan yapışdıqda mən öz-özümə ağlasığmaz dərəcədə nifrət

edirəm". (kişi-ilan fenomeni haqqında "şərq ulduz falının sirrləri" kitabında ətraflı yazılmışdır).

Bu da bir-birinə zidd, əks, qütb. Həməsr Anna Dostoyevskaya haqqında xatırlayırdı. "O, (Dostoyevskiyə) tam zidd idi, olduqca şən, nəşəli, elə ki küçəyə çıxdı, qayıdanda özü ilə bir aləm xəbər və bir qucaq gülüş gətirər. O, uzun müddət güləyən qız oldu.

At qadından optimizim alan kişi-İlan borclu qalmır. o öz həyat yoldaşına həyatda ona kifayət etməyən soyuqqanlılıq, təmkinlik, sakitlik verir. Doğrudanda, bəxtiyar nikahdır.

## 46 Nikah. Ər-xoruz, arvad-At

Açıq nikah, burada qaynar fəaliyyət və optimizim hökm sürür. Hər iksində olan enerji bolluğu vardır. Əgər arvad öz iradəsini həddindən artıq şişirtsə və əri üzərində hökmranlıq iddiasına düşərsə bu mənfi rol oynaya bilər.

Bundan qaçmaqdan ötrü ərə hər hansı bir işdə dincəlmədən əhəmiyyətli uğurlara nail olmaq lazımdır. Olbəttə yaddan çıxarmaq olmaz ki, ümumi iş nə qədər çox olarsa, bir o qədər yaxşıdır.

## 47 Nikah. Ər-Xoruz, arvad-Pələng

Bu nikahda ər-arvadın fərqli olması nikahı möhkəmləndirir. Arvad ərin bir tələşlı fəaliyyətinə sakitlik və məqsədyönlülük gətirir, ərin enerjisi isə hər ikisinə bəs edər. Arvadın yalnız ərinin maraqları ilə yaşaması ailəni daha da möhkəmləndirir. Onlar tez-tez bütün işləri birlikdə görürlər.



Arvad öz pis əhval-ruhiyyəsini ərinin üstünə tökməməyə çalışmalıdır, ər həyatdan yalnız yaxşı şeylər gözləyir.

Əgər bir az müəmmalıq haqqında, onda bu iki mistik bürclərdə hər hansısa son həddə çatdırılmış bilik idrak vardır.

## 48 Nikah. Ər-Xoruz, arvad-İt

Vektor nikahında daim şübhələr içində yaşayan arvad özünəinamlı, zahirən effektli ərə rast gəlir. Adətən o kompaniyanını döyünən ürəyi, vuran qəlbi olur və onun çoxlu dostları var.

Arvad dəlicəsinə xoşbəxtdir, öz həyat yoldaşı üçün hər şey etməyə hazırdır. Arvad elə ailə ev quracaqdır ki, ər heç vaxt onu dəyişdirmək istəməyəcəkdir. Əgər ər, arvadı üzərində olan hakimiyyətini dərk edərək arvad-nökəri qoruyacaqdır, onda bu nikaha uzatmaq olar, amma nə qədər? Heç kim bilmir.

Ərin açıq-saçıqlığı tənhalıqda qalmaq müddətini azaldacaqdır bu da səadətdir. Yalnız qoy arvad qısqanmasın.

## 49 Nikah. Ər-Ilan, arvad-At

Arvad ər üçün tükənməyən həyat enerjisi və mənbəyidir. Arvad ərin energetik azalmalarını və pis münasibətini söndürür.

Hər ikisi həssas və incə, zərif adamlardır, onlar həmişə bir-birini başa düşür, hər hansı bir istəyi cavabsız qoymurlar.

Arvadın böyük əməksevərliyi ərə heç olmazsa ailə təsərrüfatında gərginləşməməyə imkan verir.

Ər arvadın geniş tanışlıq dairəsinə ağrı ilə reaksiya verməməlidir. Yadda saxlayın ki , sadiqlik sizin sevgilinizin xarakterində olan keyfiyyətdir.

Arvadın kişinin işlərinə müdaxiləsinə mane olmayın.

50 Nikah. Ər-Ilan, arvad-Pələng

Nikah qapalı xarakter daşıyır. Hər ikisi estetdir, məhz bu yaxınlaşmaq üçün əsasdır. Söylənilməmiş, üstüörtülü qalmış sözlər, yarı eyhamlar, kinayələr, söz atmaq anlaşılmazlıq üçün təməl ola bilər. Yaxşı olardı ki, hər şey o dəqiqə aydınlaşdırılsın, işin özbaşına getməsinə ümid etmək olmaz.

Arvad da öz xəyalpərəstliyində yaddan çıxarmamalıdır ki, onun əri çox həssas insandır və halına acımağa ehtiyac duyur. Arvada həmçinin təsərrüfatı da yaddan çıxarmaq olmaz.

Bir-birinizi qoruyun. Hər ikisində uzunsürən azalmalar, depresiyalar olur, bunlar yaşlaşdıqca yalnız inkişaf edirlər. Bununla xüsusi olaraq ər fərqlənir.

51 Nikah. Ər-Ilan, arvad-It

Arvad yadda saxlamalıdır ki, fəallığına baxmayaraq ərin həyat enerji ehtiyatı çox azdır. Qoy arvad ona təkcə təsərrüfatda deyil, həm də işdə və hər şeydə kömək etsin.

Sakit, rahat ev daim ərin problemlərinə həyəcanlamaq arvadın depressiyasını azaldır. Bunda hamı rahatlıq tapar. Yalnız iradəli metodlarla əri növbəti potensial çuxurdan



çıxartmağa ehtiyac yoxdur. Arvadın inadkarlığı və tərsliyi burada pis rol oynaya bilər.

52 Nikah. Ər-Öküz, arvad-At

Ər-arvadı birləşdirən başlıca şey bu yüksək praktiklik, bütün vasitələri və ehtiyacları öz fəaliyyət dairəsinə daxil etmələridir.

Hər ikisində enerji bolluğu, əgər sülh məqsədlərin istifadə olunmursa konfliktlərə səbəb ola bilər. Işləmək, işləmək və bir daha işləmək.

Arvadın şıltaqlığı, tərsliyi ərin kobudluğu ailə "gəmisini" tamam çalxalaya bilərlər.

Ailə yaratmaq arzusu hər ikisində vardır, amma arvadın açıq-saçıqlığı kişini qıcıqlandıra bilər. Arvada isə öz tanışlıq dairəsini daraltmaq məsləhət görmək olar. Yadda saxlayın ki, sizin əriniz xasiyyətcə mülkiyyətçidir.

53 Nikah.Ər-Öküz, arvad-Pələng

Vektor nikahı, həlledici ehtiras və o dəqiqə başa düşülür ki, bu cütlükdə məhəbbət hərarəti, qızğınlığı yoxdur. Nikah ən səbatsızlardan (dəyişkən) biridir, çünki ər-arvadı vektor ehtiraslarından əlavə başqa bir şey bağlamır. Inadkar, tərs, mənsəbpərəst, hakimiyyətsevən, rəhmsiz ər öz zərif arvadına yazığı gəlmir. Arvad isə ərin ona təklif etidyi aktiv həyat obrazına dözmək iqtidarında deyil. Arvadın depresiyalara meylliyi daha da güclənəcəkdir.

Bundan başqa öküz güclü hüququndan istifadə etməsə

də və onu saxlaya bilər, amma arvadın əsəbləri nökər vəziyyətinə dözməyə bəs edəcəkmi?

54 Nikah. Ər-Öküz, Arvad-İt

Yenə də vektor nikahı, amma indi ər nökər rolunu oynayır. Dairədən əlavə ər-arvadı ortodokslallıq bağlayır. Onlar hər şeyi yaddan çıxararaq birlikdə ailəninin möhkəm bazasını qurmaq üçün çalışırlar. Bu cür ittifaqda ideyalar hökmranlıq edir.

Ər daha mülayim və güzəştə gedən olur, o, öz sevgilisinin xeyri üçün özünə belə yazığı gəlmir. Amma arvad ərin bu fədakarlığını layiqincə qiymətləndirə biləcəkmi? Ola bilər ki, öz evinə malik olmaq möhkəm ailə qurmaq kimi qarşılıq həvəs onların ittifaqını xilas edər?

## 7 Fəsil. Müstəqil insanlar.

Ər: Siçan, Meymun, Əjdaha
Arvad: Pişik, Qaban, Keçi

Nümunə:

Cek London – Çarmian Kitteric (Siçan – Keçi)

Osip Brik – Lilya Brik (Siçan – Pişik)

Ivan Panayev – Avdotya Panayeva (Meymun – Pişik)

Nikolay Nadejdin – Yelizaveta Suxovo – Koblina (Siçan – Qaban)

Fyodr Uvarov – Yekaterina Uvarova (Lunina) (Siçan-Qaban)

Fyodr Raskolnikov – Larisa Reysner (Əjdaha – Keçi)



Mistik ittifaqdır. Zarafatla desək, bu iki cadugərin ittifaqıdır. Əgər ciddi yanaşsaq onda bu nikah məhəbbətdən yaxşı, hətta olduqca yaxşı başı çıxan adamların nikahıdır. Başqaları üçün müəmmalı olan bu sahədə onlar üçün heç bir sirr mövcud deyil. Nahaq yerə A.P. Çexov etiraf etmirdi ki, o əbədi olaraq sevə bilər.

Lilya Brik Bulat Okucava (Siçan) haqqında demişdi: "Oy o məhəbbəti necə də hiss edir".

Lilya Brikin özü haqqında deyilmişdi: "Əgər o kimisə məftun etmək istəyirdisə, buna asanlıqla nail olurdu... xoşa gəlmək bu onun qanında idi!"

XIX əsrin şairəsi Karolina Pavlova (Pişik) kişi ürəkləri üzərində şərtsiz hakimiyyətə malik idi.

Bir ailədə həqiqi məhəbbət mənbəyi ərin və seksual nüfuz etməyə malik arvadın qovuşması seksual-məhəbbət sahəsində tam harmoniyaya gətirir.

Robert Baltrop Cek Londonun və Çarmian Kittericin ittifaqı haqqında: "Çarmian Cekdən ər-arvad sadiqliyini əldə etməyə nail oldu. İllər ərzində Cek ona məhəbbət məktubları yazmağa davam edirdi və Çarmianın fiziki məziyyətlərini qeyd edirdi.

Cek ona yazırdı... öz vəcdi, şövqü haqqında. "onun sevimli və gözəl bədəni haqqında "onlar bir-birini "Mənim kişim", "mənim qadınım" adlandırırdılar".

Məhz məhəbbət ər-avada kömək edir ki, başa düşsünlər ki, onlar tamamilə eyni adamdırlar. Bir tərəfdən onlar məhəbbət sahəsində "ali təhsilə" malikdirlər, və onda yeni, açılmayan, məlum olmayan heç bir şey kəşf edə bilmir, bir-birini heç bir şeyə öyrədə bilmirlər. Bu cür məhəbbət bolluğu tamamilə gözlənilməyən nəticələrə gətirib çıxara bilər. Arvad başqasına qoşulub gedir: Lilya

Brik öz həyatını Mayakovski (İlan) ilə bağladı, Avdotya Panayeva Nekrasovu (İlan) mülki izdivacla qeyri-dini kəbinlə arvadı oldu. Bu digər adam adətən sirli seksual-məhəbbət münasibətlər sahəsini böyük istəklə başa düşməyi ilə fərqlənir, məhəbbət mühitini əldə etməyə çalışır. Ilan kişilər seksual-məhəbbət sahəsində olan ən potensial bürclərdən biridir.

Amma ən təəccüblüsü və diqqətə layiq odur ki, bu məhəbbət üçbucaqları qaçılmaz həlledici olmadılar. amma bütün iştirakçılar üçün çox möhkəm və faydalı oldular.

Nekrasov Panayev ilə (onun pulları ilə) birlikdə "sovremennik" jurnalını dərc etdilər. Onların dostluğuna həm də vektor dairəsi öz möhürünü vurdu. Bu Panayevin vaxtından tez ürək tutmasından ölümünə səbəb oldu.

Veronik Polonskaya yazır: "mən heç cür Brikov və Mayakovskini həyat situasiyasını başa düşə bilmirdim. Onlar elə mehriban və dost, ailə kimi yaşayırdılar ki. bilmək olmurdu onlardan hansı Lilya Yuryevanın əridir.

Lilya Brik yazırdı: "anlaşılmazlığa yol verməmək üçün bir ildən çox idi ki, mən arvad deyildim. O, Brik öz həyatını Mayakovski ilə bağladı. "Üçlükdə" məhəbbət haqqında heç bir söhbət ola bilməzdi. Mən Brikə deyəndə ki, Vladimir Vladimiroviç və mən bir-birimizi sevirik o cavab verdi ki, mən səni başa düşürəm, amma gəl səninlə heç vaxt ayrılmayaq".

Bu izdivacda ən əsas O. Brikin "mən səni başa düşürəm" sözləridir, Brik və Mayakovski ittifaqını onların özündən başqa heç kim başa düşmürdü. Və sənin ikinci "mənin" olan insanla möcüzəli yaxınlıq hissini Briklər bütün həyatı boyu daşıdılar".



"Osip Brik ölümünə qədər (1945-il) Lilya Yuryevanın yanında sanki onun böyük rəfiqəsi, bacılığı, həmişə iltifatlı, rəhmdilli və riqqətli, ürəyi yumşaq idi. Osip Brik, onun əvvəllər etdiyi bütün hərəkətlərini izah edib, müdafiə və hamilik edərdi. Onlar arsındakı bu qəribə əlaqə axıra qədər davam etdi və bunun sonluğu Lilya Yuryevna tərəfindən əsl bədbəxtlik kimi dərk edildi. Lilya öz tanışına deyirdi "Volodya və Primakov (ikinci əri) ölərkən özləri öldülər, amma Osipinin ölümü ilə mən də öldüm"

Mayakovski və Osip Brik təkcə dost deyildilər: "1916-cı ildən başlayaraq onun əsərlərində bütün durğu işarələri Briklə qoyulurdu. Onun gözü və əli demək olar ki, hər mərhələdə, ideyanın birinci müzakirəsindən başlayaraq, axırıncı redaktəyə və nəşrə verilənədək hiss olunurdu. "Lenin poeması" üzərində işləyərkən Mayakovski demək olar ki, dəfələrlə Leninin əsərlərinə müraciət etdi, ona lazım olan materialı isə Brik seçirdi... Onların 15 illik dostluğu dövründə Mayakovski Brikin erudisiyasından, onun kitabla işləmək bacarığından, siyasi və redaktorluq duyğusundan, fərasətindən, nəhayət, istiqamətin seçilməsində olan sakit əminliyindən və öz həqiqətinə dəyişilməz sədaqətinədən istifadə edirdi".

Amma nədir idarə olunan məhəbbət? Ola bilər ki, bunun müəyyən olunmasına Rober Baltrop Cek London haqqında yazarkən hamıdan yaxın oldu: "Cek sadəcə olaraq fiziki məmnunluq tələb etmirdi. Prinsip etibarilə qadınla özgə qarşılıqlı münasibətləri inkar edirdi. O məhəbbəti fiziki eşq, şövq kimi başa düşə bilərdi və bu cür məhəbbətə öz sadiqliyini, sədaqətini qoruyurdu. Məhəbbət daha mürəkkəb formalar alarkən özgə iradəsinə

emosional tabeçilik tələb edirdi və qadını başa düşmək istəmir və hisslərin başdan ayağa yalan olduğunu elan edirdi.

Gerçəkliyə adekvat olmayan çətin izahedilməz hərəkətlər ər-arvadın qismətidir".

Moskva universitetinin professoru Nikolay Nadejdin (O Çaadeyevin "Fəlsəfi məktubu"nu dərc etdirmişdi). Yelizaveta Suxovo-Kobelina ilə gizlincə kəbin kəsdirməli idi, amma yuxusu gəldiyinə görə öz sevgilisini gözləməyərək məxfi görüş yerindən çıxıb gedir. Necə deyərlər : "Sözüm yoxdur".

Yekaterina Uvarova (Lunina) guya ki, rahib Mixailə (gələcək dekabrist) məftun idi. O, Parisdə olan Mixaylə yazır: "Məni əhatə edən xoşbəxtliyə baxmayaraq, sənin olmamağın mənə ağır dəqiqələr yaşadır". Dekabristlərin üsyanından sonra, rahib həbs olunarkən Yekaterina əri ilə birlikdə miras üçün çəkişməyə başlayır.

"Uvarovanın ərizələri adamı heyrətə salır: sanki mümkün olmayandır ki, bu cür qadın, hətta ərinin hökmü və təsiri altında hansısa iyrənc, mənfur şeyləri yaza bilsin. rahibin vəsiyyətnaməsi üçün mübahisə aparsın. Lakin çəkişmənin ən qızğın vaxtında Uvarovanın əri, kamerger və mülki müşavir, gözlənilmədən, yekaterina Sergeyevanı "dul, təkcə dul deyil" həm də iki azyaşlı uşağı və bərbad təsərrüfatla, borcla qoyaraq izsiz-soraqsız yoxa çıxdı". "Bütün bunlar" qadında unudulmaz təəsürat oyatdı. Bütün qalan ömrünün insanlara yaxşılıq edərək "günahlarını" yumağa başladı.

Ailə həyatında Yekaterina Uvarova xoşbəxt idi. Onun əri "xoşagəlməyən rəftar ilə fərqlənirdi" və buna görə də. yoldaşlarının məhəbbətindən uzaq idi. Amma axırıncı cəhət ər-arvadın xoşbəxt və sakit, dinc həyatını pozmurdu".



Ər-arvadın müstəqilliyi ailə həyatının məişət, təsərrüfat hissəsi üçün çox da yaxşı deyil. Ər-arvadın idarəolunmayan iradəsi həm ideya-fiks, həm sistemsizlik, həm də nə olacağı bilinməyəndir. Əgər müstəqilliyin neqativ tərəfi realizə olunursa, onda kimin ağzı hara düşdü, ər-arvad hərə bir tərəfə kimi meşəyə, kimi odun dalınca gedəcəkdir. Deyəsən bu yeganə nikahdır ki, orada ailə qayığı məişətə dəyib dağıla bilər".

Cek London və Çarmian haqqında yazılmışdır ki, "onunla Çarmian arasında hər şey heç də yaxşı deyildi. Bu cür şəklə düşmüş insanla yaşamaq demək olar ki, mümkün deyildi... Digər tərəfdən həm də Çarmian ev şəraitinə uyğulaşa bilmirdi. Atla gəzinti və dəniz səyahətləri zamanı xanım ideal yoldaş idi. Cek Çarmianın dözümlülüyünün möhkəm xarakterinin qarşısında baş əyirdi. Amma malikanədə və yaxud Havay adalarında, şən qəbullarla və brendi ilə vaxt keçirirdilər ki, Çarmina bunlara çox laqeyid idi və eyni zamanda çox dəymədüşər olmuşdu. "Katibəlik vəzifələri onu usandırırdı, o Ceklə iş dalınca harayasa getməkdən imtina edirdi".

Mümkündür ki, məhz bu nikahda hər şeydən çətin onları xilas edə bilən ümumi işi tapmaq olsun, axı ər-arvadın iradəsi idarəolunmayan və müstəqildir. Onlar məqsədlərin bir-birinə uyğun gəlməsi təsadüf nəticəsində ola bilər. Ümumi işlə məşğul olan müstəqil insanların ittifaqı haqqında daha bir nümunə.

Fyodr Raskolnikov Nina Berberova onun haqqında yazır: "Sofiyada sovet səlahətli nümayəndəsi... Baltik donanmasının fəxri və şan, şərəfi 1917-ci il haqqında kitabın müəllifi". O tarixdə Stalinə hələ 1939-cu ildə yazdığı

məktublarda şəxsiyyətə pərəstişi ifşa etdiyinə görə qaldı.

Onun arvadı Larisa Reysner haqqında yenidən Berberova yazır: "Raskolnikov cavanlığında məşhur kommunist, jurnalist və vətəndaş müharibəsinin iştirakşısı Larisa Reysnerə birinci nikahla evləndi. Larisə 1926 ildə yatalaq xəstəliyindən öldü.

O vaxta qədər ki, London və Kittericin ümumi işi var idi, hər şey çox gözəl idi. "Çarmian kart oynamağı və gəmini idarə etməyi öyrəndi, o Ceklə bokslaşır, onun əsərlərini yenidən dərc etdirir, korrekturanı oxuyurdu". Bəli, ümumi iş onları birləşdirirdi. Amma şəxsi işlər mühafizə olunan müstəqilliyin tilsim dairəsində qalmışdı.

Ümumi işlər, ümumi maraq yoxa çıxanda, ayrılıq qaçılmaz olur. Con Bernə katiblik vəzifələrini verən Çarmian Cek Londonu müşaiyət etməkdən əl çəkdi, onlar demək olar ki, görüşmürdülər.

Robert Baltrop Cek London haqqında yazırdı: O, " Mən belə istəyirəm" prinsipi ilə yaşayırdı. Amma bu sözləri həm Çarmian Kitteric, həm də Lilya Brik və Avdotya Panaeyevaya aid etmək olar (axırıncı iki qadın haqqında fəsil 12 danışılacıqdır).

Görünür ki, bu sözlər müstəqil adamların və müstəqil insanların nikahının devizidir.

## 55 Nikah. Ər-Siçan, arvad-Pişik

Nikah açıq xarakter daşıyır. Olduqca sakit arvad ərini daha az impulsiv edərək ona daha səmərəli təsir göstərə bilər. Müştərək iş axtarın, bəlkə sahibkarlıqla məşğul olmaq?

Ər yadında saxlamalıdır ki, arzular və istirahət onun



sevgilisinin imtiyazıdır. Əgər arvad rahatlıqdan məhrum olsa, onda ona şıltaqlıqlar, həyatdan şikayət əzab verəcəkdir. Hər birinin öz şəxsi məşğulliyəti olmalıdır. Ailə çətinlikləri şəraitində siz həmçinin dostlarla ünsiyyətdən kənarda qala bilərsiniz.

## 56 Nikah. Ər-Siçan, arvad-Qaban

Ərin açıq-saçıqlığı arvad tərəfindən asanlıqla qəbul edilir. Məhrəm, arvad bu nikahda olduqca gülərüz və ünsiyyətli olacaqdır.

Təəssüflə demək lazımdır ki, nikah laxladılmış, intizamsız ola bilər, ona görə ki, gah bir tərəfə, gah da digər tərəfə sistemsiz vurnuxmalar hər ikisi üçün xarakterikdir, xüsusən ona görə ki, arvad hansısa dərəcədə ərin təsiri altına düşür.

Həddindən artıq bir-brinin nazı ilə oynamaq lazım deyil, amma ümumi iş axtarmaq (məhəbbətdən əlavə) zəruridir.

## 57 Nikah. Ər-Siçan, arvad-Keçi

Arvadın məqsədyönlüyü və təkidli olması ərdə özünü yaxşı tərəfdən göstərir.

Ərin əsəb pozuntuları yəqin ki, müstəsna yox, qanunauyğunluqdur. Məhəbbətdən əlavə ailə, təsərrüfat işlərində anlaşılma tapmağa cəhd edin. Burada əsas rol arvada məxsusdur.

Arvada hamı tərəfindən qəbul edilən normalara riayət etməməsinə reaksiyası sakit olmalıdır. Kişini insanlardan qorumaq lazım deyil.

Qoy ər özünə yazığı gəlməsin ki, arvad onu qiymət-

ləndirir, amma bununla yanaşı ər öz sevgilisinə qarşı insafsız, daşürəkli olmamalıdır.

58 Nikah. Ər-Meymun, arvad-Pişik

Əyləncələrin rəngarəngliyində ər-arvad bir-birini gözəl başa düşürlər. Arvad yadında saxlamalıdır ki, ər üçün həyatda başlıca şey onun şəxsiyyətidir, onun duyğuları, həyəcanlarıdır.

Adamlar arasında şən olan ər, dalğın, fikrə qərq ola bilər.

Şəxsiyyətin prioritetinin nəticəsi kimi ər bütün təsərrüfatı arvadın çiyinləri üzərinə qoymağa cəhd edir. Bu halda o, şıltaqlıqlarla və isteriyalarla üzləşə bilər. Məişət problemlərindən özünüzü kənara çəkməmişdən əvvəl fikirləşin.

Ər həmçinin başa düşməlidir ki, ünsiyyətsiz qalmaq arvad üçün çox çətindir. Zənn etmək olar ki, ər qısqanmamaq üçün olduqca ağıllı olmalıdır.

59 Nikah. Ər-Meymun, arvad-Qaban

Məhrəmli sirrli ittifaq daxildə bir şey, görünən isə başqa şeydir. Hər ikisi şən ünsiyyətli insanlardır. Daxillərində isə özlərinin gizli müəmmalı bir dünyaları var. Hər halda olduqca çox ünsiyyətə girmək və öz hisslərinə daha az etibar etmək.

Təsərrüfat baxımından ərin qızıl əlləri və arvadın təkidli olması sakit, rahat, ailənin qurulmasında gözəl uyğunlaşmalıdırlar.

Yaxşı olardı ki, ər öz rəfiqəsinin bir qədər rəhmsiz



daşürəkli olmasına diqqət, fikir verməyəydi. Ancaq, ərin rəhbərliyi altında hətta daş da təsirlənib əriyə bilər.

60 Nikah. Ər-Meymun, arvad-Keçi

Arvadın əmək sevərliyi ərin aydın məqsədli olmağı daimi fəaliyyət şövqü ilə gözəl uyğunlaşır. Ər-arvad tamamilə ümumi sahə tapa bilərlər ki, misal üçün "öz evi olmaq, burada onlara öz qabiliyyətlərini tətbiq etməyə imkan verə bilər.

Arvad yadda saxlamalıdır ki, hər şeyi sənədləşdirmək cəhdi, hər şeyi müəyyən çərçivələrə salmaq ər tərəfindən başa düşülməyəcəkdir. Ərin həyat prinsipi hər şeydə rəngarənglikdir. Ailə quruculuğu bütünlüklə onun çiyinlərində olacaqdır.

Mübahisəli məsələləri aydınlaşdırarkən, yaxşı olardı ki, arvad göz yaşları tökməsin, amma yadda saxlamalıdır ki, ərilə o, eyni adamlardırlar və bir-birini başa düşməyə həmişə imkan var.

61 Nikah. Ər-Əjdaha, arvad-Pişik

İradə məhəbbət və vektor münasibətləri. Ər-sahib qadın-nökərdir. Amma müstəqil insanların nikahı çətin ki, şəraiti yumşaltsın.

Arvad ərində xəyali varlığı görür. Arvad onun xeyri üçün istənilən qurbanları verməyə hazırdır. Istəyirsən ki, insanları yaddan çıxaraq birlikdə ulduzlara yollanasan. Amma arvadın fantaziyası ərin parıltısı fonunda yalnız işartıdır. Ər üçün real dünya mifdir. Arvad isə bu dünyasız yaşaya bilməz. Bundan əlavə əmək şücaəti çətinliklə özünü göstərir. Ər isə yalnız arzularla yaşayır,

onlarla məşğuldur. Hərgah ərin xəyalpərəstliyi adi şəraitdə işgüzarlıqla uyğunlaşır. Lakin bu cür nikahda adi şəraitdən danışmaq lazım gəlmir. Arvad çox tez əri üçün sönən ulduza dönür. Əgər ər bunun qayğılarına dözməyə razılıq verərsə onda nikah saxlanıla bilər.

62 Nikah. Ər-Əjdaha, arvad-Qaban

Hər şey əvvəlki nikahda olduğu kimidir, amma indi ər intellektlə, zəifliklə müstəqilliklə və daha nələrlə fəth olunmuş nökərdir. Arvad üçün ər çox tezliklə əsassız xəyalpərəstə çevrilir, olduqca təşəxxüslü, mənasız görünməyə başlayır.

Ayaq altında bu qədər problem olduğu halda ər niyə ulduzlara can atır. Bu cür arvadın kütbeyin nökərə yazığı gəlməz.

Amma əgər arvad başa düşərsə ki, yer üzündə cənnət yaratmaq bu ər üçün hünərdir və öz soyuq ürəyini yumşaldarsa, onda nökərin xoşbəxtliyinin həddi-hüdudu olmayacaqdır. Belə, reallıqdan real olmayana keçərək bütün həyat boyu yaşamaq olar.

63 Nikah. Ər-Əjdaha, arvad-Keçi

Ortodoksal nikah və deməli ailə qurmaq şansı və istəyi var. Ərə arvadın şıltaqlıqları ilə barışmaq lazımdır. Arvad isə ərin həyatdan uzaqlaşmaq istəyinə diqqəti cəlb etməməlidir. Ərə kosmik ənginliklərə uçmaq üçün daha çox vaxt verin. Və bu ailə üçün böyük maddi qazanc gətirər.

Siz olduqca tez ümumi iş tapa bilərsiz (iqtisadiyyat və yaxud poeziya) öz şansınızı qaçırmayın. Bəxtinizi bir də sınayın.



## 8 FƏSIL. REALISTLƏR

**Ər: Pişik, Qaban, Keçi**
**Arvad: Siçan, Meymun, Əjdaha**

Nümunələr:

A.S. Puşkin-N.N.Qonçarova (Keçi-Meymun)
M.S.Qorbaçov-R.M.Qorbaçova (Keçi-Meymun)
Onore de Balzak –qrafinya Lvidoboni-Vikonti (Keçi-Siçan)
Mixail Lomonosov-Yelizavet Cilx (Pişik-Siçan)
İlya Erenburq-L. Kozintseva (Pişik-Siçan)

Ilya Erenburq özünün Lyubov Kozintseva ilə evlənməyindən sonra bu nəticəyə gəldi ki, nikah yalnız bərabər olmalıdır. Hə, doğrudan da o bərabər nikaha daxil oldu.

Artıq əvvəldə deyildiyi kimi əlverişli nikah yalnız ümumi işin olması ilə baş tuta bilər. Ər-arvadın gücü onun axtarışına sərf olunmalıdır. Məhəbbətdə bu axtarışlar çətinləşmişdir, çünki, hər iki realist olduqca soyuqdurlar, lakin ilk ittifaqında vahidliyə nail olmaq olduqca çətindir, mürəkkəbdir. Ona görə ki, analitik deyillər ancaq buna gəlmək lazımdır. Yoxsa, sizin ailəniz tez sınan olar.

Əgər ər siyasətlə məşğul olursa, onda nikahın möhkəmlənməsi üçün problemlərin birgə münasib müzakirəsi lazımdır.

Qarbaçova verilən: "Siz axşamlar arvadınızla daxili siyasəti müzakirə edirsinizmi?" sualına o belə cavab verdi: "Biz hər şeyi müzakirə edirik".

- Hətta ən yüksək səviyyədə həllolunan problemləri də?

- Bəli, biz hər şeyi müzakirə edirik.

Əgər ər bu və yaxud digər halda söz ilə işləyirsə, onda qüsursuz hissiyata malik arvad sadəcə kişiyə kömək etməyə borcludur. Söz yox ki, bu halda (bütün digər bərabər nikahlarda olduğu kimi) arvadın və ərin qarşılıqlı münasibətləri səviyyə nisbətindən asılıdır.

Bir daha demək istərdik ki, realistlərdə məntiqi və iradi təfəkkürə malik adamlardan fərqli olaraq ər və arvadın idraki güclərini birləşdirmək üçün yol tapması olduqca çətindir.

Realistlərin qarşılıqlı təsiri sağlam məntiqli məişət və maliyyə maraqları sahəsində daha yaxşı olur. Görünür ki, realistlərin nikahı hesablanmadan ola bilməz.

Puşkin toya bir həftə qalmış göndərdiyi məktubda etiraf edir: "Mən soyuqqanlıqla mənim sevgilimin var-dövlətinin mənfəətini və zərərini götürqoy etdim. Adətən otuz yaşında evlənirdilər. Bir də ki, mən vəcdə gəlmədən zövqsüz uşaq məftunluğu olmadan evlənirəm. Gələcək çiçəklərdə, güllərdə deyil özünün ciddi çılpaqlığı ilə gəlir. Dərd, acı məni təəccübləndirməz".

Istefan Sveyk müəyyən edir ki, "Balzakın hər bir təəsüratı hesablamalarda əksini tapır". O, islah olunmayan kommerstant olaraq qalır. Möhtəşəm bir sövdələşmə ilə o saat varlanmaq onun çoxdankı arzusudur.

A.S. Puşkninin arvadı ilə yazışması demək olar ki, sağlamlıq və maliyyə (bu da realistlər üçün çox xarakterikdir) məsələlərindən başqa digər mövzulara toxunmur.



1836-cı il mayın 6-sı Puşkin-N.N.Puşkinə yazır: "Görürəm ki, mənim hökmən 80 000 gəlirim olmalıdır. Və onu əldə edəcəm. Nahaq yerə jurnal alverinə başlamışam".

1836-cı il mayın 10-da Puşkin yenidən Nataliyaya yazır: "Bu saat sənin məktubunu aldım və o məni o qədər kövrəltdi ki, sənə 900 rubl yollamağa tələsirəm".

A.S.Puşkin və N.N.Puşkin arasındakı yazışmaların intensivliyini qeyd etmək istərdik. Məktub bərabər nikahlarda məktub olduqca böyük faydadır.

Beləki, ər-arvad məhəbbət şüaları yaymırlar, yalnız digərinin məhəbbətini canlarına hopdururlar. Bu cür ailələrdə məhəbbət kəsiri yarana bilər. (Qolsuorsinin və Rilkenin məhəbbətin mənası haqqında ifadələrini yada salın).

"Bundan sonra Balzak bütün qadınlarda bir daha və bir daha ana məhəbbətilə qorunan, zərif istiqamət verən, yoluna qoyan, canını fəda edən bu başlanğıcı axtaracaqdır. O, bütün enerjisi ilə özünün "gənc qızlardan xoşlanmamasını deyəcək, çünki, onlar çox şey tələb edir və olduqca az geri qaytarırlar".

"Qırx yaşlı qadın sənin üçün hər şey edər, iyirmi yaşlı isə heç nə etməz".

Puşkinin arvadına məktublarından sətirlər: "Mən böyük yollarla gedir, adamlardan uzaq çöldə üç aya qədər yaşayıram, iyrənc Moskvada yaşayıram: Nə üçün? Sənin üçün... Onda, sən də məni qoru. Kişi həyatının çalışıb-çabalamalarına ailə narahatçılığını qısqanclığı və s. əlavə etmə.

Ər-arvad xoşagəlmək, məftunluq yaratmaq arzusu

qarşılıqlıdır. Ətrafdakılarda məftunluq, gözəllik, uğur bu nikahda onların hansınınsa imtiyazı deyil. Hər ikisi gözəldir.

Nataliya Puşkina – Saf lətafətin, gözəlliyin, bariz nümunəsidir "bundan qısa və güclü deyə bilməzsən".

Raisa Qorbaçova haqqında: "Raisa ilə görüşən əcnəbilərin fikrincə, Raisa həyatda daha cazibədardır, nəinki fotoqrafiyalarda".

Onun həlim gülüşü demək olar ki, forfor rəngindədir. "Onun cazibədarlığı, savadlılığı, zövqlə geyinməsi ona çoxlu sayda pərəstişkarlar qazandırmışdı: Onların arasında əyalətdən olan gənc və ciddi oğlan Mixail Qorbaçov da var idi".

Təhtəlşüur (instinktiv), anadangəlmə xoşagəlmək arzusu, öz gözəlliyini duymaq Puşkini arvadının taleyində həlledici rol oynadı. Iki realisti başlarına bəla olan idarəolunmayan iradə mənbəyi (necə istəyirəm elə də yaşayıram) və məhəbbətdə böyük mütəxəssis olan Dantesi (Meymun) görüşdürdü.

Benkendorfun şəxsi katibi P.İ. Millerin memuarlarından: "O, (Dantes) hamının həyasızcasına arxasınca sürünürdü, ən çox Puşkinin arvadına pərəstişkarlıq edirdi. Nataliyanın günahı onda idi ki, bu sırtıqla olduqca cəsarətsiz və nəzakətlə davranırdı. Ona Dantesla cəsarətlə və daha az sıxılaraq davranmaq lazımdır. Dantes bu utancaqlığı, sıxılmanı onun tərəfindən razılıq kimi qəbul edir və buna görə özünü daha çox ixtiyar sahibi kimi aparırdı.

A.S. Xomyakovun N.M. Yazıkova məktubundan: "Puşkini arvadının bağışlanmaz yelbeyinliyi (elə gəlir ki, yelbeyinlik) və Peterburq cəmiyyətinin alçaqlığı və



rəzaləti öldürdü. Puşkin özü isə nə xarakter möhkəmliyi (bunu isə ondan gözləmək mümkün deyildi ki, bu da struktur ulduz falı nəzəriyyəsinə tamamilə uyğundur), nə də ona məxsus çox gözəl ağılı ortaya qoymadı.

Bərabər nikah. Amma ər-arvadın bu bərabərliyinə cəmiyyət də hazır olmalıdır. Və budur cəmiyyət Puşkindən qəti addımlar atılmasını tələb edirdi.

Öz-özlüyündə qalmaq və məhz bu cür nikahın spesifikasını bilmək necə də vacibdir.

Ola bilər ki, realistlərin bərabər nikahında mənfəətpərəstlik, pulagirlik, merkantilizm prinsipi "Əl-əli yuyar, əldə üzü" (mən-sənə, sən də mənə) ər-arvadı hər şeydə bərabərləşdirərək daha güclü təsir edir.

Balzakın qrafinya Lividoboni-Viskonti ilə ittifaqı "Qadın nə ictimai mövhumatlara, nə ətalətli adət-ənənələrə tabe olmayan və yalnız qadınlara məxsus cəsarətlilik, səmimilik, açıqürəklilik, azadlıq aşkar edir. O, azad və açıq hisslərin əmri ilə yaşayır. O, Balzakın borclarını qaytarır, onun digər qadınlar İtaliyaya səfərini təşkil edir. Bu səfərin təşkili Balzak üçün qəpik-quruşa başa gəlir".

Bu cür həyatı ailəvi adlandırmaq olarmı? Niyə də yox.

Bilmək olduqca vacibdir ki, iki realistin nikahında ümumi iş yalnız möhkəmləndirici vasitədir və heç bir əməkdaşlıq və birgə yaradıcılıq haqqında söhbət ola bilməz və bundan artığını gözləmək ağılsızlıqdır.

Puşkinin arvadına axırıncı sözləri: "Kəndə yollan. Mənə iki və yaxud üç il yas saxla. Çalış ki, sənin varlığını unutsunlar. Sonra yenidən ərə get, amma boşboğaza, gəvəzəyə yox".

Nataliya Nikolayevna bu tapşırığı, nəsihəti hörmətlə yerinə yetirdi. "Puşkinin dul qadını dörd uşağı və bacısı

Aleksandra ilə birlikdə anasının malikanəsinə getdi. O, oradan heç yana çıxmadan, iki il yaşadı sonra Peterburqa qayıtdı və 1844-cü ildə süvari qvardıya alayının komandiri P.P.Lanskiyə ərə getdi.

Onun taleyini və A.N. Dostoyevskayanın həyatını müqayisə edin.

Bəs yaradıcılıq irsi? Onunla başqaları məşğul oldu. Amma, buna baxmayaraq, ədəbiyyatşünaslıqda artıq bu iki nikah arasında paralellər aparılmışdır. Bizim üçün burada heç bir təəccüblü şey yoxdur, axı hər iki nikah bərabər nikahdır. Sadəcə olaraq iki realist üçün ailənin rahatlığını, sakitliyini qorumaq, uşaqları tərbiyə etmək daha vacibdir (Nataliya Nikolayevna özünün buna həsr etdi) və digər iki məntiqçi üçün isə ən başlıcası irəliyə can atmaq, işə sadiqlikdir.

Sergey Belov yazır: " Nataliya Nikolayevna və Anna Qriqoryevna Puşkinin və Dostoyevskinin bütün həyatının o qədər orqanik hissələri idilər ki, onların bədii təcəssümünə ehtiyac yox idi. Bu cür təcəssüm üçün məsafə olmalı idi. Amma burada yalnız hər şeydə tam qovuşma mövcud idi. Puşkin və Dostoyevski öz arvadlarını çılğınlıqla sevirdilər, onlara hədsiz inanırdılar və bu məhbbəti, bu inamı gələcək nəsillərə vəsiyyət etdilər".

64 Nikah. Ər-Pişik, arvad-Siçan

Açıq nikah. Əgər qonaq dəvət etmək və yaxud qonaq getmək həvəsi varsa Allah xatirinə bunu edin. Başqaları qarşısında özünü göstərmək nə arvada, nə ərə maneçilik törətməz. Yalnız burada da bərabərliyi qoruyun.

Bərabərlik bərabərliyində, amma müxtəlifliklər də



vardır. Ər bəlkə xəyala dalmaq, divanda uzanmaq istəyir. Arvad isə əksinə şənlənmək, macəra arzusundadır. Bunu yadda saxlamaq və hədd-hüdudu saxlamaq, əndazədən çıxmamaq.

Sakitlik isə bu ittifaqa yalnız maddi qazanc gətirər.

65 Nikah. Ər-Pişik, arvad-Meymun

Olduqca ekzotik nikahdır. Amma həyatda hər şey olur. Arvadın estet olması Pişiyi qıcıqlandırmır, axı arvadı pişik adətləri, vədişləri (tənbəllik gecə fəallaşma və s) şoka salmır. Əgər ər-arvad ümumi işə yol tapa bilmişlərsə və başqaları qarşısında özünü göstərmək həvəsini bir-birinə bağışlayıblarsa hər şey yaxşıdır.

Əbədi məhəbbətə və ərin iradəsinə güman etmək lazım deyil.

66 Nikah. Ər-Pişik, arvad-Əjdaha

Vektor nikahı, burada olduqca sakit insanlar Şekspir ehtiraslarından mütəəssir olurlar, həyəcanlanırlar. Ər parlaq, effektli arvadı ilə hipnoz edilmişdir. Qarşılıqlı xəyalpərəstlik ər-arvadı daha da yaxınlaşdırır.

Ər dincəlməyi, istirahəti yaddan çıxardaraq, arvadın maddi firavanlığa olan cəhdini qane etmək üçün işləyir. Ər özünün açıq-saçıq xasiyyətini yaddan çıxararaq, öz sevgilisilə yaşayır. Könüllü təcrid olunma və qızğın fəaliyyət, bunlar hamısı ər üçün məhv edicidir. Ölümə bərabərdir.

Evdə sakitlik, rahatlıq və səliqə-sahman stabilləşdirici amil ola bilər.

67 Nikah. Ər-Qaban, arvad-Siçan

Maraqlı nikahdır. Əgər ər-arvad bir-birindən mümkün olmayan ehtirasları, məftunluğu, pərəstişkarlığı gözləmirlərsə, bu nikahda həm ümumi dil, həm də ümumi iş tapmaq olar.

Bilmək yaxşı olardı ki, ilk görünüşdən ünsiyyətli görünən ər həqiqətdə "Özündə olan bir şey" dir və onun xarici əlaqələri, kontaktları, onun üçün olduqca çox şey demək deyil. Qaban "yelkəncikdir", onun həyat stilinin diapazonu çox genişdir.

Arvadın geniş fəaliyyət meydanı vardır.

68 Nikah. Ər-Qaban, arvad-Meymun

Iki gözəl insan, və həm də estetlər, daxilən dərin və zəngin adamlar. Qıraqdan nikah sadəcə əladır, amma onu daxildən nə möhkəmləndirir? Bəlkə gözəl həyata, gözəl əşyalara olan məhəbbət? Müstəsna deyil ki, bu cür nikah birgə kolleksiya və pul yığmağı möhkəmləndirsin.

Bu cür nikahda soyuqluq olarmı? Yəqin ki. Amma ər-arvad olmayan hərarəti, istiliyi, çeşidliyi, əyləncələrlə əvəz edə bilərlər.

69 Nikah. Ər-Qaban, arvad-Əjdaha

Vektor nikahı, burada effektli arvad ərin intellektinə sanballığına təmkinliyinə məftundur.

Arvad özünü yaddan çıxardaraq bütün enerjisini ərin



istirahəti, dincəlməyi üçün komfort şərait yaratmağa yönəldir. Artıq o xəyala dalmır, ərinin konkret arzularının dalınca gedir.

Ərin məsuliyyətsizliyi nəhəng ölçülər alır . Ərin arvadı fəth edən mərhəmliyi ailəni özündə qapanmaya gətirir ki, bu da gərginlik üçün əlavə amildir.

70 Nikah. Ər-Keçi, arvad-Siçan

Olduqca qeyri-sabit nikahdır. Ərin həddən artıq qıcıqlanması, arvadın çapalamaları, çırpıntıları, vurnuxması hər ikisinə vacib olan sakitliyi verə bilməyəcəkdir. Aktiv fəallıq qurtuluş ola bilər. Hər ikisi həm enerjiyə, həm də məqsədyönlülüyə malikdirlər.

Qoy arvadın təkcə özünə yazığı gəlsin, ərə isə diqqət və hüsn-rəğbət göstərsin. Arvadın möhkəmliyi ona məftun olmaq üçün əlavə bir bazadır, özüldür.

Keçi - kişilər ən uğurlu kommersantlardan biridirlər. Qoy o pul qazansın, evdə istirahət etsin, amma yadından çıxarmasın ki, bütün işlərdə arvadla məsləhətləşməlidir.

71 Nikah. Ər-Keçi, arvad-Əjdaha

Ideoloji birlikdən əlavə burada ortodoksal (ailəvi) müstəvidə birləşmə gedir. Əgər vəzifə qoyulubsa, onu yerinə yetirmək lazımdır. Digər nikahlardan fərqli olaraq burada qarşılıqlı anlaşılma daha tez əldə olunur.

Ərin maliyyə uğurları arvadın ailə ocağı qurma arzularını yalnız gücləndirər. Arvadın sakitliyi kişiyə çox faydalı təsir edə bilər, xəyalpərəstliyi isə ərin şıltaqlığına, deyingənliyinə fikir verməməkdə kömək edir.

## VI HISSƏ. ROMANTIK ITTIFAQ

Oxucu, ardımca! Kim deyir ki, dünyada əsl, sadiq, əbədi məhəbbət yoxdur? Buna görə yalançının mənfur, iyrənc dilini kəsərlər. Bu ifadə ilə Mixail Bulqakovun " Usta və Maraqarita" romanının ikinci hissəsi başlayır. Elə bu ifadə ilə də biz romantik məhəbbət dünyasında qapı açırıq......

9 Fəsil.

Ər: At, Pələng, İt, arvad: Siçan, Meymun, Əjdaha

10 Fəsil.

Ər: Siçan, Meymun, Əjdaha, arvad: At, Pələng, İt

11 Fəsil.

Ər: Pişik, Qaban, Keçi, arvad: Xoruz, İlan, Öküz

12 Fəsil.

Ər: Xoruz, İlan, Öküz, arvad: Pişik, Qaban, Keçi

Ilk baxışdan məhəbbət (və adətən bütün bu ailələr məhz bu cür başlayır) bu dəliliyə kor olmağa qohumdur.

Romantik ehtiras insanı öz üzərində hislərinin gücü, romantik parıltı və şəfəq ilə yüksəldir. Onun həyat yoldaşı bunlarla ərini əhatə edir.

Romantik həyatı yoldaşının xatirinə qurban vermək asandır. Bu nikahlar ola bilər ki, yeganə o nikahlardandırlar ki, onlar üçün ayrılıq, məsafə qorxulu deyil. Ürək yaddaşı insanı heç vaxt rahat, sakit buraxmaz.

Amma insan öz həyat yoldaşının gözlərində o romantik obraza uyğun ola bilərmi? Ümidsizlik, məyusluq güclü olmayacaqmı? Bütün bu nikahlar bədii əsərlərə layiqdirlər və öz mahiyyətinə görə romandırlar. Təkcə



romanı və adi həyatı birləşdirmək qalır.

Yadda saxlayın ki, romantik hissiyyat kövrək çiçəyə bənzəyir, onu məişət həyatından, kobud reallıqdan mühafizə etmək və qorumaq lazımdır. Yenə də həmin məsləhət: kənar şəxslərin bu cür ittifaqlara müdaxiləsi arzu olunmayandır, axı "Ər arvadın savaşı, yaz günün yağışı" deyiblər atalar. Axı özgə, yad adam ər-arvadı birləşdirən hissləri görə bilməz və anlamaz.

Ər-arvada isə sirli, müəmmalı parıltını, şəfəqi dağıtmaq olmaz, bir-birində hər şeyi görməyə, başa düşməyə cəhd eləmək lazımdır. Ailə həyatında bütöv, tam, ayrılmaz olmağa və yaxud işlərdə bütövlük tapmağa cəhd etmək lazım deyil. Öz şəxsiyyətinizin toxunulmazlığını qoruyaraq, siz həm də öz hissinizi mühafizə edərsiniz. Bir-birinə baxıb qarşılıqlı həzz almaq elə bil ki, müəyyən məsafədə bir-birinə uzadılmış əl kimidir, və əlbəttə, güllər, etiraflar, görüşlər və s.

Bəs biz nə məsləhət görürük? Kim bu cür nikahlarda yaşayırsa sadəcə bunlarsız keçinə bilməz. Sanki, bir qədər uzaqda yaşamaq. Elə gəlir ki, belə olduğu halda ailələr qurulmur. Ancaq bu belə deyil, romantik hisslər insanı qanadlandırır, ruhlandırır, o, ilham alır. Ər-arvad bir-birilə yanaşı adi həyatı görmürlər, gündəlik məişət qayğıları onların həyatından bir dəfəlik silinib gedir.

Bu cür nikah ülvi, sehrli ittifaqın bütün xarakteristikalarına malikdir, uşaqlar isə burada əngəl, manecə ola bilməzlər. Əksinə ər-arvad uşaqlarda öz münasibətlərinin nağıllarının davamını görürlər.

# 9 FƏSİL. BUZ VƏ OD

**Ər: At, Pələng, İt**
**Arvad: Siçan, Meymun, Əjdaha**

Nümunələr:
R.L. Stivenson – F. Osborn (İt – Siçan)
A.S. Qriboyedov – N. Çavçavadze ( İt – Meymun)
M. Şell – N. Andreyçenko (At- Meymun)
Dekabristlər:
V.P. İvaşov – Kamilla Le – Dantyu (Pələng-Əjdaha)
S.P. Trubestkoy – E.İ. Trubetskaya (İt-Meymun)
İ.A. Annenkov – Polina Qebl (İt – Siçan)

Bu cür nikahda məhəbbət axtarışları və qadın gözəlliyi iradəli amma romantik kişi ilə reallaşır. Arvad üçün əsl kişi haqqındakı arzuları gerçəklik olur. Bu nikahda çox şey ondan asılıdır ki, arvad sevgi ilə dolu əri necə məftun edə bilir. Bu üçlüyün qadınlarının nəyi olmasa da gözəlliklərinə söz ola bilməz.

M. Volkonskaya Kamilla Le – Dantyu haqqında deyirdi: "Bu hər cəhətdən füsunkar, məlahətli məxluqdur".

A.Rozen Yekaterina Trubetskaya haqqında yazırdı: "Yekaterina İvanovna Trubetskaya.... danışan zaman sakit, xoşagələn səsi və rəvan, səlis, ağıllı və xeyirxah nitqi ilə sadəcə valeh edir". Və adətən bu cür cütlərdə məhəbbət ilk baxışdan yaranır.

" İlk dəfə pəncərədən missis Osbornu görərkən Luis qışqırdı. "Mən bu qadına evlənəyəcəyəm". Stivensonun öz arvadı ilə ilk görüşünü şahidlər belə təsvir edirdilər.

Qriboyedovun Nina Çavçavadzeyə məktubundan:



"Mənim qiymətli dostum... sənsiz olduğundan çox qəmlidir. İndi mən doğrudan da hiss edirəm ki, sevmək nə deməkdir. Əvvəllər çoxları ilə ayrıldım, onlara da möhkəm bağlanmışdım, amma bir gün, iki gün, bir həftə və kədər yox olub gedir, indi səndən uzaqlaşdıqca daha da pis olur. Yadındadırmı, ilk dəfə mən səni öpdüm, tezliklə biz səninlə qovuşduq və əbədi. Sənin dodaqlarından döşlərindən, əllərindən, ayaqlarından, başdan ayağa qədər öpürəm. Kədərlidir".

Bu cür nikah adi həyatda ülvi nurla işıqlandırıl və əgər hər ikisinin taleyində fövqəladə vəziyyətlər yaranarsa, onda ər-arvad bir-biri üçün hər cür qurban verməyə hazırdılar. Dekabrist hərəkatının tarixini parlaq işıqla: Polina Qebl, Kamilla Le-Dantyu kimi qadın adları işıqlandırdı və tarixə yazdı.

Dəbdəbəli kavaleqard İvan Annenkovun və məlahətli, füsunkar fransız-modaçı Polina Qeblin olduqca tələsik və tamamilə bayağı romanı qeyri-adi şəraitdə məhəbbətə döndü, bu təkcə dövrün kübar cəmiyyətinin salonlarında söhbətlərin mövzusu olmadı, həm də A.Dyumanın romanı ("Qılınc-oynatma müəllimi") və opera (Y.A. Şaporin "Dekabristlər") üçün sujet oldu.

"Üsyanın darmadağın edilməsi, həbslər Annenkova əzici, sıxıcı, ağır təsir göstərdi və hətta intihar həddinə çatdırdı. Polina Qebl... təkidlə və qətiyyətlə hərəkət etdi... O, "monarxın ayaqlarına yıxıldı".... mülki izdivaclı ərinin sürgünlüyünü bölmək üçün icazə verməyini xahiş etdi". "Mən bütünlüklə özümü, onsuz yaşaya bilmədiyim insana qurban verirəm". "Bu mənim ən odlu-alovlu hərarətli arzumdur".

Kamilla Le-Dantyunun öz anasının yanına gələndə

cəmi bir neçə dəfə gördüyü və sevdiyi adamın xatirinə özünü hər şeydən məhrum etməsi heyranedici deyilmi. "Ümidsizlik dekabristi çarəsizliyə qaçmaq haqqında ümidsiz fikrə gətirib çıxardı.

Elə buradaca V.P.İvaçov nə vaxtsa mürəbiyyə anasılə onların evində yaşayan cavan və füsunkar qızın təkcə məhəbbəti haqqında deyil, həm də bu qızın Sibirə onun yanına gəlməyə belə hazır olduğunu öyrənir".

"Təsadüfi olmasına baxmayaraq İvaşovlarin nikahı çox uğurlu alındı. 1832-ci ildə sentyabrın 1-də toylarının ildönümündə Kamilla anasına xəbər verir: "Bizim ittifaqın bir ili bir xoşbəxt gün kimi keçdi".

Ancaq Kamilla sürgündəki mövcudluqlarının bütün ağırlıqlarına dözə bilmədi.

Dul qalan İvaşov ümidsizliyə qapılmadı: Ən çətin günlərdə mənim valideynlərimə təskinlik verən, olan 8 il ərzində mənə xoşbəxtlik, sadiqlik, məhəbbət və nə cür məhəbbət bəxş edən mənim rəfiqəm artıq yoxdur.

Arvadının ölümü İvaşovu təkcə mənəvi sakitlikdən məhrum etmədi, həm də onu fiziki olaraq öldürdü: O bir ildən sonra, Kamillanın öldüyü gün qəflətən vəfat etdi.

Əlavə edək ki, Sibirə, çar qəzəbinə düçar olmuş ərinin yanına birinci olaraq Yekaterina Trubetskaya gəldi.

Müstəsna şərait yalnız bir daha göstərir ki, romantik ehtirasla qanadlanan, ruhlanan insanlar nəyə qadirdilər. Məhz bu ər-arvada birgə yaşayış dövründə bir-birinə çox şeyi bağışlamaqda kömək edir. Axı ər-arvad çox müxtəlif adamlardır. Bundan əlavə, onlar bu planda bir-birinə hərəkətlərini, dünyanı qavramağı, qərarlarını dəyişməyə təsir edə bilmirlər. Axı dekabristlərin arvadlarının özlərindən üz döndərməsi təkcə onların sadiqliyi deyil, həm də şəxsiyyətin yad təsirinə məruz qalmayan bu qərarları tamamilə müstəqil olaraq qəbul etmələrini göstərir.



Gündəlik həyatda iradəli ər və realist arvad arasındakı çətinliklərdən qaçmaq olmaz. Axı ər daim irəliyiə yeniliyiə can atır, amma realist təfəkkür tipi, əksinə, "Əbədi rahatlığı əldə etməyə çalışır. Digər tərəfdən, ər çox istəyir ki, onun həyat yoldaşı onu tamamilə başa düşsün, onun maraqları ilə yaşasın, amma arvadı ərin yalnız maddi fəaliyyəti maraqlandırır.

Arvadın mərhəmliyi (merkantizmi) həmçinin bütöv ideoloji bazaya malikdir: pul, maddi mənfəət rahatlığı təmin edir.

Dinclik, əmin-amanlıq arvadın mövcudluğunun üsuludur, o, uzunmüddətli mənəvi gərginliyə, əsəbi vəziyyətə dözə bilmir. Arvad dinclik şəraitində gözəl ana, nümunəvi evdar qadındır, yalnız onda onun ideal zövqü, insanları başa düşmək, hər şeyə tənqidi münasibəti olacaqdır.

Şahidlərin xatirələrindən: "Kamilla həqiqətən füsunkar, məlahətli, təvazökar və xeyirxah qadın, gözəl ana və arvad oldu".

"Polina Yeqorovna, qaynayan, daim hərəkətdə, oynaq, əməyə alışqan, səhərdən axşama kimi təsərrüfatda əlləşən, öz əlləri ilə yemək hazırlayan..... baxça düzəltdi ki, bu məhbusların ərzaqla təmin olmasını əhəmiyyətli dərəcədə yaxşılaşdırdı".

Oldinqton Stivensonun bioqrafiyasında yazır: "Hər ikisinin xoşbəxtliyindən Fenni təkcə ağıllı deyildi. Həm də "işgüzar" qadın idi və başa düşürdü ki, onların birgə romantik "qaçışı" Luisin ədəbi karyerasını tərtəmiz məhv edəcəkdir".

"Amma bu cür qadın üçün sevmək sahib olmaq demək idi.... o məntiqin əksinə olaraq ərini köhnə dostlarına qısqanırdı. O istəyirdi ki, onun üzərində vahid hökmran olsun. Əlbəttə ki, ərinin həyatını xilas etmək, amma öz bildiyi kimi. Fenni, soyuqlamış adamları evə buraxmamaq kimi bir qayda qoymuşdu, bu profilaktik tədbir ümumi narazılığa, donquldanmağa səbəb oldu və səfeh arvad zülmünün nümunəsi kimi qəbul edirdi".

Yada salaq ki, realist üçün puldan əlavə həyatda daha iki şey olduqca vacib idi bu qida və sağlamlıq. Bunun qayğısına qalaraq onlar zülmkar ola bilərlər. At, Pələng. İt üçlüyünün kişiləri maddi faydalı iş koefisiyenti olmayan işlərlə tez-tez məşğul olurlar. Bu da bu cür ailələrdə konfliktlərin yaranmasına və onların dağılmasına səbəb olur.

R.Oldinqton Stivenson ailəsinin təsvirini davam etdirir: "Fenni şüurlu olaraq Luis üzərində hakimiyyətindən istifadə edərək onu "təmənnasız" kitabların yerinə böyük bədii nailiyyətlərə malik, böyük uğur və pul gətirən əsərlər yazmağa sövq edirdi".

Bir daha təkrar edək ki, bu tip ailənin möhkəmliyi bir çox halda maddi mənfəətdən və arvad üçün yaradılan komfortlu mənəvi şəraitdən asılıdır. Digər tərəfdən, bu qadınlar nə vaxt ki, onları dinclikdən məhrum etmək istəyirlər və yaxud hər hansı diktata cəhd zamanı ram olmayan döyüşçülərə çevrilirlər. Azadlıq aşiqliyi onların xasiyyətinin tərkib hissəsidir.

Dekabristlərin tarixindən diqqətəlayiq bir epizod: "Əsgərlər onları (dekabristlərin arvadları) kobud surətdə qovurlar və bir dəfə Trubyetskayanı vururlar.. o vaxtdan bəri Trubetskaya həbsxananın qarşısında nümayişçəsinə



qəbullar düzəldir və növbə ilə əsirlərlə söhbət edir. Söhbətin bir narahatlığı var: olduqca yüksəkdən qışqırmaq lazımdır ki, bir-birini eşidəsən.

Vəhşi heyvanı acıqlandırmaq lazım deyil.

Ər öz rəfiqəsinin bu cür istedadlarını yadında saxlamalıdır, ona görə ki, o, iradəli adam kimi, hökm etməyə meyllidir.

Robert Stivenson nikah haqqında demişdi ki, bu yeganə avanturadır ki, biz ona haqq-hesab vermədən daxil olduq, vahid hadisədir ki, biz onu həddən artıq təbii hesab emtəyə meylliyik. Bu tərif Annenkov ailəsini təsvir etməklə öz təsdiqini tapır.

"Uşaqlar... ağrılı qətiyyətsiz və zülmkar xarakterli ər diqqət, güc və vaxt tələb edirdilər. İllər ötdükcə İvan Aleksandroviçin xarakteri daha da xarab olurdu, və həddən artıq qıcıqlandırıcı, dözümsüz, psixi müvazinətsiz hala düşürdü, Polina Yeqorovna isə qocalıb, kökəlmiş, ərinin çatışmazlıqlarına yenə də yumşaqlığı və şənliyi ilə cavab verir onun xasiyyətlərinə və adətlərinə mərhəmətli idi".

## 73 Nikah. Ər-At, arvad-Siçan

Qarşılıqlı romantizm, dairə, ərin öz ilahəsinə məhəbbəti. bunlar hamısı birlikdə birləşərək ailəni ehtirasla qasırğasında fırlanmağa məcbur edir. Seksual sahədə harmoniya real həyatda acınacaqlı nəticələrə gətirib çıxara bilər.

Nikah açıq xarakter daşıyır ki, bu da müsbət rol oynayır. Saysız-hesabsız qonaqlar ər-arvada uzun müddət bir yerdə olmağa imkan vermir.

Həssas ər arvadın getdikcə artan soyuq ağrı ilə reaksiya verir, amma yenə də uzun müddət ona hər şeyi bağışlayır, arvadın kübar həyat sürməsi istəyilə barışır.

Əgər ərin pulları arvada cəmiyyətdə parlaq yer təmin edirsə bu cür nikah dağılmır.

74 Nikah. Ər-At, arvad-Meymun

Bu yumşaq, qayğıkeş insanların ittifaqıdır. Ər arvadda dərin, zərif xasiyyəti, xüsusilə, əgər o məhəbbətin məftunluğunu özündə saxlayırsa, qiymətləndirməlidir. Kontakta girməyə həddən artıq canfəşanlıq göstərməyin, sizin kraliçaya camaat arasına çıxmaq vacibdir, çətin ki, sizin evdə olan bir yığım qonaqlar onu düzəldə bilərlər.

Təsərrüfatı idarə edərkən romantizm mümkündürmü? Yəqin ki, amma bu elə də ucuz başa gəlməyəcək. Birgə həyat ərdən çoxlu pul tələb edir. Ərin uğurlu karyerası bu ailənin xoşbəxtliyinin rəhmidir.

75 Nikah. Ər-At, arvad-Əjdaha

At öz tərs patriarx xasiyyətini mütləq ram etməlidir. Onun arvadı hər şeyi özü edəcək ailəni, evi, uşaqları öz əlində saxlayacaq.

Ola bilər ki, məhəbbətin odu realizm buzunu əritsin. Bu nikahda bu mümkündür. Yox əgər romantik duman çəkilib gedərsə, onda bu asan olmayacaqdır. Öz həyat yoldaşınıza komplimentlər və heyranlıq hədiyyə edin və siz onun şıltaqlıqlarından lazım olmayan inadkarlığından asanlıqla qaça bilərsiniz.



76 Nikah. Ər-Pələng, arvad-Siçan

Bu nikahda ər-arvada ətraf mühitlə münasibətdə mütləq kompromisə gəlmək lazımdır. Yaxşı olardı ki, arvad yad kişilərin mövcudluğunu yaddan çıxartsın, axı Pələngin qısqanclığının hədd-hüdudu yoxdur. Amma bununla belə öz sevgilisinin açıq-saçıqlığı qəlbinin genişliyi əri valeh edir, təəsüf ki, yalnız evdə.

Ümid edək ki, qarşılıqlı məhəbbət seksual sahədə olan çətinlikləri aradan qaldırmağa kömək edəcəkdir.

77 Nikah. Ər-Pələng, arvad-Meymun

Ər-arvadın qarşılıqlı mərhəmliyi (ezoterizm) imkan verir ki, bu nikah ən uğurlu olanlardan biri hesab olunsun. Hər ikisinin romantizmi bu ittifaqda yüksəlişlərə nail olur. Arvadın məftunluğu əri karyera üçün hərəkətə gətirəcəkdir. Ərin arzuları arvad üçün qabaqlar ona naməlum olan əsrarəngiz bir aləm açacaqdır.

Hər bir sahədə anlaşılma hökm sürür. Tamamilə mümkündür ki, arvad ərindən çox şey tələb etməyəcək, onun arzularını başa düşməyə cəhd edəcək, ola bilər ki, qurbanlar da verər.

78 Nikah. Ər-Pələng, arvad-Əjdaha

Nikah sözün əsl mənasında qarşılıqlı romantizm və arzularla hopdurulmuşdur. Arvad xəyalpərəstliyi məqsədə can atmağı və səbatlığı, təkidliyi ilə birləşdirir, uyğunlaşdırır. Arvadın enerjisi əri öz planlarını həyata keçirməyə məcbur edir. Başlanğıc isə odur ki, hər ikisi

xüsusiyyətçiliyin qurbanı olmasınlar.

Arvad ərinin məftunluğunu həmişə hiss etməlidir. Ərin romantik aşiq olmalarında bu o qədər çətin iş olmayacaq.

Ailə-yüksək dəyərlidir. Patriarx ər və onun ortodoksal arvadı bunu həmişə yadda saxlamalıdırlar.

79 Nikah. Ər-İt, arvad-Siçan

Şəraitin xoşagələn axarında arvadın şənliyi və mülayimliyi ərin dünyaya ciddi, sərt baxışını yüngülləşdirə bilər. Digər tərəfdən, iradəli ər arvada həyatda inam verə bilər, arvadın daimi rəngarəngliyini çoxaldar.

Arvadın məftunluğu ərin öz gücünə inamını artırar, onun karyerası uğurla davam edə bilər. Biz artıq demişdik ki, ərin müvəffəqiyyəti bu cür ittifaqlarda möhkəmliyin rəhnidir. Ərin xidməti pilləkənlə yüksəlməsilə onun arvadı kübar gözələ çevrilə bilər.

80 Nikah. Ər-İt, arvad-Meymun

Hər ikisi olduqca həlim və qayğıkeş və xeyirxah insanlardır. Arvad öz nəzakəti, mərifəti ilə ərinin xarakterində olan inadkarlığı və tərsliyi azalda bilər.

Onlar qarşılıqlı anlaşılmanı ailəninin xeyri üçün ikitərəfli çalışmaq istəyində tapa bilərlər. Onlara bu işləri görməyə həm də qarşılıqlı məftunluq təkan verəcəkdir. Çox ehtimal ki, bu nikah qapanılmaya cəhd etsin, amma tamamilə ətraf mühitdən təcrid olunmaq lazım deyil. Ümumiyyətlə, yaxşı olardı ki, burada daha çox konkretlik və maddilik, əyanilik olsun.



81 Nikah. Ər-İt, arvad-Əjdaha

Deməli, ailənin qorunmasına yönəldilmiş ortodoksal nikahdır. Qoy ərin məhəbbəti və qarşılıqlı heyranlıq sizə ailənin qarşılıqlı anlaşılma sütunları üzərində qurmağa kömək etsin. Bu cür evin möhkəm maliyyə bazası olmalıdır. Romantik münasibətlərin merkantil maraqlarla, prinsipallıqla və ola bilər ki, hətta dindarlıqla uyğunlaşdırmaq necə mümkün ola bilər? Həyat özü öyrədəcəkdir. Nəzəriyyə deyir ki, bu cür ailə bunların hamısını özündə birləşdirə bilər.

## FƏSIL 10. MƏHƏBBƏT VƏ SADIQLIK

**Ər: Siçan, Meymun, Əjdaha**
**Arvad: At, Pələng, İt**

Nümunələr:

N.İ.Buxarın – A.M.Larina (Siçan-Pələng)
N.Ostrovski – R.Ostrovskaya (Əjdaha-At)
N.İ.Podvoyski – N.A.Podvoyskaya (Əjdaha-At)
M.Qorki – E.Peşkova (Əjdaha-Pələng)
A.V.Yentaltsev – A.V.Yentaltseva (Meymun-İt)
V.L.Davıdov – A.İ. Davıdova (Siçan-İt)

Bu işarə altında doğulan qadınların malik olduqları çox böyük səbr ehtiyatı bu cür ailənin əmin-amanlıq keşiyində durur. Ərə tez-tez məftunluq arvadda ona qarşı gözəl hisslər oyadır ana qayğıkeşliyi və məhəbbətilə qarışır.

A.M.Larinanın xatirələrindən: "Mən o vaxtlar onu heç zaman yaşlı adam kimi qəbul etmirdim. Mən onu Nikolaşa adlandırır və yalnız "sən" deyə müraciət edirdim və bunu o qadın yazır ki, öz ərindən 20 yaş kiçik idi. O, sonradan davam edir: "Nikolay İvanoviçin xarakteri həm də özünü aparmaq manerasında biruzə verirdi, dişləri arasında kişi kimi tüpürər, küçə uşağı kimi fit çalırdı. Nikolay İvanoviçin eyni zamanda heyranedici zərif qəlbli insan idi və demək olar ki, onda qız utancaqlığı var idi və bu insanın emosionallığı xəstəliyə bərabər idi, "o öz davranışını heç də həmişə görə bilmirdi, düşünülməmiş hərəkətlər etməyə qadir idi".

V.Xodaseviç yazır: "Birlikdə yaşamağa başladıqları ilk günlərdən Aleksey Maksimoviçin kabinetində hansısa uzun-uzadı söhbətlər başlandı, bu söhbətlərdən sonra Aleksey sanki barmaqlarının ucunda yeriyir və ağzı heç açmamağa cəhd edirdi, Yekaterina Pavlov isə evə qayıdanda bir ana kimi görür ki, oğlu onsuz hər şeyi alt-üst edib, papiros çəkməyi öyrənib, yaramaz oğlanlara qoşulub istər-istəməz onu şallaqlamaq lazımdır. Bu cür ailələrdə adətən hakimiyyət üstündə mübarizə yoxdur.

Arvad həmişə ərin başçı olduğunu etiraf edir və bununla yanaşı dərk edir ki, onun köməyi olmadan o heç bir şeyə yaramır. Bundan əlavə, biz bilirik ki, At, Pələng, İt üçlüyünün qadınları öz meylinə, vəzifəsinə görə silahdaşdırlar. Onlar ərlərinin işlərilə yaşayır, tez-tez bu onların həyatının mənası olur.

"Fevralın 16-da Buxarin atası və birinci arvadı Nadejda Mixaylovna...uşaqla vidalaşıb aclığa başladı.... Anna Mixaylovna hiss edirdi ki, əri ilə eyni zmanda ölür".

A.M.Larina xatırlayır: Mənə həbsxanaların, sürgünlərin və düşərgələrin uzun illəri içərisindən öz yaddaşımda N.İ. Buxarinin "Partiya rəhbərlərinin gələcək nəslinə" məktublarının mətnlərini daşımaq böyük səy nəticəsində mümkün oldu.



Nina Podvoyskayanın həyatı silahdaşlığın daha bir parlaq bariz nümunəsidir.

"Yaroslavl həkimlər cəmiyyəti diaqnoz qoydu ki, xəstə (N.İ.Podyovski) ümidsizdir, onu ya ölüm ya da psixi xəstəlik hədələyir. Mühacirətdə Nina uzun müddət Podvoyskinin həyatı üçün mübarizə apardı. Və möcüzə baş verdi. Podvoyski yavaş-yavaş sağalmağa başladı. Nina bütün öz səbrini, gücünü, iradəsini, qətiyyətini indi ona yönəltdi ki, Onu yenidən hərəkət etməyə alışdırsın. Nə vaxt ki, Podvoyski nəhayət Ninanın köməyi olmadan müstəqil olaraq yeriməyə başladı, onların hər ikisi yenidən partiya işinə qayıda bildilər".

Nina daha iki dəfə ərini ölümdən qaytardı. "Və yenidən onlar ümumi işdə mübarizə yoldaşı oldular".

Podvoyskinin oğluna məktubundan: "Anan olmadan mən Qırmızı Ordunun təşkili üzrə görülən işlərin heç üçdə ikisini də edəyə bilməzdim. Bütün bunları onun birbaşa köməyilə həyata keçirdim".

Dekabrist Davıdovun arvadı Aleksandra İvanovna Davıdova yazırdı: "Mən artıq özümü bütünlüklə yazıq ərimə həsr etmişəm və uşaqlarımla ayrılmağıma heç bir az da olsun təəssüflənmirəm, müqəddəs vəzifəmi yerinə yetirməklə təsəlli tapıram".

Onun əri V.L.Davıdov onu sadəcə olaraq qiymətləndirmirdi, həm də öz həyatını onsuz təsəvvür etmirdi. O, yazır: "Onsuz mən artıq həyatda olmazdım. Onun bütün mərhumiyyətlərə və həyat çətinliklərinə baxmayaraq özü

ilə həyatı boyu daşıdığı sonsuz məhəbbəti, misilsiz sadiqliyi, mənim haqqımda qayğıkeşliyi, xeyirxahlığı, həlimliyi, mülayimliyi, mənə güc verdi ki, hər şeyə dözüm və vəziyyətimin dəhşətlərini yaddan çıxardım". Bir-birinə məftunluq ər-arvada həyatın bütün çətinliklərinə sinə gərməyə və çətinlikləri görməməyə kömək edir.

"Ərinə sadiq Yentaltseva onun dalınca Sibirə getdi". Arası kəsilməyən istintaqlar, araşdırmalar, xəbərçiliklər, şeytançılıqlar, axtarışlar, maddi müsibətlər Andrey Vasilyeviçin sağlamlığını pozdular. Artıq 30-cu illərin axırlarında onda sonradan sakit dəliliyə keçən ruhi xəstəliyin simptomları meydana çıxdı". Onun ölümünə qədər (Yentaltsev 1845-ci ildə vəfat etdi) arvadı onunla birlikdə oldu. Ərinin xatirəsini yaşadaraq Aleksandra Vasilyevna onun ölümündən sonra daha 10 il Sibirdə yaşadı".

Yekunda Podvoyskinin həbsxanadan arvadına yazdığı məktubu vermək istərdik: "Mənim səmimi, qəşəng Ninam!...Mənim quzum, mən dustaqlığımı və xəstəliyimi gümrah keçirəcəm. Onlar mənə maneçilik törədə bilməzlər. Əgər mən burada gümrah olacağamsa, onda dostum sən çoxdan bu cür olmalısan. Əzizim, qəm eləmə. Nə olsun ki, mən buradayam, çünki mən qəlbimlə həmişə səninləyəm".

82 Nikah. Ər-Siçan, Arvad-At

Ola bilər ki, bu ən mülayim vektor nikahlarından biridir. Dairə burada romantizmlə uyğunlaşır, üstəgəl sahib-ər. Hər hansı romantik hiss qurban tələb edir, ola bilər ki, rəhmsiz ər özünün soyuqluluğunu və daşürəkliliyini, duyğusuzluğunu yalnız özünə istiqamlətləndirir və arvadı ilə həlim və zərifdir, onun sadiqliyini qiymətləndirir. Arvad isə heç bir şey tələb etmir, təki əri onunla yanaşı olsun. Arvad üçün ər həyatda və məhəbbətdə ideal və müəllim olacaqdır. Başlıcası odur ki, arvad isteriyalardan, etirazlardan uzaq olsun, özünü təsdiqləmək yolu ilə getməsin.



83 Nikah. Ər-Siçan, arvad-Pələng

Ərin açıq-saçıqlığı, qəlbinin genişiyi zərif arvadı şoka salmır. Əksinə, arvad daha şən, ünsiyyətli olur, onun sakitliyi, sanballılığı ərə, onda çatışmayan müvazinətliliyi, təmkinliyi verir.

Ərin maraqları ilə yaşayan arvad onun qeyri-adi hərəkətlərinə mərhəmətlə yanaşır və demək olar ki, onu həmişə bağışlayır. Arvad ərini hər hansı bir böyük sahədə nailiyyətlərə can atmağa məcbur edir.

Ərə məsləhət edərdik ki, öz sadəliyi ilə şitini-şorunu çıxartmasın, ağ eləməsin, kobudluğunu biruzə verməsin.

Uşaqlar hər ikisinə fərəh gətirər, axı onlar gözəl pedaqoqdurlar.

84 Nikah. Ər-Siçan, arvad-İt

Olduqca iradəli insan, arvad, ərin enerjisini müəyyən istiqamətə yönəltməyə kömək edə bilər. Əsas odur ki, bu enerjini boğmayasan.

Ər yadda saxlamalıdır ki, arvad demək olar ki, heç vaxt öz qərarlarını və rəylərini dəyişmir, kompromisləri tanımır, hər şeydə aydınlıq tələb edir. Arvad ərini hamı tərəfindən qəbul edilmiş davranışa qaytarmağa cəhd edir.

Ər çox fəaliyyətli arvad isə etibarlı insandır. Bir-birinə tay deyilmi? Onlar hər şeydə uğur əldə etməlidirlər.

85 Nikah. Ər-Meymun, arvad -At

Hər bir romantik nikahda olduğu kimi ər-arvadın münasibətlərində məişət problemi birinci yerə çıxmamalıdır. Ər və arvada təsərrüfat sahəsini bölmək lazımdır.

Nə müxtəlif psixologiya, nə sosial istiqamətdəki fərq bu nikahda nifaq toxumunu səpə bilməz, yalnız arvaddakı güclü iradə illüziyası zərər yetirə bilər. Arvad mütləq yadda saxlamalıdır ki, onların ittifaqında ailə həyatının əsasını onun mülayim, dalğın, fikrə qərq olan əri qoyur.

86 Nikah. Ər-Meymun, arvad -Pələng

Nikah qapalı xarakter daşıyır: Ər-arvad üçün, bir tərəfdən, öz şəxsiyyətinə diqqət, digər tərəfdən bir-birini yaxşı başa düşmək cəhdi xarakterikdir. Nə vaxt ki, nikahın əsasında romantizm durur, bu, əla keyfiyyətdir. Sevən ər hər şeydə arvadının yardımını, köməyini duyur, onun enerjisi hər ikisinə bəs edir. Bu bürcdən olan qadınların səbrinə, dözümünə qibtə etmək olar, buna görə də ərin qəribəlikləri, onun idarəolunmazlığı ailə qayığını çox güclü silkələməməlidir.

87 Nikah. Ər-Meymun, Arvad -İt

Bir-birini ideallaşdıraraq ər-arvad məhəbbət ocağını uzun müddət saxlaya bilərlər. Ümumi psixoloji xüsusiyyətlər həm də məişət sahəsində kontaktlar yaratmağa kömək etməlidir. Xoşbəxt həyat üçün verilən həddindən artıq çoxdur.



Arvadın iradəsi, demək olar ki, ərin iradəsinə güzəştə getmir, belə ki, bu nisbətdəki nikah, demək olar ki, bərabərdir. Ümumi iş tapmağa cəhd etmək olar.

Amma fərqi də var: arvadın aydın düşüncəsi ərin bəzi istəklərini ola bilsin ki, qəbul etməsin. Bir-birini dəyişdirməyə ehtiyac yoxdur və cəhd etməyə də dəyməz.

88 Nikah. Ər-Əjdaha, Arvad-At

Xarakterlərinə görə müxtəlif insanların gözəl ittifaqıdır. Burada çoxlu romantizm və məhəbbət vardır. Müvazinətli, təmkinli ər impulsiv, coşgun arvadı yumşaldır və arvadın ərinə etirazları yoxdur, çünki o, xəyalpərəstliyi inadcıllıqla və böyük əməksevərliklə uyğunlaşdırır.

Ər-arvadı həm də bütün həyat problemlərinə olduqca kompromissiz yanaşma yaxınlaşdırır. Onlara birgə həyatlarında da biri-birilərinə daha şox güzəştə getmələrini arzu etmək istərdik.

89 Nikah. Ər-Əjdaha, Arvad -Şir

Məhəbbət, romantizm, ümumi xəyalpərəstlik, bütün bunlar onlara real işlərlə məşğul olmaqda maneçilik törətmir. Təsərrüfat planında ruh yüksəkliyi olan ittifaqlar arasında ən yaxşılarından biridir. Onların hər ikisi təkidlidirlər, amma öz ailələrini, yəqin ki, yavaş-yavaş yaxşı maddi vəziyyətə gətirirlər.

Hər ikisinin xarakterində ailəcanlılıq vardır, bununla yanaşı onlar, öz məhəbbətlərində daimidirlər. Arvad ərini gözəl başa düşür, ona sadəcə olaraq yardım

etmir, həm də irəli getməsinə təkan verir, başladığı işi yarı yolda atmağa icazə vermir, qorxudur.

90 Nikah. Ər-Əjdaha, Arvad-İt

Nikah ortodoksal xarakter daşıyır. Həyatda əsas olan ailədir. Ailənin firavanlığl üçün bütün pisliklərə dözürlər, onlar dincəlmədən gecə-gündüz işləməyə hazırdırlar. Bu cür idilliya (sakit həyat tərzi) zamanı yalnız qarşılıqlı güzəştə getməmək konfliktlərin səbəbi ola bilər.

Arvad bilməlidir ki, əri tərifləri və komplementləri çox xoşlayır. Qoy öz işini görərkən bunu yaddan şıxartmasın.

## XI FƏSIL. SAKITLIK VƏ İRADƏ

**Ər:Pişik, Qaban, Keçi.**
**Arvad:Xoruz, İlan, öküz.**

Nümunələr:

İ.V.Stalin. –N.Aliluyeva (Pişik-Öküz).
L.A.Andreyev –A.İ.Andreyeva (Keçi-Xoruz).
S.A.Yesenin –Q.Benislavskaya (Keçi-Xoruz).
M.A.Bulqakov-Y.Bulqakova (Pişik-İlan)

Bu da romantik ittifaqdır və əgər 9-cu və 10-cu fəsillərdə məhəbbət və iradə nikahları təsvir olunurdusa, burada bir tərəfdən mübarizlik, məntiq və gözəllik, digər tərəfdən isə realizm əsas predmetdir.

Amma romantikləşdirmə bu ittifaqın özülü kimi dəyişilməz qalır.

Adətən, ər-arvad, əgər onlar tamahdan, şimiklən-



dirici cazibədən qaçaraq öz münasibətlərinə ağılı, dərrakəni daxil edərlərsə, iki səma mələyi kimi həyatda daim birgə addımlayarlar. Hərgah, bu cür ittifaqlarda ər-arvadın həm də təfəkkür tipləri oldüqca yaxşı uyğunlaşırlar. Buna baxmayaraq, müstəqil şəxsiyyətlər kimi qalaraq, onlar bir-birlərinin qərarlarına təsir göstərirlər. Ərlə müxtəlif həyat imkanlarının sistemsiz izafı (yəni artıq) arvadın məntiqi təfəkkürünün super məqsədyönlülüyü ilə uyğunlaşır, ərin fəaliyyətinin nəticələrinin o qədər də dağıdıcı olmaması arvada həyatda daha çox rəngarənglik verir.

Arvada isə bu cür ittifaqda yenə də arzu olunandır ki, ən cüzi şeyləri nöqtəbənöqtə, təfərrüatı ilə aydınlaşdırmağa az güc sərf etsin. Onda hər şey yaxşı olar.

Və ola bilsin ki, məhəbbət haqqında ən romantik əsər Mixail Bulqakovun Yelena Sergeyevna Bulqakovaya məhəbbət himni kimi yazdığı "Usta və Marqarita" əsəridir.

Bütün romantik nikahların əlaməti aşıb-daşan hisslərin qəfıldən ortaya çıxmasıdır. "O, təəccüblə mənə baxdı, mən isə birdən başa düşdüm ki, mən, bütün həyatım boyu məhz bu qadını sevmişəm. Məhəbbət bizim qarşımızda peyda oldu, elə bil ki, döngədə torpaq altından qəfil çıxıb çaparaq gedir və bizim hər ikimizi yaralayır". Bu, Ustanın və Marqaritanın ilk görüşü idi.

Amma kişi bu cür ittifaqda seçdiyinin mahiyyətinə müvafiq iradəsini, möhkəmliyini deyil, yalnız bürc xasiyyətlərini, mübariz ruhunu romantikləşdirir. Nahaq yerə deyil ki, Marqarita ifritəyə, həm də mübariz ifritəyə çevrilir və peşmançılıq çəkmədən Ustanın xatirinə dəyənləri məhv etməyə başlayır.

Öz sevgisinin gözəlliyini, onun qəlbinin gözəlliyini, sözlərinin gözəlliyini romantikləşdirən ehtirasla sevən qadın, onun üçün bütün dünya ilə savaşmağa hazırdır.

Onun sakitliyini qoruyaraq, qadın, bütün işləri öz üzərinə götürməyə hazırdır, ətraf aləm onun üçün mövcudluğunu itirir. Qadın yalnız ərinin işləri, onun qayğısı və onun özü ilə yaşayır.

"Qalya Yesenin üçün hər şey edirdi: onun şerlərini jurnal redaksiyalarına təklif edirdi, məcmuələr tərtib edir, onun vəkalətnaməsi ilə pullarını alırdı". Matvey Royzman belə yazırdı ki, Qalyanın məhəbbəti o qədər qurbanverici və hərtərəfli idi ki, Yeseninin "onu sadiq dost kimi qiymətrləndirirəm, amma bir qadın kimi sevmirəm" sözləri heç bir şeyə təsir edə bilməmişdi.

A.S.Efron Leonid Andreyevin arvadı haqqında yazırdı: "Bu qadın ehtiraslı, həm də cansıxıcı idi. Rəhmətlik ərini dəlicəsinə sevirdi, hətta meydan oxuyaraq sevməyə davam edirdi, bununla onu müdafiə etməyə cəhd edir, ondan ötrü mübahisələrə girir və müdafiə edirdi. Kimdən?! O, xaricə təkcə əlyazma arxivlərini yox, eləcə də pudlarla aşiq olmalarını, onun tərəfindən çəkilmiş şəkilləri, hansısa müəmmalı alətləri və cihazları da apararaq bunları qısqanclıqla müdafiə edib-qoruyurdu".

Və yenidən Bulqakovun ölməz kitabı.

"Qadın şöhrət vəd edirdi, onu cilalayırdı və burada da Master deyə onu çağırmağa başladı.

Iudanın beşinci prokurorluğu haqqında vəd edilən artıq axırıncı sözlərini gözlədi, ucadan və sözləri uzada-uzada xoşuna gələn ayrı-ayrı ifadələri təkrar edir və deyirdi ki, onun həyatı bu romandadır.

"Sevimli pişiyini əzizləyənlər kimi, o, əlyazmaları



nəvazişlə sığallayırdı və onu əllərində o tərəf-bu tərəfə döndərir, hər yerinə baxır, gah titul vərəqəsini, gah da axırını açırdı".

Bu cür nikahın mövcudluğunun əsas şərti arvadın məhəbbətidir. Amma arvadın hissi bu ittifaqı dağıdan gücə də çevrilə bilər, çünki arvad iradi və qeyri-iradi olaraq öz Ustasının qəlbinə baxmağa cəhd edir.

Bundan əlavə bu qadınlar məhəbbət alovu ilə birlikdə bir də güclü iradəyə malikdirlər. Arvadın iradəsi, onun hökmü pis işlərin səbəbi ola bilər və buna görə də bu nikahda ər üzərində hamiliyə həddən artıq can yandırmaq lazım deyil və əksinə, arvadın bürc aktivliyi, təsərrüfatçı olması firavanlığın təməli ola bilər.

Bulqakov Master və Marqaritanın münasibətlərini təsvir edərkən öz real nikahından ayrıldı. "O gəlir və birinci olaraq önlüyünü geyinir və səhər yeməyi hazırlayır, birinci otaqda dairəvi masada süfrə açırdı".

"O qalxdı və danışmağa başladı: Ay allah, sən nə qədər ağır xəstəsən, ancaq mən səni xilas edəcəm, qurtaracam, mən səni sağaldacam, sağaldacam".

Kitabın sonunda Marqarita deyir: "Sən yatacaqsan. Yuxu səni möhkəmləndirəcək, sən müdrikcəsinə mühakimə yürüdəcəksən. Məni isə qova bilməyəcəksən. Sənin yuxunu mən qoruyacam".

Arvad yadında saxlamalıdır ki, ərinə təsir etmək gücündə deyil, dəyişməkdən isə heç söhbət açmağa dəyməz. Ər öz enerjili arvadı ilə barışmalıdır.

Qalina Benislavskayanın bütün məhəbbəti Yesenini bir azacıq da olsa öz maraqlarından döndərə bilmədi. Yesenin yalnız onun köməyini qiymətləndirməklə kifayətlənirdi.

Yeseninin Benislavskayaya məktubundan: "Əzizim Qalya, Sizə təkrar edirəm ki, Siz mənə çox-çox əzizsiniz. Və siz özünüz bilirsiniz ki, Sizin iştirakınız olmasaydı, mənim taleyimdə çox acınacaqlı günlər olardı. Sizə salam və mənim məhəbbətim olsun. Düzdür, bu, olduqca yaxşıdır və qadınlara hiss etdiyimdən də çoxdur".

Xoşbəxt nikah üçün arvad ərini sıxma-boğmaya salmamalıdır, onu öz məhəbbəti ilə təngə gətirməməlidir (ərə isə ehtiraslar lazım deyil və hətta zərərlidir, onun üçün sakitlik və azadlıq müalicəvidir). Sakit şəraitdə ərin infantilliyi çəkilib gedər, yoxa şıxar və ailə üçün məsuliyyət yaranar, onun realizmi ailəyə firavanlıq gətirər. O, arvadından məqsədə çatmağı, planlılığı öyrənər.

Bu cür ər üçün ailə, vaxtı gələndə, ərin qəlbinin istəyindən olduğu "əbədi sakitliyi" canlandıracaq.

Master: "Mənim heç bir arzum və ilhamım da həmçinin yoxdur, ətrafda ondan başqa heç nə məni maraqlandırmır, o, yenidən əllərini Marqaritanın başına qoydu".

Nəticədə, ər-arvadı bağlayan o yüksək romantizm haqqında demək lazımdır ki, ər üçün məsafə və zaman qorxusu yoxdur.

"Bu gün o, yanımda deyildi, amma Marqarita Nikolayevna fikrində yenə də onunla danışırdı: Əgər sən sürgün olunmusan, onda niyə özün haqqında xəbər verirsən? Sən məni daha sevmirsən? Yox, mən buna nəyə görə isə inanmıram. Deməli, sən sürgün olunmusan, və ölmüsən. Onda səndən xahiş edirəm burax məni, nəhayət, mənə yaşamaq, hava udmaq azadlığı ver. Sən mənim xatirəmdən çıx get, onda mən azad olaram".

Amma Marqarita Masteri yadından çıxarmaq gücündə deyil və Azazello nahaq yerə demir:"Marqarita Nikolayevna, Siz axırıncı yarım ildə xeyli qocaldınız".



Nadejda Aliluyeva öz iradəsini cilovlaya bilmədi, onun ərinin fəaliyyətinə qarışmaq cəhdləri yalnız və yalnız hər ikisinin gərginliyinə gətirib cıxardı. İntihar, iradəli qadının nəyisə dəyişdirmək üçün axırıncı cəhdi oldu.

Sergey Yeseninin ölümü Qalina Benislavskayanı da həyat sevinclərindən məhrum etdi. Qalina onun haqqında xatirələrini yazdı (öz sevgilisinin adına və işinə olan borcunu verdi) və 1926-cı ilin dekabrının əvvəlində Yeseninin qəbri üstündə özünü bir neçə dəfə açılmayan köhnə sistemli "Buldoq" revolveri ilə vurdu. O, Sergey Yeseninin qəbri ilə yanaşı dəfn olundu.

## 91 Nikah. Ər-Pişik, Arvad-Xoruz

Arvadın məhəbbəti, bir-birinə məftunluq və vektor dairəsi. Adama elə gəlir ki, ehtiraslar bu cür nikahı dağıtmalıdırlar. Amma yox, sahib ər, arvadının nəzərində sakitliyin, gözəlliyin və xəyalpərəstliyin ifadəsidir. Arvad ona heyran olmaqdan doymur, ona ideal şərait yaradır, özü isə çətinlikdən şikayətlənmir. Ərə bu cür arvadla olduqda asandır, amma vaxtı gələndə qadının fəallığı, dəlisovluğu, dayazlığı kişinin zəhləsini tökə bilər.

Əgər ər-arvad öz otaqlarının divarları arasında qapanıb qalmazlarsa və dostları ilə daha çox ünsiyyətdə olarlarsa, onda onlar bir çox çətinliklərdən yaxa qurtara bilərlər. Onlar üçün olduqca asan olacaqdır.

92 Nikah. Ər –Pişik, Arvad-İlan

Arvadın qapalı olması əri utandırmayacaq, pərt etməyəcəkdir. Qadının məhəbəti onun ətrafındakılarla ünsiyyətini əvəz edəcəkdir, yalnız həyata olan qarşılıqlı şıkayətlərindən, şıltaqlıqlarından qaçmaq lazımdır, axı ailədə sakit şərait hər ikisini cəlb edir.

Ər öz arzularına qapılaraq yaddan çıxarmamalıdır ki, onun arvadının daim diqqətə ehtiyacı var. Arvadın iradəsi və məhəbbəti ailənin təməlidir, amma ər üçün rahatlıq yaradarkən onu azadlıq oksigenindən məhrum etməyin.

93 Nikah. Ər-Pişik, Arvad-Öküz

Nikahda mərkəzdənqaçma tendensiyaları güclüdür. Qoy arvadın məhəbbəti onun özünə hökmlü olmaqdan qaçmağa kömək etsin. Arvad öz iradəsini ərinə zorla qəbul elətdirə bilməyəcək, belə olduğu halda, ailənin itirilməsi reallığa çevriləcəkdir.

Ərdən fəallıq tələb etmək, onu qısqanmaq və ailəyə bağlamaq lazım deyil. Hər necə olsa, hər şeyi öz bildiyi kimi edəcəkdir.

Qoy arvad məişət qayğılarını öz üzərinə götürsün, ər isə həmişə ailəni pulla təmin etsin. Konfliktlər yaranarkən yadda saxlayın ki, sizin sanballı, sakit ev arzunuz üst-üstə düşür.

94 Nikah. Ər-Keçi, Arvad-Xoruz

Ər-arvada sakitlik arzu edirik, onların hər ikisi olduqca tez tələşə düşən adamlardır. Və qoy ərin zahiri



sanballığı arvadı aldatmasın. Onun çox zərif və tez inciyən qəlbi vardır. Arvadın düzgünlüyünü ər ağrı ilə qəbul edə bilər.

Hər ikisinin enerjili olması ailənin xoş güzəranının rəhnidir. Amma ərin estetik şakəri, ədaları çətin ki arvad tərəfindən qiymətləndirilsin. Kişi isə inadkar olmalı, hər şeydə sözünün üstündə durmalıdır.

95 Nikah. Ər-Keçi, Arvad –İlan

Yenidən məhəbbət, romantika və vektor dairəsi. İradəli və sevgi ilə dolu arvad şıltaq və nazlı gözəl ərin nökəri və girovu olur. Bu ittifaq, bütünlüklə, mənəvi zəriflikdən və hissiyyatdan toxunulmuşdur.

Vaxtı gələndə arvadın həyati müdrikliyi kişini təngə gətirə bilər, arvadı isə ərinin gözəlliyindən, inadkarlığından, səmimiliyindən heyranlığını gizlədə bilməyəcəkdir. Ər daha da dəlisov, şıltaq olacaq, arvadın depressiyaları, xəstəlikləri daimiləşəcək. Bu ittifaqın qorunmasına nə kömək edə bilər? Hər ikisində olan ailəyə güclü can atma və çətin ki, rahat evi qeyri-müəyyənliyə dəyişmək istəyən ərin realizmi.

96 Nikah. Ər-Keçi, Arvad-Öküz

Nikah ortodoksal xarakter daşıyır. Ər-avad praktiki fəaliyyətlə məşğul olarkən bir-birlərini daha yaxşı başa düşürlər. Hər ikisi ailənin tərəfdarıdırlar, ailəyə bağlılıqlarında daimidirlər.

Qoy arvadın məhəbbəti, ərinin mülayim, həssas, tez inciyən xasiyyətinə heyranlığı ona ailədə öz iradəsini

yeritməyə kömək etsin və öz sevgilisini yumşaqlıqla istiqamətləndirsin. Səbəb olmadan ərinizi qısqanmayın. Əgər məişət xırdalıqlarına baxmayaraq romantizmi saxlamaq mümkün olarsa, onda hər şey yaxşı olacaqdır.

97 Nikah. Ər-Qaban, Arvad-Xoruz

Nikah qarşılıqlı anlaşma və hörmət üzərində qurulmuşdur. Arvadın açiq, səmimi olması ər üçün yük olmayacaqdır, o, özü qonaqları çox sevir, adətən, məclisin döyünən ürəyi olur. Arvad yadda saxlamalıdır ki, ər üçün birinci planda həmişə onun arzuları durur. Ərin eqoizmi bəlkə də sındırılan deyildir.

Ər evdə daimi istirahət imkanı üçün arvada minnətdar olmalıdır. Təsərrüfat arvadın əlində olacaqdır. Qoy ər ailəni təmin etsin, öz saysız-hesabsız istedadını pul qazanmağa yönəltsin. O, təvazökarlığına görə çempiondur, amma arvada axı çox da lazım deyil.

98 Nikah. Ər Qaban, arvad –İlan

Nikah qapalı xarakter daşıyır. Arvadın təsiri altına düşən ər, --- daha da qapalı olur, onun mərhəmliyi daha da dərin xarakter alır.

Yaxşı olardı ki. ər arvadına daha çox kömək etsin. Niyə öz gözəl, məhəbbətlə dolu münasibətlərinizi qalmaqallarla pozasınız. Bir halda ki, onlar sizin ərinizə çox ağır təsir göstərir.



99 Nikah. Ər-Qaban, Arvad-Öküz

Arvadın hökmü bu cür ər tərəfindən şiddətli etirazla qarşılanır. Burada hər bir konflikt dəhşətli formalar ala bilər. Bu halda nə ərin ziyalı olması, nə də arvadın ədəbi və tərbiyəsi xilas edə bilməz.

Arvadın əmək qabiliyyətinin həddi-hüdudu yoxdur, o, təsərrüfatı öz üzərinə götürməlidir. Qoy ər yadda saxlasın ki, onun uğurları nə qədər çox olarsa, arvadın gözündə onun nüfuzu daha da artacaq və məhəbbəti güclü olacaqdır.

Qoy ər, arvadın onun keçmişi haqqında hər şeyi bilmək arzusuna sakit münasibət göstərsin. Arvad hər şeydə aydınlığın tərəfdarıdır.

## XII FƏSIL. SOYUQ ALOV

**Ər Xoruz, İlan, Öküz.**
**Arvad-Keçi, Qaban, Pişik.**

Nümunələr:

A.Saxarov – Y.Bonner (Xoruz-Qaban).
V.V.Mayakovski – L.Brik (İlan-Pişik).
N.N.Nekrasov –A.Y.Panayeva (İlan-Pişik).
İ Napaleon - Jozefina Boqarne (Öküz-Keçi).
A.V.Suxovo –Kobilin Luiza Simon –Demanş (Öküz –Pişik).

Məhəbbət mənbəyi olmayan üç romantik nikahlardan yeganəsidir. Bunun sayəsində romantik münasibətlər üçün xarakterik olan bu cür ittifaqda hədsiz illüziyalardan qaçmaq olar.

Romantika isə burada həmin öz ecazkar simasındadır: Hisslərin gözlənilməzliyi, titrək münasibətlər, fədakarlıq, özünü qurban vermə...

Jozefina Boqarnenin Napaleona məktubundan: "Mən Fransanı tərk edib sizin dalınızca gedəcək, qalan həyatımı sizə həsr etmək niyyətindəyəm.

Nə vaxt ki, mən bildim ki, mən.... təkcə öz borcumu yerinə yetirmək istəyirəm və məni heç bir şey bu yoldan döndərə bilməz və mən dünyada yeganə bir yerə yola düşəcəm ki, orada bundan sonra mən xoşbəxt ola bilərəm. Əlvida. Hökmdar, mən artıq nə əlavə edə bilərəm, indi sözdə deyil, işdə sizə olan münasibətimi sübut etməliyəm".

"O (Panayeva A.Y.) Nekrasovu o saat və həmişəlik məftun etdi, özünə bağladı. Onların məhəbbət dünyası belə başladı. Panayeva uzun müddət onun hisslərinə cavab vermədi və ona inanmaq istəmədi. Nekrasov ümidsizliyə düçar oldu, ittifaq üçün dua edirdi, az qalmışdı ki, boğulsun. Amma məqsədə nail olmaq üçün inad, mətanət göstərdi. Onların Kazan quberniyasında Panayevin kiçik bir malikanəsinə birgə səfərinə qədər bu, bir neçə il belə davam etdi. Burada, malikanədə, Nekrasov və Panayev razılığa gəldilər ki, birlikdə jurnal, gələcəkdə "Sovremennik" nəşr etsinlər. Burada Avdosya Yakovlevna, nəhayət, Nekrasova olan şübhələrindən yaxa qurtardı və onun hisslərinə inandı".

Suxovo-Kobilinin Luiza ilə tanışlığl Paris restoranlarının birində baş verdi. Ilk baxışdan məhəbbət və o. Luizanı Parisdən uzaq Mockvaya aparır.

Məhz bu növ nikahların xüsusiyyəti nədədir? Münasibətlərində titrəklik, həyəcan, yüksək stil saxlanılır.



Lilya Brik və Mayakovski sirli oymalı, naxışlı üzük taxırdılar. Lilya Yuryevna xatırlayır ki, keçirdiyimiz birgə həyat boyu şair bir dəfə də olsun onunla ucadan danışmamışdı.

Elza Triole hesab edirdi ki, Mayakovskiyə sahib olan yeganə qadın Lilya idi... illər bu düyünləri zəiflədə bilmədilər, amma daha bərk, daha tarım etdilər".

Amma belə qaynayıb-qarışmağa baxmayaraq, bu cür nikahda məhəbbət qızğınlığı çatışmır. Hər şeydən əvvəl bu, ərin məntiqinə bəs etmir. Buradan da Mayakovskinin bütün məktublarında rast gəlinən Lilya Brikə olan yalvarma mövzusu "Sən məni sevirsənmi? Sənin üçün bu, bəlkə də, qəribə sualdır, əlbətdə sevirsən. Amma sən məni sevirsənmi? Elə sevirsənmi ki, bu, daim mənimlə hiss olunsun?"

"Fəaliyyət- həyatdır" kimi düşünən məntiqli ər bu məhəbbət qızğınlığını kənarda axtarmağa cəhd edir. Bütün digər qalan romantik nikahlarda olmayan xəyanət bu cür nikahlarda mümkündür. Bütün Moskvanın qeybət etdiyi Mayakovskinin aşiq olmaları, Suxovo-Kobilinin çılğın romanları bu faktın təsdiqidir.

Kişini onun cazibədarlığını təsdiq edən yeni axtarışlara həm də o stimullaşdırır ki, kişi nikahda tam seksual anlaşma tapır və bu sahədə olan şübhələrdən can qurtarır.

Suxovo-Kobilinin gündəliyindən: 1840cü il. Luiza ilə ilk şirin görüş. Mən kirşə ilə onun dalınca getdim. O, bayıra cıxdı. Mən onu kirşəyə oturtdum... bu qış bu xəz palto necə acınacaqlıdır. ... biz iki saatadək kiçik mehmanxanada olduq.. və sairə.

Amma kişilər bu cür ittifaqlarda öz aşiq olmalarına

baxmayaraq, həmişə həyatlarının əsas qadınının yanına qayıdırlar.

Bu nikahın tamamilə danılmaz şəksiz-şübhəsiz öz müsbət tərəfləri vardır.

Ər və arvad bir-birini ideallaşdıraraq xarici uğurların əldə olunmasına kömək edirlər. Dərin qovuşmanın və məhəbbətin olması yalnız yaxşılığadır. Həm kişi, həm də qadın tək-tək həyatda olduqca az uğurlar qazana bilirlər. Bu cür nikah onları həyatın uğursuzluqlarından sığorta edir. Mistik arvadın həyatdan bir gədər uzaq düşməsi kişinin məqsədyönlülüyü ilə kompensasiya olunur, digər tərəfdən isə, kişiyə imkan verir ki, dünyaya sxemlərin və planların çəpəri üstündən baxmasın.

Amma yenə də tamamilə müxtəlif insanların bu cür qarşılıqlı ecazkar təsiri axıra qədər deyil və "ildırımlı şəraitlərdə" boşa çıxa bilər. Səbəb yenə də həmindir, məhəbbətdə hərarətin olmaması.

Ancaq Mayakovskinin məşhur sözlərini yaddan çıxarmayaq:" məhəbbət qayığı məişətə dəydi". Romantizm örtüyü nə qədər çox qaldırılırsa, götürülürsə, sevgililər bir o qədər bir-birinə nüfuz etməyə can atırlar, onda onlar nikahı saxlamaqda çətinlik çəkirlər. Bu cür nüfuz etmə qaçılmazdır, çünki nikahda psixoloji dərinliklərə nüfuz etməyi bacaran böyük mütəxəssis məntiqi təfəkkürlü ər vardır.

Nekrasov və Panayevanın biri-birlərinə olan güclü hisslərini qoruyub saxlamaqlarına baxmayaraq, onlar ayrılmağa məcbur oldular.

Məhz Lilya Brik hiss etdi ki, olduqca çox kontakt münasibətləri məhv edir və bir gün iki ay ayrılıqda qalmağı tələb etdi: "İki ay Mayakovski öz könüllü həbsxanasında keçirtdi.. pəncərənin altında gəzirdi. Məktublar, qeydlər, şəkilciklər... verirdi".



Lilya Brikin bu cür qərarı bir daha təsdiq edir ki, mistik qadınlar məhəbbət və romantizmin kor-təbiiliyində nə qədər yaxşı istiqamət götürürlər. Axı ayrılıq sayəsində münasibətlərin romantikliyi, gənclik vurğunluğu, qeydlər, şənlik bərpa olundu

Əgər ər-arvad ümumi işlə məşğuldurlarsa, mənəvi olaraq sıx əlaqədədirlərsə, onda sakitliyə zəmanət verilmir, əksinə, Nekrasov dediyi kimi:"o, üsyankarcasına axırdı. O, bağışlayırdı". Hərgah onun şübhələrindən əzab çəkir, ürəyi partlayırdı. O, dəhşətli dərəcədə qısqanc idi. Nekrasov başa düşürdü ki, ədalətsizlik edir, xüsusilə o vaxt ki, öz bədii və gündəlik uğursuzluqlarını onda görürdü və bu an öz-özündən utanır, öz davranışını "mənfur cosma" adlandırırdı.

Həm Lilya Brik,, Mayakovski, həm də Nekrasov Panayeva ilə ədəbiyyatla ədəbi mübarizə ilə məşğul idilər və bərabər nikahla necə kəskin, heyrət doğuran qeyri-oxşarlıq var ki, burada yalnız ümumu iş aralarındakı ittifaqı möhkəmləndirir (heç olmasa, kişi-İlanın Atla nikahı kimi –Dostoyevski –Snitkina).

Bu tip romantik nikahda hisslərin özlərini deyil, ər-arvad münasibətlərini saxlamaq çətindir.

Öz kədərini, hisslərini Nekrasov Panayevaya yönəldilən sözlərdə axırıncı "üç elegiyada izhar etmişdi. Bu, onların çoxillik məhəbbətinin poetik epiloqu oldu:

Biz yarı yolda ayrıldıq
Biz ayrılığa qədər ayrıldıq
Və fikirləşdik ki,
Axırıncı qaçılmaz bağışla

Qurtarmayacaq heç vaxt əzabla
Hətta ağlamağa gücüm qalmayıb
Yalnız bir xahişim var mənə yaz
Mənə bu məktublar qəbir gülləri kimi
əziz və müqəddəs olacaq.

Suxovo-Kobilinin gündəliyindən: "Mən qəti əminəm ki, mənim itkim (Luizanın ölümü) böyükdür və bununla müqayisə olunan sədaqəti, sadiqliyi mən heç zaman tapa bilməyəcəm. Həyatda yalnız bir dəfı bu cür sevilmək olar və mənim bütün gəncliyim bu məhəbbəti yaratmaq və möhkəmləndirmək üçün keçdi, mən bunu bilirdim, buna imkanım olduqca çox idi, buna görə də ona qarşı ədalətsiz və laqeyd olmağı özümə rəva bildim. Yalnız hər şeyi itirdikdən sonra mən, həm öz səhvlərimin və həm də itkimin böyüklüyünü dərk edirəm".

Bəli, sevimli insanın deyil, öz şəxsiyyətinin bir hissəsinin itkisini sadəcə faciə, kədər adlandırmaq olmaz. bu, nə isə, daha artıq şeydir ki, onun da tərifi yoxdur.

## 100 Nikah. Ər-Xoruz, Arvad-Pişik

Qarşılıqlı romantizm və vektor dairəsi. Bircə sahibə arvadın olması ər üçün artıq xoşbəxtlikdir. Ər arvadının sakitliyinə, aləmdən uzaq olmağına valehdir, xasiyyətinin dərinliyi ilə fəth olunmuşdur. Arvada isə ərin bu qədər fəal sitayişi, pərəstişi, ərin enerjisi, mübarizliyi, coşqunluğu olduqca xoşdur.

Ər bütünlüklə öz enerjisini və əməksevərliyini arvad üçün komfortlu şəraitin yaradılmasına yönəldir. amma arvadı kişinin tez tələşə və əl-ayağa düşməsi təngə gətirə bilər, qadın hiss edə bilər ki, zahirən effektli



görünən kişinin arxasında daim şübhələnən oğlan gizlənmişdir.

Amma qurtuluş üçün şans var, bu, hər ikisinin səmimi olmasındadır. Qapanmayın, hər hansısa gərginliyi qonaqlıqda, dostlarla aradan götürə bilərsiniz.

## 101 Nikah. Ər-Xoruz, Arvad –Qaban

Mərhəm arvad açıq-saçıq və baməzə, şən ərin təsiri altına düşərək, özü ən ünsiyyətli olacaqdır. Qoy arvad təsərrüfat üzrə bütün çapalamaları ərinin üzərinə qoymağa cəhd etməsin. Axı o, ailənin xeyri üçün çalışır. Bunu qiymətləndirin. Demək olar ki, evdə hər şey kişinin əlləri ilə ediləcəkdir, sizə isə sakit, rahat şərait və əla qidalanma həvalə olunur.

## 102 Nikah. Ər-Xoruz, Arvad-Keçi

Ərə məftunluq arvada onun fəaliyyətini dəqiqliklə idarə etməkdə manecilik göstərməyəcək. Bu cür ərlə özünü bir az zəif göstərmək olar, amma onun həyatını daimi şıltaqlıqlarla, iddialarla zəhərləmək lazım deyildir.

Yadda saxlayın ki, sadəlik sizin ərinizin xasiyyətindədir, onu dəyişməyə cəhd etməyin, onun düzlüyü və zərifliyi başa düşməməsilə razılaşın. Ərin evi emalatxanaya döndərmək cəhdinə görə qalmaqal salmaq lazım deyil.

## 103 Nikah. Ər-İlan, Arvad-Pişik

Əgər arvadın ərindən əlavə daha kiminləsə ünsiyyətə girmək arzusu yoxa çıxırsa, çox yaxşıdır. Axı ər çox

qısqancdır və diqqətsizliyə çox ağrılı münasibət bildirir. Sizin hər ikinizə həmrəylik və lənglik yaxındır. Bunu yadda saxlayın.

Arvad, hər halda, ərinin komplekslərinə şərikdir, onun mübariz ruhunu müdafiə edir, amma çətin ki, onu isindirə bilsin. Öz xəyallarına dalan arvad ola bilər ki, möhtac olduğu diqqəti yaddan çıxartsın. ərin depressiyaları, qaşqabaqlığı, yorğunluğu arvada tabe deyildir, ondan asılı deyildir.

Arvada məsləhət olardı ki, ailə təsərrüfatına daha çox diqqət yetirsin.

## 104 Nikah. Ər-İlan, Arvad –Qaban

Əgər ər-arvad yalnız qarşılıqlı zövq almaqda davam edərlərsə, bir-birinin qəlbinə girməsələr nikahın qapalı xarakteri romantik münasibətlər üçün sərfəlidir, nə olursa-olsun arvad ərinə qarşı daha zərif və diqqətli olmalıdır. Hər bir halda romantizm burada boldur. Ər zahirən enerjili görünür, ancaq faktiki olaraq zorla, çətinliklə ayaq üstə durur.

Sizə şənlik və mülayimlik bəs edər.

## 105 Nikah. Ər-İlan, Arvad-Keçi

Vektor münasibətləri haqqında fəsli oxuyun. Onların öz ifadələrində nələr deyəcəklərinin qabaqcadan demək olmaz. Mümkündür ki, ailəyə sahib olmaq arzusu üstün gələcək və sahibə qadın ərinə dözəcək və rəhmi gələcək. Burada əldə olunan maddi firavanlıq axırıncı



rol oynayacaqdır. Və ola bilər ki, əksinə, bu cür ərlə arvadın həssaslığı yoxa çıxa bilər, qeyb olar və yaxşı olar ki, sonra davam etdirməyəsən.

Nökərdən çox şey asılıdır: ər öz itaətkar vəziyyəti ilə barışacaqmı, özündən çıxmayacaqmı, mümkün olmayanı tələb etməyəcəkmi və onda illüziya yaranmayacaq ki, o, ailəni başçısıdır.

Qalır ər-arvada mətanət, cəsurluq arzu etmək.

## 106 Nikah. Ər-Öküz, Arvad-Pişik

Çox geniş yayılmış nikahdır. Burada hər ikisinin şəxsiyyət çalarları olduqca yaxşı uzlaşır: ər, arvadın bütün hoqqalarına fokuslarına dözür, arvad isə ərin ailəpərəstliyini müdafiə etməyə şaddır.

Amma öz ərini oyuncaq gəlincik səviyyəsinə salmaq lazım deyil, qoy kişi özünü sahib hiss etsin və onda evdə hər şey yaxşı olacaqdır.

## 107 Nikah. Ər-Öküz, Arvad-Qaban

Bu nikahda həm də psixoloji oxşarlıq vardır. Hisslərin romantizmliyində yersiz incikliksiz də keçinmək olar.

Arvadın bəzi intellektual üstünlüyü, ehtimal ki, ərin aydın və hər şeydən bərk yapışan ağlını kompensasiya edə bilər. Çətin ki, arvadı ərin bəzi sadəliyi və düzlüyü şoka salsın, hərgah, kim bilir...

Sizin üçün başlıcası mübahisələrdən və münasibətlərin aydınlaşdırılmasından özünü qorumaqdır. Arvada

məsləhət, ərə istəklərinizin məqsədəuyğunluğunu sübut edin və o, hər şey edəcəkdir.

108 Nikah. Ər-Öküz, Arvad-Keçi

Burada ailəyə yönələn iki bürc toqquşur. Şərq ənənəsi hesab edir ki, keçi öküzlə yola getmir. Görünür ki, arvadın zərif xasiyyəti üçün ər olduqca kobud hesab olunur. Lakin güman olunur ki, bu, o qədər də güclü manеə deyil. Axı nikah romantikdir və əgər yanında supermen "dəmir adam" varsa, onda burada nə pis şey var? Küsüşmələrdən yaxa qurtarmaq, xırdalıqlara görə inadlı olmamaq olduqca vacibdir, bunlar hər ikisinə aiddir və onda hər şey yaxşı olar.

## V HISSƏ
## RUHİ NIKAH

13-cü fəsil.
Ər- At, Pələng, İt; Arvad- Pişik, Qaban, Keçi

14 –cü fəsil
Ər-Pişik, Qaban, Keçi; Arvad-At, Pələng, İt.

15-ci fəsil
Ər-Xoruz, İlan, Öküz; Arvad-Siçan, Meymun, Əjdaha
16-cı fəsil
Siçan, Meymun, Əjdaha; Arvad-Xoruz, İlan, Öküz

Bu nikah insan ruhuna, dərrakəsinə, idrakına himndir. Hətta təbiət də bu cür ittifaqların analoqunu vermir.



Bu nikahda ər-arvadın bir-birinə yolu daha mürəkkəbdir. Onlara ümumi dil tapmaq çətindir, ona görə ki, onların obrazı, şəxsiyyətinin dil hissəsi müxtəlifdir. Onlara fikir birliyi tapmaq çətindir, ona görə ki, təfəkkür tipi müxtəlifdir.

Kim bu nikaha girməyə qərar versə və ümumilik axtarışlarında dərin mənəvi iş görə bilərsə, hər halda onları ən yüksək mükafat gözləyir.

Əvvəlki üç nikah növünün heç biri bu nikahın verdiyi o yüksək harmoniyanı vermək iqtidarında deyil.

Bu ittifaqın dərin və gizli sevincləri fədakarlıq, tərki-cahan olmaqları üçün mükafatdır. Ər-arvadın yalnız bir-birilə maksimal hopması, qovuşması mənəvi ittifaqın mürəkkəb məsələlərini həll edə bilər.

Əvvəlki üç nikah növünü xatırlayaq. Yuva nikahı təbiətə ən yaxın olanıdır, sözsüz ümumi ümumi dil tapmaq olar. Osip Mendelştam bu cür nikaha üstünlük verirdi, çünki o, azadlıq hissi verir.

Bərabər nikah insanı artıq yaradıcı edir, amma şəxsiyyəti çərçivələrində, o, yalnız şəxsi təfəkkür növü hüdudlarında mənəvi yüksəkliyə nail ola bilər. Bu cür nikahlarda qovuşma, birləşmə, güclü gərginlik olmadan, demək olar ki, avtomatik baş verir.

Və yalnız ruhi nikah ruh, gərgin birlik axtarışı tələb edir. Romantiklik burada ən qeyri-romantik sahəyə-idraka hücum edir.

Bu nikah hər hansı bir mənada təsir mümkünlüyü dərəcəsinə görə vektor nikaha yaxınlaşır. Amma onda vektor münasibətlərinin şəxsiyyətin məhvi ilə bağlı neqativ nəticələri yoxdur, əksinə, burada şəxsiyyətin hormoniyası, onun təbii və romantik cəhdlərinin harmoni-

yası başlayır. Hər hansı bir adam, hətta yaradıcı meyllərdən belə uzaq olan adam, bu cür nikahda yaradıcı və qurucu olur. Bu ittifaq "Özünü yarat və dəyiş" devizi altında yaranır.

Bu nikah da maksimal qeyri-sərbəstlik həsrətində olanların nikahıdır. Başa düşülməlidir ki, bu cür nikah mənəviyyatı kasad və özülü öz fərdiliyini mühafizə, qorumaq məqsədilə qoyulmuş adamlar üçün ağır sınaqdır.

Təfəkkürün qarşılıqlı ideallaşdırılması ən çətin məsələdir. Bu cür nikah, digərləri kimi, məhəbbətlə başlaya bilər, amma onlardan fərqli olaraq, məhəbbət burada başlanğıc faza deyil və həmişə saxlanılmalı, mühafizə olunmalıdır, məhəbbətə ümumi iş əlavə olunmalı, bununla yanaşı bu işdə həm ərin, həm də arvadın mövqeyinin axtarışı zəruridir. Beləliklə, bu nikahda əvvəlki nikah növlərinin xüsusiyyətləri sintez olunur.

Ər-arvadın həyatında heç bir şey şəxsi mülkiyyətə çevrilməməlidir, qarşılıqlı axtarışlarda əzabla, məşəqqətlə əldə edilən hər şey ümumi olmalıdır. Yalnız bu cür öz üzərində iş sizə həyat yoldaşınızı başa düşməyə və qəbul etməyə kömək edər. Və yalnız ruhunuzun daimi gərginliyi ilə siz, öz adətlərininizin, vərdişlərinizin, öz danışıq tərzinizin, öz idrakınızın dəyişilməsinə gəlib çıxarsınız.

Nəhayət, yekunda, insan cəmiyyətinin bir hadisəsi kimi ayrılmaz bütövlük olarsınız.

Amma mənəvi axtarışlar yolundakı hər hansı ehtiyatsızlıq, mənəvi tənbəllik təzahürü faciə və ayrılıqla bitə bilər.

Ehtimal ki, ər-arvad öz bürcündən asılı olaraq, ideallaşdırılmış sahələrdə birincilikdə digərinə güzəştə



getməlidirlər və şəxsiyyətin əsas hərəkət sahələrində başçılıq etməlidirlər.

Bu hissənin fəsillərində nəzərdən keçirilən dörd nikah eyni mənalı deyildir. 16 –cı fəsildə təsvir olunan nikahda ən ağrısız qovuşma baş verir. Ər-arvad birləşməyə ən mürəkkəb yolu 14-cü və 15-ci fəsillərdə təsvir olunan nikahlarda keçirirlər.

## XIII FƏSIL. FƏLSƏFI NIKAH

**Ər: At, Pələng, İt.**
**Arvad: Pişik, Qaban, Keçi.**

Nümunələr:

N.K. Rerix-Y.İ.Rerix (İt-Pişik)
I Pavel –Mariya Fyodorovna (İt-Pişik)
A.Mistkeviç Karolina Pavlova (At-Pişik)
İ.A.Bunin –E-Fexner (At-Keçi)
Q.İvanov –İ.Odoyevtseseva (At-Keçi)
S.Gerasimov –T.Makarova (At-Keçi)
A.Qriqoryev –A.Korş(At-Keçi)
Q.Panfilov –İ.Çurikova (İt-Keçi)

Ərin romantik məhəbbəti kordur, amma məhəbbət sahəsində hər bir sirrə bələd arvadla ittifaqda ər onun üçün sirli olan duyğular sahəsində az da olsa baş çıxarmağa başlayır.

Yada salaq ki, bu qadınların məhəbbət nüfuzu nə deməkdir. Aktrisa İ.Alfyorova (Pişik): "Misal üçün bilirəm ki, mən müxtəlif olaram, özümdə hər şey taparam, mən düzələrəm, yalnız de görüm, sən məni necə görmək

istəyirsən?"

Əgər belədirsə, onda iradəli kişilərin yaratdığı sevgili canan romantik ittifaqı, bu nikahda illüziya yox, reallıq olar, çünki arvad romantik obrazı həyatla doldurar. Yenə də məhəbbətin ideallaşdırılması və bununla yanaşı gedən korluq kişini uzun müddət təqib edir.

Emilya Fexner: "Amma da İvan Alekseyeviçin (Bunin) qısqanc və tərs xasiyyəti, coşqun, qabağıalınmaz qəzəbi məni çox qorxudurdu".

Apollon Qriqoryev:

Siz doğulmusunuz mənə iztirab verməyə
Nəvazişli soyuq nitqinizlə
Və onunla ki, sizi başa düşmək çətindir.

Amma ideallaşdırma qarşılıqlı olmalıdır. Emilya Fexner deyirdi: "Bir çox illər ərzində Bunin haqqında hər bir xəbəri acgözlüklə gözləyirdim. Bunin mənim birinci və axırıncı məhəbbətim oldu. Buninin məğrur xasiyyəti və onun özünə işıqlı inamı mənim ürəyimcə idi".

Buninda özünə inam mistik əhvaldan yox, dəqiq öz gücünü və taleyini bilməkdən gəlirdi.

Özünə bu cür inam həm də Nikolay Rerixdə var idi. Onun nişanlısına olan məktubundan bu sətirlər:" Sənin qohumlarının və tanışlarının yazılı nəsihətlərinə gəlincə, onlar məni çox da narahat etmirlər, çünki "cücəni payızda sayarlar", mən isə belə hesab etmirəm ki, mənim payızım başladı və hətta yaxınlaşır. Yalnız özüm biləydim ki, nə edirəm, qoy orada məni təkcə əski, cır-cındır və hətta bundan daha pis adlandırsınlar, bu, mənə aid deyil".

Nikolay Rerixin və Yelena İvanovnanın qohumları arasındakı konfliktin mahiyyəti ondan ibarətdir ki, axırıncılar Nikolayı bəxtsiz, uğursuz adam hesab edirdilər.



Qarşılıqlı romantizm, ərin məhəbbəti, bunlar öz üzərində daimi iş, mənəvi təkmilləşmənin uzun yolunda yalnız başlanğıcdır. Hamıya bu cür güc verilməyib. Heç kim öz müstəqilliyi və sərbəstliyi ilə ayrılmaq istəmir. Hamı bunu edə bilməz. Əksər hallarda romantik hisslər daha çox saxlanır, nəinki ittifaqın özü.

Karolina Pavlova Adam Mistkeviçə onunla ayrılmaq qərarına gəldikdən sonra ona yazır: "Əlvida, mənim dostum. Bir daha sənə sənin məhəbbətin, dostluğun üçün təşəkkür edirəm. Mən and içdim ki, bu məhəbbətə layiq, sənin istədiyin kimi olacağam. Mənim səndən tək bir xahişim var, heç vaxt ağlına gəlməsin ki, mən bu andı poza bilərəm. Ayrılmaq anında sənə daha başqa bir şey deyə bilməyəcəyəm, çünki o sözü ki, mən sənə deyə bilərdim, onları sözlərlə ifadə etmək halında deyiləm".

Karolina andına sadiq oldu. Mitskeviçin oğluna yazdığı məktubda etiraf edir: "Srağa gün, o gündən 60 il keçir, mən onu axırıncı dəfə gördüm...amma o, hələ də mənim fikirlərimdə yaşayır. O, mənim üçün həmişə yaşayır. Mən bu gün də neçə illər ayrılığında sevdiyim kimi sevirəm. O vaxtlar olduğu kimi, indi də o, mənimdir".

Demək çətindir ki, Mitskeviçin Karolina Pavlova və yaxud Buninin Fexner ilə ayrılığı nə qədər qaçılmaz idi. Onlar yalnız mənəvi qarşılıqlı nüfuz etmənin uzun yolunun yalnız başlanğıcında idilər. Bu yolu Rerixlər, Georgi İvanov və İrina Odoyevtseva keçmişdilər. Ola bilər ki, böyük yazıçılar hiss etmişdilər ki, bu cür nikahda öz fərdiliyinin toxunulmazlığını qorumaq çətin olacaqdır ki, nikahın özünə çox güc vermək lazım gələcək.

Yol isə olduqca ağırdır, hər kəs könüllü olaraq öz üzərinə bacardığı yükü götürür., digəri üçün özünü qurban verir.

İrina Odoyevtseva xatırlayırdı""Georgi Ovanov gündəlik ədəbiyyat işinə o qədər uyğunlaşmamışdı və bütün həyatı boyu ondan usanmışdı. Lazım gəldi ki, onu dalımda sürüyüb aparım. Mən o qədər işləyirdim ki, yorğun düşürdüm və səssiz-səmirsiz yeməyi tərgitməyə başladım ki, tezliklə ölüm. Xoşbəxtlikdən .. mən.. yaxşılaşmağa başladım".

Onların birgə həyatı və əlbəttə, birgə ədəbi işi 15 il sürdü.

Bu nikah İrina Odoyevtsevanı o qədər dəyisdi ki, ərinin ölümündən sonra ikinci dəfə olaraq digər xaricdə yaşayan rus yazıçısı Jakov Nikolayeviş Qorbova ərə getdi. O da At ilində doğulmuşdu.

Bu tanışlığın özü maraqlıdır. Yenə də Odoyevtsevanın xatirələrindən:" Onun (Qorbov) romanlarını mühəribədən sonra xaricdə yaşayan rus oxucuları oxuyurdular. Mən isə heç bilmirdim ki, o, Paris taksisində sürücü işləyərkən mənim "İzolda" adlı romanımdan ayrılmırdı, onunla cəbhəyə getdi və hətta, ikisi də, o və mənim kitabım eyni güllə ilə yaralandı".

Deməк çətindir ki, İ Pavel və onun arvadı bir-birinə nə qədər mənəvi yaxınlıqda idilər, maraqlı fakt odur ki, vəliəhdlik haqqında akt (Pavelin çarlığı bununla məşhurdur) onunla və onun arvadı Mariya Fyodorova ilə camaata elan edilməyə qədər tərtib olunmuşdu"-tarixçi Platonov belə yazır.

Bu nikahın gücü onun birliyindədir, bu birlik itən zaman ər-arvad barışmaz düşmənlərə çevrilirlər ki, bu da



əlahəzrət cütlüklə, I Pavel və onun arvadı ilə baş verdi. Platonov yazır: imperatriçə təqibə məruz qaldı. Pavelin ailəsində drama başladı".

Öz ailəsinin birliyi haqqında həm də Nikolay Rerixov yazırdı:" Qırx il az müddət deyil. Bu cür uzaq gəmi səfərində qasırğalar və ildırımlara rast gəlinə bilər. Biz bütün əngəlləri birlikdə keçdik. Maneələri imkanlara çevirdik. Mən öz kitablarımı Yelenaya, mənim arvadıma, dostuma, həyat yoldaşıma, ilham pərimə həsr etdim. Bu anlayışların hər biri həyat alovunda sınaqdan keçmişdi. Həm Piterdə, həm Skandinaviyada, həm İngiltərədə, həm Amerikada və bütün Asiyada biz çalışır, öyrənir, idrakımızı genişləndirirdik. Birlikdə yaradıcılıq nahaq yerə demirlər ki, əsərlər iki qadın və kişi adı daşımalıdır.

Düzdür, belə şeyləri oxuyan zaman ailəni bütöv canlı kimi qəbul edirsən.

Rerixovların fəaliyyətinin nəticələri böyükdür: səyahətlər, kitablar onların bir çoxu birlikdə yazılanlardır, Urasavati – Himalay elmi-tədqiqatlar institutunun yaradılması, "Dünyanın bayraqdarı" sülh pakt layihəsi, bütün canlıların ümumbəşəri dəyərlər birliyinin fəlsəfəsi, Yelena Rerixin "Aqni Yoqa" təlimi və s".

Bizim kinematoqrafa müraciət edək. Ola bilər ki, nə vaxtsa kinotənqidçilər Sergey Gerasimovun və Qleb Panfilovun yaradıcılığına onların arvadları Tamara Makarovanın və İnna Çurikovanın hansı töhfələr verdiyini müəyyən edə bilsinlər. Bu rejissorların mənəvi kinematoqrafa meyli adi baxışla da görünür. Tənqidçi Konstantin Rudniçkinin aşağıdakı sətirləri heç yerdən yaranmadı: sonra Panfilovun və Çurikovanın bütün kinofilmlərində belə olacaqdır: aktrisanın sənəti hər şeyə

həssas rezonans verir ki, bu da rejissor fantaziyası ilə törəyir və filmin kamerdən səslənməsini verir.

Struktur ulduz falından mütəxəssisə görünür ki, Gerasimovanın və Panfilovun kinematoqrafı onların bürcləri üçün heş tipik deyildir.

Rudnitski yazır: rejissor öz dəst-xəttinə görə dərk edilir... budur əslində, soyuq Panfilov fasiləsi. onun, Panfilovun əli-nişandır. Sözsüz, səssiz-səmirsiz platforma, sözsüz, donan heyət, adamsızlıq... sakitlik..bircə qarğalar qarıldaşırlar"..

Eyzenşteynin kinematoqrafını yada salaq, heç bir fasilə, heç bir daxili monoloqlar. O da Panfilov kimi t ilində doğulubdur.

Fəlsəfi nikahın məhsulu, barı bu cürdür, burada ər-arvadın qarşılıqlı münasibətləri daha yüksək səviyyəyə keçirlər. Ola bilər ki, bu, gələcəyin nikahıdır.

109 Nikah. Ər-At, Arvad –Pişik

Nikahın üstün cəhəti ər-arvadın açıqlığı, səmimiliyidir. Məhz bu xasiyyəti çətin yaxınlaşma yolunda istismar etmək lazımdır. Hər ikisinin psixoloji xarakteristikası bir-birinə zidd deyildir, amma həm də yaxınlaşmağa kömək etmir. Belə ki, yaxınlaşmaq üçün açıq bürclərin sahəsini axtarın bu opera incəsənəti və yaxud operetta və yaxud dostlarla dolu ev ola bilər.

110 Nikah. Ər-At, Arvad-Keçi

Burada psixoloji xarakteristikalar üst-üstə düşür. Buna görə də insan şəxsiyyətinə yönəldilən, insanlara



köməklə, xeyriyyəçiliklə bağlı sahələrdə birgə yaradıcılıq sizin ittifaqı möhkəmləndirə bilər, amma mənəvi nikahda əngəlliklər həmişə olur; burada əngəlliklərə bir tərəfdən, ərin həddən artıq açıqlığı, hökmü, digər tərəfdən isə arvadın inadkarlığı ola bilər.

Yadda saxlamaq vacibdir ki, bu cür nikahda bu manеələr aradan qaldırılandır. Vaxtı gələndə, həm də adətlər dəyişə bilər.

111 Nikah. Ər-At, Arvad-Qaban

Qarşılıqlı nüfuzu sürətləndirən mənəvi axtarışlara vektor dairəsi qarışır, amma nikahı çox riskli tədbirə çevirə bilər. Enerjili və məqsədyönlü ər, öz həyat yoldaşını silkələyib oyatmağa, dəyişməyə cəhd edir. Arvadın romantik hissinə, həm də nökərin sahiblə səssiz-səmirsiz məftunluğu da qarışacaq. Arvad bunlara çoxmu dözə biləcək? Ola bilər ki. Onun köməyinə psixoloji xüsusiyyəti, özünə qarşı amansızlığı gələ bilsin?

Hər halda vektor ittifaqlarından bu, ən məhvedici variant deyil.

112 Nikah. Ər-Pələng, Arvad-Pişik

Burada mənəvi axtarışlar nəyəsə söykənə bilər, axı ər-arvad bir psixoloji troykada (troyka-üçatlı araba ya kirşə), uçuş troykasındadırlar, həm də sözün maddiləşdirilməsinə cəhd vardır. Axı mənəvi nikah söz və ünsiyyətlə qurulmuşdur. Qoy mənəvi nikahın variantında çoxlu poeziya olsun. Yalnız bu mürəkkəb nikahını bayağı məişət toqquşmalarına, yerli-yersiz tənələrə, qalmaqallara, qısqanclığa çatdırmaq lazım deyil. Arvad

üçün ən yaxşı variant bütünlüklə fikirlərini ərində cəmləşdirmək, onun estetik ehtiyaclarına uyğunlaşdırmaqdır.

113 Nikah. Ər-Pələng, Arvad-Qaban

Bu nikahda sosial oriyentasiya baza xüsusiyyəti kimi çıxış edir. Ər-Arvad estetik, qapalı bürclərə aiddirlər. Deməyə lüzum yoxdur ki, bu, mənəvi axtarışlar üçün gözəl özüldür. Hörmət, özgə şəxsiyyətinə tam inam və hörmət yaxşıdır, amma yalnız bu nikahda yox. Əri başa düşmək üçün ondan baş çıxartmaq, onu başa düşmək lazımdır.

114 Nikah. Ər-Pələng, Arvad –Keçi

Yenə də balı, ziyafəti vektor dairəsi idarə edir. Fəlakət qaçılmaz ola bilər, baxmayaraq ki, ər-arvad bir-birinə gözəl yaraşırlar, seksual, ailəcanlı arvad və aşiq, qısqanc ər. Sahib ərin təzyiqi həddindən artıq çox ola bilər ki, həssas arvad buna çətin ki, dözsün. Ər isə arvadın daimi isterikalarından çaşıb qalacaq. Nə arzu etmək olar? Vektor nikahında həmişə olduğu kimi, nəfəs almamaq, quruyub qalmaq.

115 Nikah. Ər-İt, Arvad-Pişik

Nikah Rerixlərin adı ilə aydınlaşdırılır. Təkcə bunun xatirinə yaxınlaşma yolunu tapmaq üçün cəhd etməyə dəyər. Fikirləşmək olar ki, itin möhkəm nikaha səy göstərməsi, onun əməksevərliyi, dözümü və arvadın aşiqanə müdrikliyi, tilsimli gücü mənəvi axtarışlar yolunu



asanlaşdıracaq. Arvadın açıqlığı kişiyə öz gücünə inamdan əlavə inam verəcəkdir.

Bu cür nikah çox yayılmışdır və demək olar ki, həmişə uğurludur.

116 Nikah. Ər-İt, Arvad-Qaban

Bu nikah şox az yayılmışdır. Həqiqətən də, burada ilkin yaxınlaşma üçün təməl yoxdur. Bu nikahda çox şey ərdən asılıdır, qoy o bilsin ki, onun arvadı həyat variantlarının geniş diapazonunda mövcud ola bilər. Əgər sizdə qapalı ailə variantı olacaqsa, onda siz qarşılıqlı anlaşmaya tez nail olarsınız. Amma mənəvi qarçılıqlı nüfuz etməni məişət tullantıları səviyyəsinə çatdırmayın.

117 Nikah. Ər-İt, Arvad –Keçi

Ər-arvad ortodoksdurlar, hər ikisi tərs və inadkardır, hər ikisi eyni dərəcədə həyəcanlı münasibət bəsləyirlər. Nikah bir qədər melanxolikcəsinə qorunur, axı ər-arvadın işi, onların şənlənməsi və yaxud da kədərlənməsidir. Yaxınlaşmaq üçün təkcə ailə ideyaları deyil, həm də həyatın dini tərəfi, din sahəsində mənəvi axtarışlar, Allahın axtarışı əsas ola bilər.

## 14-CÜ FƏSIL. İNTELLEKTUAL NIKAH

Bizim fəsillərə verdiyimiz adlar kifayət dərəcədə şərtidir. Bu fəslin adı bir daha ümumiliyin çoxsaylı axtarışı yollarından birini göstərir. Axı, nəticədə, burada arvadın güclü idrakı və həyatın ərlə dərin başa düşülməsi

qovuşmalıdırlar.

**Ər-Pişik, Qaban, Keçi;**
**Arvad- At, Pələng, İt.**

Nümunələr:

S.Yesenin –Z.Rayx (Keçi-At)
Q.V.Aleksandrov –L.Orlova (Pişik-Pələng)
S.İ.Vavilov –O.M.Vavilova (Pişik-At)
V.V.Menşov –V.V.Alentova (Pişik-At)
L.D.Trotski –N.İ.Sedova-Trotskaya (Pişik-At)
F.Sinatra-A.Qardner(Pişik-İAt)
F.Şiller-Ş.Şiller (Pişik-At)
F.İ.Tyutçev –E.A.Denisyeva (Qaban-İt).

Mənəvi nikah həmişə adi deyil, amma bu halda vəziyyət dəfələrlə onunla mürəkkəbləşir ki, nikahda güclü enerjili mənbələr-iradə və məhəbbət yoxdur. ər və arvadın hərəkətlərinə yalnız idrak nəzarət edir.

Buna rəğmən At, Pələng və İt illərinin qadınları qadın ölçülərinə görə öz güclü intellektinə baxmayaraq, birinci növbədə, bərabərhüquqlu intellekrual partnyor kimi deyil, qadın-silahdaş, qadın-köməkçi kimi realizə etməyə can atırlar.

Ərin işinə maraq arvad üçün məqsəd deyil, yalnız birinci pillə olmalıdır, ona görə ki, onda intellektual ittifagın realizəsi yox, primitiv nikah başlayır. Ər-arvad tale quşunu əldən buraxaraq, öz münasibətlərinin səviyyəsini aşağı salaraq, məişət problemlərində intellektual birlik axtarmağa səy göstərirlər.

“Yalnız ... Şillerin iradəsi və arvadının fədakar qayğıları onun ömrünün daha 14 il uzanmasına kömək etdi”.



Bəli, Şiller ailəsi məişət ittifaqının ən uğurlu variantıdır. Belələri olduqca azdır. Lakin burada Şillerin sözlərini yada salmaq yerinə düşərdi:”Qadınlara ehtiram göstərin, onlar səma güllərini yer kürəsinə gətirirlər”. Şarlotta, ərindən 21 il çox yaşayaraq uşaqları böyütdü və tərbiyə etdi. Deməli, Şarlotta öz həyatını yalnız ailə çapalamalarına həsr etmədi.

Bu nikahda maneələr olduqca çoxdur. Bu üçlüyün qadınlarının daşıdığı iradəli, güclü şəxsiyyət obrazında çox şeyi korlaya bilər. Əri özünə tabe etmək, cilovlamaq cəhdi xeyirlə qurtarmaz. Yalnız idrakla, məna paralellərinin sonsuz axtarışı ilə intellektual doğmalığın çətin yolunu keçmək olar.

Bir də yadda saxlamaq lazımdır ki, bu nikahda harmoniyaya yol mübarizlik müstəvisindən keçir. Nə qədər qəribə olsa da, ailə münasibətlərində hədə-qorxular, qalmaqallar bu ittifaqı yalnız o halda möhkəmləndirirlər ki, ərin və arvadın mübariz enerjisi məişətə deyil, intellekt sahəsinə yönəldilmişdir.

Frenk Sinatranın və Ava Qardnerin qısa ailə həyatı daimi döyüş meydanı oldu, amma bu döyüşdə onlar ağlın harmoniyasını deyil, yuva qurmağa cəhd etdilər. Onlar yaradıcılığa yox, məişətə qapanıb qaldılar və bununla da ayrılmağa gəlib çıxdılar. Ava Qardner xatırlayır ki, hərgah, əvvəlcə o, Frenkin xasiyyətində doğmalığı, səmimi münasibəti, aydın və kəskin hiss edirdi. Həm romantik, həm də yuva nikahının ssenariləri uğursuzluğa aparır, bu vəziyyətdə münasibətlərin hər hansı səthi məhvedicidir. Yeseninin və Rayxın uğursuz həyat tarixini diqqətlə oxuyaq:

“Onlar 1917-ci ildə Petroqradda Rayxın işlədiyi və

Yeseninin nəşr olunduğu "Delo naroda" eser qəzetinin redaksiyasında görüşdülər (intellektual birlik üçün nə qədər yaxşı bir bina). Məhəbbət ani və qızğınlıqla alovlandı. Fevral və oktyabr ayları arasındakı qısa intervalda Rayx onu inqilabi işlərə sürükləyən həmin hərarətlə indi özünü ailə yuvası qurmağa həsr etdi. Bu, Yesenini sevindirdi. O, hamıya və hər kəsə uçaq sevinci ilə deyirdi: "mənim arvadım var". Amma Petroqraddan köçmək artıq faciənin başlanğıcı oldu. "Rayx və Yesenin Mockvada mənzil tapmadılar. Yesenin dərbədər, sərgərdan gəzərək gah bir, gah da digər tanışlarının yanında gecələyirdi. Yeseninin şöhrəti artırdı, o, hər yerdə arzu olunan qonaq idi, onun şerləri, gözəl pudralanmış sifəti bir çox qadınları məftun etmişdi. Hamilə Rayx istənilən kölgədə onun sərsəri həyat keçirən dostlarından bir qədər qıraqda qalmışdı. Rayx, əvvəlcə, miskin mehmanxana otağında yerləşdi və sonra doğmaq üçün Oryola köçən valideynlərinin yanına getdi 1918 -ci il fevralın 3-də qızı Tatyana dünyaya gəldi. 1920-ci il fevralın 3-də ikinci ətcəbala Konstantin doğuldu, amma artıq yuvanın heş adı-sorağı yoxdur. 1919-cu ilin axırında Yesenin ailəsini tərk etdi.

Yuva olmamalıydı. Rayxın yuvası it ilində doğulan Meyerxolda ərə gedərkən əmələ gəldi.

"Rayxın uşaqlarını Meyerxold övladlığa götürdü. Tatyana və Konstantin onun evində onun qanadları altında böyüdülər".

Beləliklə, mənəvi, intellektual nikah yolunda olduqca tezliklə uşaqlar məişət çətinlikləri meydana cıxır, əsası isə odur ki, bu, tez-tez baş verən uzun ayrılıqlardır. Möhkəmlənməyə macal tapmamış kontakt pozulur, məişət səviyyəsinə enir.



Buna baxmayaraq, Zinayda Rayx və Yeseninin birgə həyatı qısa oldu, amma onlar öz məhəbbətlərinin xatirəsini ömür boyu yaşatdılar.

"On beş il keçəndən sonra Rayx hələ də kədərlə dəhşətlə "mənim həyatımda ən baçlıca və ən qorxulu Sergeyi" xatırlayırdı.

Georgi Ustinovun sözlərinə görə isə o, "yalnız birinci arvadını sevirdi".

Bir çox yaradıcı insanlar üçün mənəvi nikah ən arzuolunandır. Bu ittifaqın hədiyyə etdiyi o hisslərin dərinliyi yaradıcılıq üçün stimul olur.

"Haqqında danışdığım şəxslə görüşərək Fyodr İvanoviç (Tyutçev) onunla o qədər maraqlandı ki, bir and da olsun düşünmədən o vaxt olduqca işıqlı mövqeyini öz məhəbbətinə qurban verdi. Onun həyatında ən güclü bir maraq qadının təəssüratında dərin iz buraxdı, 14 il keçəndən sonar o, dəlicəsinə sevdiyini itirdi və artıq, o, heç bir vaxt aktiv fəaliyyətə qadir deyildi".

Tyutçev və Yelena Denisyeva haqqında müasiri xatırlayır"

"Tyutçevin məhəbbəti onun yaradıcılığına yeni əhval-ruhiyyə, dünyaya yeni baxış gətirdi. Onunla "bu ülvi və qanunsuz ehtirasla" onun şerlərində "hansısa haldan çıxmış utancaqlıq hissi və hansısa iztiraba oxşayan və ölümü qabaqcadan duyan yeni xurafatşı ehtiras "kimi qeyri-adi dərinlik əmələ gəldi. Rus lirikasını ölməz şah əsərlərlə zənginləşdirən gözəl lirik sikl şerlərin yaranması üçün biz bu məhəbbətə borcluyuq.!. Artıq bu sözlər müasir dövrün ədəbiyyatşünasına aiddir.

Bu nikahda bütün ağırlaşdırıcı amillər: insan yalvarışı, ümumi ev, təsərrüfat, uşaqlar (qeyri-qanuni doğu-

lanlar). Yelena tərəfindən könüllü olaraq götürülmüş yalnız evdar qadın rolu, amma bərabər yoldaş yox və onun daimi münasibətləri qanuniləşdirmək tələbləri. Buradan da daimi qalmaqallar, münasibətlərin aydınlaşdırılması. Amma heç bir şey mənəvi birliyi poza bilmədi. Və ola bilər ki, bu, Tyutçevin Denisyevaya həsr etdiyi misralar bu cür nikahın simvolu olsun:

O xoşbəxt taleyüklü gündən
Dostum bu gün on beş il ötdü.
Bütün qəlbini özü oyatdı,
Mənim ürəyimə boşaltdı.

Mənəvi nikah ziddiyyətlərin qarşılıqlı yaxınlaşmasında özünü hər şeydən məhrum etmədə, mübarizələrdə baş verməlidir, bütün bunlar mənəvi qovuşmaya gətirir. 1917-ci ilin mayinda Natalya İvanovna Sedova Trotski ilə birlikdə Petroqrada qayıtdılar və o dəqiqə inqilabi işə başladılar, o, ağac emalı ustalarının həmkarlar şurasının rəhbərlərindən biri oldu. Trotski arvadının muzey şöbəsinin müdiri təyin olunması səbəbinə görə yazırdı: "O (arvadı), vətəndaş müharibəsi şəraitində keçmiş abidələr üçün mübarizə aparırdı. Bu, o qədər də asan məsələ deyildi. Nə ağlar, nə qırmızılar, ümumiyyətlə, çox da tarixi malikanələr, kremllər və yaxud kilsələr haqqında qayğılanmağa meylli deyildilər.

Belə çıxırdı ki, formal olaraq mən öz xüsusi arvadımla fasiləsiz idarə mübahisələrində idim. Bu haqda çoxlu zarafatlar da var idi".

Daha bir nümunə ondan ibarətdir ki, digər nikahlarda məhvedici olan amillər: arvadın müstəqil mövqeyi,



birgə fəaliyyəti, özünü şəxsiyyət kimi qorumaq burada yalnız ittifaqı möhkəmləndirir. Ər-arvad təkcə ayrılmadılar. Həm də, mənəvi yaxınlaşdılar. Həyat faciyəli, amma nikah uğurlu oldu.

Vlademir Menşov da hesab edir ki, özünün rejisor kimi təşəkkül tapması arvadının mənəvi köməyi olmadan mümkün deyildi. Və əgər İnna Çurikova rejisor Panfilovun aktrisası idisə, onda Vera Alentova rejisor Menşovun aktrisası idi. Onların ən böyük uğuru, hamı tərəfindən qəbul edilən, və tanınan "Moskva göz yaşlarına inanmır" filmi idi. Onların sözünə görə bu 10 illik birgə həyatın nəticəsidir.

Yaradıcılıqda artıq əfsanəyə çevrilən digər cütlük Qriqori Aleksondrov və Lyubov Orlova çətin yol keçmişdilər.

Onların yaradıcılığı ilə hamı tanışdır, bu onların həyatının ailəsinin işi idi. Amma bu cür nikah nə qədər çox şey tələb edir və o adamı necə dəyişir, bunların hamısını faktlarla üzə çıxarır.

Yulyan Semyonovun xatirələrindən belə bir ifadə var ki, Aleksondrov Orlova ilə görüşməyənədək o "şən və ünsiyyətli" adam idi. Sonra onda kəskin dəyişiklik baş verdi.

Bu cür ittifaqa girərkən fikirləşin, buna sizin gücünüz bəs edəcəkmi?

## 118 Nikah. Ər-Pişik, arvad-At

Açıq işarəli insanların nikahı. Bu münasibətləri yoluna qoymaq üçün əlavə amildir, ağ eləməyin. Sizə həmişə bir yerdə olmaq lazımdır. Ola bilər ki, bu ailədə

romantizm olduqca güclüdür, çoxdur. Axı çox fəal enerjili arvadı müşahidəçilərin müşahidəçisi olan ər tamamlayır. Ərin olduqca "divanlı" mövqeyinə görə konfliktlər ola bilər. Və yenə də məişətdən qorxun, sizdə hər şeyi sadələşdirməyə meyl var.

119 Nikah. Ər-Pişik, arvad-Pələng

Burada sadəlik qorxutmur. Bundan əlavə ər-arvadın ümumi "uçuşu" onlara sözdə və söhbətlərdə birlik tapmağa kömək edər. İki xəyalpərəstin mənəvi axtarışları, bu çox gözəldir.

Təhlükə ola bilər ki, xəyallarda olduqca uzaqlara uçub gedər, nifrətedici məişət isə hər ikisində neqativ reaksiya verər. Məsləhət elə həmindir, hər şeyi birlikdə edin.

120 Nikah. Ər-Pişik, arvad-İt

Absolyut ideallaşdırmaya baxmayaraq əvvəlki nikahlar kimi harmonik ittifaq deyil. İtin həddən artıq narahatçılığı, onun qızdırmalı əsəbi fəallığı və ailə standartlarına hər şeyi hamarlaması Pişik kimi müşahidəçini də hövsələdən çıxarıb, mübariz edər. Başlıcası odur ki, bir-birində fikirlərini cəmləşdirmək. İtə özünü ictimai həyatda realizə etmək o qədər də vacib deyil, bütünlüklə həyatını ailəyə həsr etsə yaxşıdır. Ərdən xanənişin (evdə oturmağı sevən adam) etmək o qədər də çətin olmayacaqdır, amma burada çox nəzakətli olmaq lazımdır.



121 Nikah. Ər-Qaban, arvad-At

Burada artıq mənəvi axtarışlar yada düşmür, ona görə ki, vektor dairəsi müdaxilə edir. Dairə demək olar ki, ani və çox güclü burulur: arvadın alovlu ehtirasları ərin arsızlığı ilə vurulub söndürülür. Qəribə olsa da, arvad-sahibə bütün bu xorovoda (yallıya oxşar rus xalq oyunu) ərindən fərqli olaraq dözmür. Böyük ehtiraslar böyük ümidsizliyə gətirir. Sakit olun birinci növbədə arvada məsləhətdir. Sizin əriniz çox şeyə dözə bilər.

122 Nikah. Ər-Qaban, arvad-Pələng

Ər-arvadın bürcünə qapalılıq gətirən estetliyi, mərhəmliyə, dalğınlığı, hər şeyi ümumidir. Yəni onlar mənəvi axtarışlara yönəldilmişdir. Yalnız burada ərdən öz şəxsiyyətinizi qorumağa cəhd etməyin. Bu sizin nikahı səthi, yəni bu cür ittifaq üçün təhlükəli edər.

Həyatın məişət tərəfi isə çətinki, sizi tamamilə özünə cəlb etsin. Hətta məişətdə də siz mənəvilik tapa bilərsiniz.

123 Nikah. Ər-Qaban, arvad-İt

Burada ər-arvad çox böyük işlər görməlidirlər, Qaban öz şəxsiyyətinə, İt isə fikirlərini şəxsi ərində cəmləşdirmək yerinə, ailənin ideyasında və yaxud da özünü ictimai realizədə qapamalıdır ki, şirnikdirici şeylərdən uzaq olsunlar.

Ola bilər ki, ərin estetliyi və arvadın zəngin mənəvi qabiliyyəti, istedadı yol göstərən, bələdçi olsun.

124 Nikah. Ər-Keçi, arvad-At

Ümumi psixologiya, humanizm, rəhmlilik. Birlik üçün əla bazadır. Amma ər-arvad başa düşməlidir ki, onların ittifaqının idealı yalnız sakit liman deyil, bu insanların xeyrinə birgə fəaliyyətdə mənəvi qohumluqdur.

Ər üçün bu ciddi kəşf və əxlaqi dəyərlərin yenidən qiymətləndirilməsi olacaqdır ki, bunda da ona arvad kömək etməlidir. Arvadın səmimilyi yalnız ailə şənliklərində işi dövrlərə bölməkdən qaçmağa kömək edər.

125 Nikah. Ər-Keçi, arvad-Pələng

Vektor dairəsi, burada mənəvi birlik bu cütlüyün ehtiraslarına əlavə kimi gedir. Məhəbbətdən nifrətə qədər. Arvad qabağında təzim və onun təzyiqinə uzunmüddət dözə bilməmək imkansızlığı. Ərin rəhmdil qəlbi dəqiq barometr kimi göstərir ki, vektor nikahı necə inkişaf edir. Ər çox mu dözə biləcək, üzülməyəcək ki, ola bilər ki, həm də arvadı usandırsın, təngə gətirsin. Hər bir halda ailənin itirilməsi hər ikisi üçün fəlakətdir. Sayıq olun.

126 Nikah. Ər-Keçi, arvad-İt

Ortodoksal nikah, bundan etibarlı daha nə ola bilər? Amma görünən mülayimliyin arxasında nikahın səviyyəsini aşağı salmaq kimi əsas təhlükə gizlənir. Burada əldə olunanla kifayətlənmək olmaz, ardı-arası kəsilmədən özünü və həyat yoldaşını dərk etmək üçün dərinliklərə



getmək lazımdır. Yoxsa sizin münasibətləriniz yenidən məişət səviyyəsinə gəlib çıxar. Sizin bürclərinizin inadkarlığı və ideyalılığı kompromisslərə gəlməyə kömək etmir.

## XVS FƏSİL. EHTİRASLI NİKAH

**Ər: Xoruz, İlan, Öküz**
**Arvad: Siçan, Meymun, Əjdaha**

Nümunələr:

S.Efron – M.Svetayeva (İlan – Əjdaha)
L.Araqon – E.Triole (Xoruz – Meymun)
M.V.Voyniç – E.L.Voyniç (Öküz – Siçan)
A.V.Suxovo – Kobılin – N.İ.Narışkina (Öküz Siçan)
Y.Sverdlov – K.T.Novqorodtseva – Sverdlova (Xoruz – Siçan)
V.Y.Bryusov – N.İ.Petrovskaya (Xoruz – Meymun)

Ehtiraslı nikah. Belə müəyyən olunmanı bu cür nikahın əsas məsələsi olan mənəvi birlik axtarışı ilə birləşdirmək çox çətindir. Bəli, məhz bu nikahda ər-arvad mənəvi bütövlüyün zirvəsinə ən çətin və ən mürəkkəb yolla gedirlər. Axı burada (bürclərin nikah xarakteristikasını xatırlayaq). Cəngavər və Gözəl görüşürlər. Ehtiras bu ittifaqı təkcə müşaiyət etmir, həm də bu cür münasibətlərin tərkib hissəsidir. Nə vaxt ki, sözün həqiqi mənasında "qanda yanğın" alovlanır, ümumiyyətlə düşüncəyə, ağıllı kompromisslərin axtarışına, hansısa mənanı aydınlaşdırmağa vaxt qalmır. Amma ər-arvaddan heç biri məhəbbət enerjisinə və iradəsinə malik deyillər,

əvvəl-axır ehtiras alovu sönür. Yəqin ki, bundan sonra heç olmazsa mənəvi nüfuz etmə ilə məşğul olmaq lazımdır, bəs onda qarşılıqlı narazılıqlarla, inciliklərlə, ümidsizliklərlə neynəməli?

Onsuzda mənəvi axtarışlar fəsil 14-də təsvir edilmiş nikahda olduğu kimi mübarizə sahəsində gedir.

Bəli, bu ittifaqın mənəviyyatı daimi mübarizədə yaranır. Mübarizənin növü mühüm deyil. O, Sverdlovun ailəsində olduğu kimi inqilabi və yaxud başqa cür ola bilər, əsas odur ki, o birgə və ikitərəfli olsun.

Y.Sverdlov Klavdiya Novqorodsevaya yazır: "Birgə həyatın təsirilə və müəyyən vaxt ərzində bizim inkişafımız şübhəsizdir. Sən məndə bir aləm yeni uyğunluqlar, bəzən mürəkkəb təəsüratlar oyatdın. Əgər belə ifadə etmək mümkündürsə mənə bir çox şeydə "tərbiyəyə qədər" imkan yaratdın. Mən həyatın bütün təzahürləri ilə maraqlanmağı, zərifliyi, gözəlliyi, sevməyi öyrəndim".

O davam edir: "Bizim qarşılıqlı münasibətlərimiz mənə əhəmiyytlli dərəcədə gümrahlıq, kaloriti, dəyişməyən həyat sevinci verir ki, onlarsız məni təsəvvür etmək çətindir".

"Sadəcə olaraq yazıram ki, doğmama bir-iki kəlmə söz yazım. Minlərlə verst, və bəzən isə heç məsafələr də yoxdur... İztirablı, kədərli, uzaqdan-uzağa istilik axıb gəlir, isidən nəvazişli hiss oyadar, doğma gözlərin səmimi baxışlarını görürəm, ürək sıxılır, kədər və ağrı cəldedici ruh sevincilə qarışır və məsafələr həm var, həm də yoxdur".

Bəli, ər-arvad onları öz üzərində ucaldan dəyişən "tamamlayan" dərin romantik, işıqlı hisslərlə yaşayırlar. Buna görə də sadəcə sevimli insanı deyil, öz şəxsiyyətinin bir hissəsini itirmək dərdi çox dərin və sonsuzdur.



"Klavdiya Timofeyevna Novqorodtseva yazır: "Dərdə hərə bir cür dözür, mən ağlaya bilmirdim, özümü, qeyri-insani səslə qışqırmaqdan çox çətinliklə saxlayırdım."

Bir az da "ehtirasın xüsusiyyətlərindən" söhbət açaq. Axı məhz o (ehtiras) bu ittifaqı bu cür mürəkkəb edir. Bu ittifaq başqalarına nisbətən səhvlərlə və illyuziyalarla doludur.

XIX əsrin 40 illərində Moskva Suxov – Kobelinin və Nadejda Narışkinanın ehtiraslı romanı haqqında qeybət qırırdı. Sərbəst olmalarına baxmayaraq onlar ailə qura bilmədilər. Onların uşaqları yetim kimi böyüdü.

Mixail Voyniç "Ovod" un gələcək müəllifi Etel Lilian Voyniçi Varşava mərkəzi həbsxanasının pəncərəsindən gördü. İlk baxışdan məhəbbət, sonra ər-arvad xoşbəxtliyi, elə bil ki, birgə inqilabi mübarizə və Mixailin inqilabi ideyalardan uzaqlaşması, onun kommersiya fəaliyyəti.

Bəli, bu ittifaq dərin qarşılıqlı nüfuz etmə səviyyəsi tələb edir.

Elza Triole Lui Araqonla tanışlığı haqda yazırdı: "Bu 1928 il noyabrın 6-da oldu və mən öz tarix hesabımı bu gündən aparıram. Mən Araqonun jurnalda çap olunan oçerkini oxuyandan sonra bizi mənim xahişimlə Rolan Tyural tanış etdi. Oçerk məni son dərəcə valehedici nəşri ilə məftun etdi və həyatımda ilk dəfə olaraq mən bu gözəl əsərin müəllifinə yalnız onu oxumaq yox, həm də baxmaq istədim.

Qiyabi məhəbbət və bir-birininin əsərlərinə maraq mənəvi ittifaqın fərqləndirici əlamətlərindəndir.

Amma hətta nə vaxt ki, , Araqon və Triolda olduğu kimi ehtiras və mənəvi axtarışlar çiyin-çiyinə, yanaşı getsələr də, bu da onlara həyat ümidsizliklərindən qaçmağa kömək edə bilmədi.

Lui Araqonun etirafı : "Mənim həyatım tamamilə uduzduğum, məğlub olduğum dəhşətli oyuna oxşayır. Öz şəxsi həyatımı mən şikəst etdim, bir yolluq korladım". Və Elza Triolenin etirafı: "Mənim ərim kommunistdir. Mənim günahıma görə kommunistdir. Mən sovet dövlətinin alətiyəm. Mən daş-qaşı xoşlayıram, mən kübar qadınam, həm də pintiyəm.

Ola bilər ki, Bryusovun və Nina Petrovanın yeddi illik romanı ehtirasın apofeozudur. Nina şairin sadəcə ilham pərisi olmadı, həm də onun "alovlu mələyə"sindəki Renatanın prototipi oldu.

Şair ona aşağıdakı misraları həsr etdi:

Sən ölümdən şirin, zəhərdən istəklisən.

Mənim azad ruhumu ovsunlamısan.

Ninaya məktubunda o yazırdı: "O, mənim həyatımın zirvəsi, onun yüksək piki idi. Sən məni mənim səmamın zenitinə ucaltdın. Və sən mənə qəlbinin axırıncı dərinliklərini, axırıncı sirlərini görməyi verdin. Və mənim qəlbimin mərkəzində qızğınlıq, ağılsızlıq, ümidsizlik, ehtiraslıq yanıb külə döndü və sanki bütöv qızıl külçəsi kimi sonsuz həmişəlik məhəbbətə qovuşdu.

Bəli, heç də hamı öz azadlığını, öz şəxsiyyətini qurban verməyə hazır deyil və Bryusov da axıra qədər gedə bilmədi. Yaradıcı azadlıq onun üçün öz şəxsiyyətinin mənəvi dəyişilməsindən daha vacib idi. Nina Petrovskaya "xasiyyətinə görə ziddiyyətli, həssas, mistikaya və hədsiz həyəcanlanmağa meylli" onu Bryusovla bağlayan



bu xovdan qurtara bilmədi. Nina onları Bryusova sui-qəsd etməklə qırmaq istədi, amma axırda öz şəxsi həyatı ilə haqq-hesab götürdü. Bəli, bu cür əlaqə insanı axırıncı nəfəsinə qədər tələb edir.

Marina Svetayeva və Sergey Efron. Biz əmin olduğumuz kimi klassik, romantik başlanğıc.

A.Efron valideynlərinin ilk görüşü haqqında: "Onlar adamsız, tənha koktebel sahilində görüşdülər... Marina ürəyində tutdu ki, əgər o məni tapıb və qırmızı əqiq bağışlayarsa, mən ona ərə gedəcəm: Əlbəttə bu əqiqi o tapa bilmədi".

Onlar öz hisslərinə layiq idilər və mənəvi iş onları çətinliyə salmırdı, əksinə, bütün çətinliklər yalnız ailəni möhkəmləndirirdi.

Onların qızı xatirələrini davam etdirir: "Marina və Sergeyin mərd kasıblığı, qüruru, səbrliliyi, və arada bir yumoru onlara gündəlik çətinliklərə mübarizə aparmağa kömək edirdi. Onların bir-birini müdafiə və tədqir edərək məndə onlara elə məhəbbət hiss oyadırdı ki,... artıq bu öz-özlüyündə xoşbəxtlik idi?

Mənəvi nikahın daha bir xüsusiyyəti, uşaqlara münasibəti qeyd edək. Valideylər daim mənəvi işlə məşğul olduqları üçün (uğurlu nikahlarda) onlar öz tərbiyə işini, ilk növbədə uşağın idrakına, onun şəxsiyyətinə yönəldirlər.

Ariadna Efronun xatirələrindən : "Mən uşaq olarkən Marina məndə beşikdən başlayaraq fikir və fəaliyyət müstəqilliyi inkişaf etdirməyə çalışırdı. Pedaqoji silsilədən aralıq hissələri cəsarətlə qırağa ataraq Marina məni 4 yaşında rəvan və olduqca şüurlu oxumağa, beş yaşımda isə az-çox və yaxud az əlaqəli altı-yeddi yaşımda isə

savadlı gündəlik qeydlər aparmağı öyrətdi.

Amma Marina Svetayevanın taleyüklü hərəkəti bu nikah haqqındakı ümumi hekayədən qırağa çıxmır. Marina ailəsiz yaşaya bilmədi.

Bu cür ittifaqda əsas arzu: sakit olmaq, bütün öz hisslərini soyuq ağılla yoxlamaq.

127 Nikah. Ər-Xoruz, arvad-Siçan

Hər ikisi açıq bürcləri təqdim edirlər. Bu nikah cəmiyyətdə, insanlar arasında, həm də ideya mübarizəsində və ehtiraslar alovunda formalaşır.

Ər-arvada öz münasibətlərini bəsitləşdirmək, onları məişət məcrasına yönəltmək məsləhət görülür, axı hər ikisinin enerjisi istənilən qədərdir. Sizin ürəyinizcə olan hər şeyi: operanı, operettanı, estradanı, rəqsi, istədiyiniz məşğulliyəti seçin.

128 Nikah. Ər-Xoruz, arvad-Meymun

Bu nikahda arvaddan çox şey asılıdır. Yaxşı olar ki, arvad özünün mərhəmliyi, estetliyi sayəsində ittifaqın yüksək səviyyəsini saxlaya bilsin və əgər iki konkret torpağa bağlı adamın ittifaqı təmiz iş müəssisəsinə çevrilərsə onda bu çox yaxşıdır. Amma sizin nikahın yüksək potensialını yadda saxlayın. Bir qədər işləmək lazımdır.

129 Nikah. Ər-Xoruz, arvad-Əjdaha

Bu ikiqat ideallaşma nikahıdır. Birlik və ziddiyətlərin bir ailədə mübarizəsi. Buna görə də təkcə bu ziddiyəti aradan götürmək üçün deyil, həm də onun birliyə döndərmək üçün qeyrətə gəlmək lazımdır.



Arvaddan çox böyük ruh yüksəkliyi ilə iş tələb olunur. Ümum qəbul olunmuş standartlara, möhkəm ailə ideyasına bağlanıb qalmayın, ərin ardınca gedin.

130 Nikah. Ər-İlan, arvad-Siçan

Müdrik və soyuq İlanı romantik hisslərdə tutmaq o qədər də asan deyil, amma İlan – kişi həssas və olduqca seksualdır. Siçan, əgər istəsə öz cazibədarlığı ilə heyranedici ola bilər.

Əgər ər özünü ailədə, arvad isə maraqlarının genişliyini aça bilərsə bu cür ailədə lazımi səviyyə saxlanıla bilər. Arvada isə həyatın maddi tərəfini hamarlamaq lazım deyil.

131 Nikah. Ər-İlan, arvad-Meymun

Ehtiyatlı olun vektor nikahı, siz elə bil ki, yoxsunuz, siz bütöv cansınız, vücudsunuz. Burada mərhəmin özgə qəlbinə girmək bacarığı maksimuma çatır. Qapalı bürc bir istiqamətdə işləyir, ər öz şəxsiyyətini yaddan çıxararaq başqalaşır. Mənəvi ünsiyyət yüksəlişdə olacaqdır, amma ər-arvad energetik məsrəflərə dözə biləcəklərmi? Qəribə səslənsə də, amma birinci olaraq həssas ər davam gətirəməyəcək. Ər olduqca xeyirxah sahibdir, amma, əgər arvad məişətin bütün çətinliklərini öz üzərinə götürürsə və ünsiyyətin yüksək səviyyəsini saxlayırsa, onda nikah uzun müddət davam edə bilər.

132 Nikah. Ər-İlan, arvad-Əjdaha

Elə nikahlardan biridir ki, harada ümumi olan çox azdır, sanki heç bir şeydən yapışmaq mümkün deyil. Amma, birincisi, arvad çox heyranedicidir, kişi – İlan isə estetdir. Ikincisi, arvad ortodoks olaraq ailəyə köklənmişdir. Ər isə tez yorulan və olduqca nərmə-nazik bürc kimi, ailə istisinə və rahatlığına ehtiyac duyur.

Əgər siz artıq ailədəsinizsə, onda işə başlayın, tənbəllik etməyin, həyatın maddi tərəfində dayanmayın. Ərə məsləhət qapanmayın.

133 Nikah. Ər-Öküz, arvad-Siçan

Hər bir mənəvi nikahda olduğu kimi kompromislərlə doludur, mübarizə isə bu ittifaqda arzuolunmazdır. Əsas kompromisi ərin ailəvi məhdud meylləri və arvadın geniş maraqları arasında əldə etmək lazımdır.

Burada birgə mənəvi axtarışlar üçün nəhəng baza vardır. Və qoy maddi problemlərin həlli sizin mənəvi birliyinizin ilk pilləsi olsun.

134 Nikah. Ər-Öküz, arvad-Meymun

Öküzlər yüksək mənəvi bürclərə aid deyillər, onlar üçün başlıcası fəaliyyətdir, qoy arvad ərinin yenidən tərbiyəsinə cəhd etsin. Axı arvad hər bir ərə alışa bilər və bunu sübut etmək üçün gözəl fürsət ələ düşüb. Yox əgər arvadın estetliyi əri sındıra bilməzsə, onda ər öz üzərində böyük iş aparmalıdır və arvadın psixologiyasının konkretliyi maddi fəaliyyətdə ərlə ümumi dil tapa bilər.



135 Nikah. ər-Öküz, arvad-Meymun

Ortodoksal nikahdır. Ər-arvadın gözəlliyi, onların mübariz coşqunluğu və ailə həmrəyliyinə asayişinə köklənməsi yaxşı təəsürat oyadır. Amma onların hər ikisi üçün əsas çətinlik ailənin qurulmasında, onun saxlanılmasında deyil. Ailəvi, şəxsi münasibətlərin dərinləşməsindədir. Arvada bu ruhuna görə yaxındır, qoy o burada rəhbər rolunu oynasın. Bu halda nikah yalnız dərin olaraq xoşbəxt ola bilər. Bütün öz gücünüzü yalnız həyatın maddi tərəfinə versəniz, bəlkə də siz sakitlik, rahatlıq tapa bilərsiniz, amma xoşbəxtlik sizə yalnız gülümsər uzaqdan sizə əl edər və yan keçər.

## XVI FƏSİL. ABSOLYUT NİKAH

**Ər: Siçan, Meymun, Əjdaha**
**Arvad: Xoruz, İlan, Öküz**

Nümunələr:

D.Mamin – Sibiryak – M.M. Abramova (Siçan – Öküz)
III Pyotr – II Yekaterina (Meymun – Xoruz)
A.A.Blok – L.D.Mendeleyeva (Əjdaha – İlan)
A.İ.Gertsen – N.A.Gertsen (Meymun – Öküz)
A.N.Skryabin – T.F.Şletser (Meymun – Xoruz)
Bencamen Dizraeli – Meri Enn (Siçan – Xoruz)
C.Lennon – Yoko Ono (Əjdaha – Xoruz)
F.Fellini – D.Mazina (Meymun – Xoruz)
R.Şedrin – M.Plisetskaya (Meymun – Öküz)

P.B.Şelli – Meri Şelli (Siçan – İlan)
C.Q.Volkonski – M.N.Volkonskaya (Meymun – Öküz)
M.A.Fonvizin – N.D.Fonvizina (Meymun – Öküz)

Təbii ki, bu fəslin adı olduqca şərtidir. Amma hətta nikah nəzəriyyəsi üzərində işə başalayarkən bu qədər müxtəlif ər-arvadın xarakterilərinə görə bu nikahlar özünün monolitliyi, ayrılmazlığı ilə nəzərə çarpırdı. Axı bir-birinə əks, zidd növlərin hər ikisi məhəbbət və iradə mənbəyidirlər və buna görə də kəllə-kəlləyə toqquşmaq əvəzinə, qalan mənəvi nikahların heç birində olmayan, mənəvi qovuşma gedir. Bu əlaqə o qədər möhkəmdir ki, elə bil ki, insanların özləri mövcud deyil, təkcə nikah var. Əgər kimyəvi analogiya yerinə düşsəydi, onda bu cür nikah üçqat əlaqəli azot molekuluna oxşayır.

Bu nikahda bütün zahiri, qeyri-mənəvi olan lüzumsuz qabıq kimi tullanır. Nə yaş, nə zahiri görünüş, nə pul heç bir əhəmiyyət kəsb etmir. Demək olar ki, insanlarda yalnız mahiyyət qalır və yaxud onlar yeni keyfiyyət əmələ gətirirlər, bizim dil adlandırdığımız obraz isə heyvan analoqlarından bizə qalan bürc xarakteristikası sanki yoxa çıxır, əriyib gedir.

Ona görə də 136-144 saylı bu nikahların əlavə xarakteristikası praktiki olaraq lazım deyil. Sadəcə olaraq biz materialın bu kitabda təsviri ənənəsinə haqq veririk.

Göstərilən nikahlarda yaş uyğunsuzluqları xüsusilə heyrətə salır.

Böyük Britaniyanını böyük siyasi xadimi və yazıçısı, iki dəfə baş nazir vəzifəsinə seçilən Bencamen Dizraeli ondan 15 yaş böyük olan qadına evləndi. Bu



qadın onun rəfiqəsi, məslə-hətçisi və sirdaşı oldu. O, hansı işin qulpundan yapışırdısa Meri Ennin köməyini və müdafiəsini hiss edirdi. Otuz il ərzində Meri Enn Dizraeli üçün və yalnız onun üçün yaşayırdı. Bencamen bir dəfə də olsun onun ünvanına məzəmmətedici söz deməmişdi və əgər kim isə cəsarət edib Merini lağa qoymaq istəsəydi, *onda o qəzəblə onun müdafiəsinə qalxardı.*

Dmitri Mamin – Sibiryak və Mariya Moritsovna Abramovanın ehtiraslı məhəbbəti "çoxlu dedi-qoduya səbəb olmuşdu". Ostrovaya – Siqova xatırlayır: "Maminin başqa bir insana çevrilməsi mənim gözlərim önündə baş verirdi. Onun ətiacı, istehzalı görünüşü, gözlərinin qəmli ifadəsi və dişləri arasından sözləri yavaş-yavaş söyləməsi həmsöhbətinə öz etinasızlıq bildirmək istəyi hara getdi. Daxili həyatının bütövlüyünü əks etdirən gözləri parıldayır, ağzı mehribanlıqla gülümsəyirdi. O mənim gözlərimdə cavanlaşmışdı. Abramova səhnədə görünən kimi o bütünlüklə ətrafda heç bir şey görməyən qulağa və gözə çevrilirdi. Abramova rolun güclü yerlərində ona müraciət edir və onların gözləri görüşürlər və Mamin daxili alovla yanaraq nə cürsə özünü irəli verir və hətta onun sifəti qıpqırmızı olurdu.

Bu nikahda obrazın itməsi və ruhun təntənəsi haqqında quru nəzəri müddəa gözlə görünən əlamətlər əldə edir və Mammi – Sibiryakın "siçan əlamətləri" yox olur. Bu o anlar baş verir ki, iki adamın münasibətləri şəxsiyyət üzərində zəfər çalır.

Hətta bu nikahın absolyutluğunda, ər-arvadın doğum bürclərinin xoşbəxt ulduzu da əziyyətli və mənəvi işin zəruriliyi də qarşılıqlı qovuşmaq üçün addayıb keçməyə bəs etmir. Bu ikitərəfli hərəkətdir və burada təkcə

arzunun, istəyin, olması azdır.

Primitiv məhdud və uzağı görməyən III Pyotrdan mənəviyyat gözləmək olardımı:

II Yekaterina yazır: "Mən lap əvvəldən bilirdim ki, məhəbbətə layiq olmayan və bunu qazanmağa heç cəhd etməyən əri sevmək olduqca çətin və qeyri-mümkündür, amma hər halda mən ona və onun maraqlarında ən səmimi bağlılıq göstərdim".

Bəli, hər halda ər-arvadın məhəbbəti və iradəsi onları bir-birinə qovuşmağa itələyir, əbədi bağlayır.

Öz sevgilisi ilə ayrılığa dözməyən Gertsen tutulub əsgərliyə aparılmaqdan və ya ola bilər ki, Sibirə sürgün edilməyindən qorxmayaraq iki dəfə gizlincə Vladimirdən Moskvaya gəlir (polisin nəzarəti altında olan Gertsenə Vladimirdən çıxmaq qadağan olunmuşdu). Üçüncü gəlişində o Nataşanı gizlicə Vladimirə aparır və 1838 il mayın 9-da onlar nişanlanırlar".

Mariya Nikolayevna Volkonskayanın birinci Sibir məktublarını oxuyarkən belə təsəvvür yaranır ki, romantik-ehtiraslı və hərarətli xasiyyətə malik gənc qadın təkcə yaxınlarını, doğmalarını deyil, hər şeydən əvvəl özünün hərəkətlərinin düzgünlüyünə, Sergey Vokonskiyə olan hisslərinin möhkəmliyinə inandırmağa cəhd edir.

"Mənim ərim nə qədər bədbəxtdirsə o bir o qədər mənim bağlılığıma və mətanətliliyimə güvənə bilər". "Mən Sergeyin yanında olarkən tamamilə xoşbəxtəm". "Mən öz taleyimdən razıyam, mənim Sergeyə aid olan kədərdən başqa dərdim yoxdur.

İllər ötdükdən sonra Mariya Nikolayevna xatırlayır: onun buxovlarının görünüşü məni o qədər həyəcanlandırdı ki, qarşısında dizi üstə çöküb əvvəlcə onun buxovlarını sonra isə onun özünü öpməyə başladım".



Göstərilən iqtibaslarda iki insanın mənəvi birləşməsi hələlik yoxdur (ondan əlavə dekabristlərin xatirələrində Sergey Vokonskinin gənc arvadının üsyana qədər onun qayğılarından uzaq olması həmişə qeyd olunurdu) amma nə vaxt ki, qəlbində sönməyən alov varsa bu yola qədəm qoymaq necə də asandır.

Gəlin qəlbin işinə, mənəvi birləşmə axtarışına qayıdaq. Bu yola daxil olmaq asandır, yolun özü isə çətin. Əgər səndə müstəqilliyin, şəxsiyyətin bütövlüyü məqsədi varsa belə olduğu halda hətta gənclik də maneə ola bilər.

Blokun və Mendelyevanın şəxsi həyatı çətin alındı. Mendeleyeva ona yazırdı: "Siz məni həyatdan hansısa yüksəkliklərə dartıb apardınız, orada mənə soyuqdur, qorxuludur və darıxdırıcıdır".

Mendeleyeva ailə çətinliklərini iradə ilə, o isə məhəbbətlə həll etməyə cəhd edirdilər. Və hər ikisi başa düşürdü ki, bunu bir-birinə verməlidirlər, öz qabiliyyətlərini bir-birinə hədiyyə etməyi bacarmalıdırlar. Bunların hamısı sonralar hər ikisinin dərdi, iztirabı ilə gəldi.

Blokun qeydlərindən: "Lyuba anamı xəstəliyə çatdırdı. Lyuba adamları məndən qaçırdı. Lyuba bizim indi olan münasibətlərin dözülməz usandırıcılığını və mürəkkəbliyini yaratdı".

Lakin bütün bu mürəkkəbliyə baxmayaraq, bəlkə də ola bilər ki, onun sayəsində münasibətlər qurulmağa başladı. Hər bir mənəvi nikahda olduğu kimi incimələr, ara dəymələr yalnız ruhun təntənəsinə, ailənin zəfərinə gətirirdi.

Blok Mendeleyevaya: "Mən sənə o haqda yazmaq istəyirəm ki, özümdə bütün yeganə olanı artıq sənə

vermişəm və hətta arada bir bunu çox istədiyim halda belə artıq heç kimə heç nə verə bilmərəm".

"Getdikcə daha çox istəyirəm ki, sən mənimlə olasan. Əvvəlki kimi hər ikimiz bilirik ki, sən nə edəcəksən, amma daha çox bilirəm ki, mən səninləyəm və həyatın bütün mərhələlərini səninlə birlikdə, hər şeyi birlikdə hiss etmək bizim qismətimizdir.

Bu nikahda kim özünü bütünlüklə həyat yoldaşına həsr etmək istəyirsə, demək olar ki, həmişə müvəffəqiyyətə nail olur.

Dekabrist Mixail Fonvizinin ailəsi:

"Nataliya Dmitriyeva gənc yaşlarından özünün adi dini ekstazı (vəcdə, cuşa gəlmək) qeyri-adi meylliyi, kübar məşrutluqlara (şərtlərə) etinasızlığı və təbiətə coşğun məhəbbəti ilə fərqlənirdi. Ona altı yaşında o monastıra qaçmaq istədi, amma bu uğursuz oldu, bundan sonra, hamını öz seçimi ilə təəccübləndirərək atasının dayısı 40 yaşlı generala ərə getdi.

Nataliya Dmitriyevna ərinin "daxili dəyişdirilməsi" ilə məşğul olmağa başladı və bu işdə müvəffəqiyyət qazandı: "dinə etinasız olan adamdan o mömin, dindar adam oldu".

Con Lennonun və Yoko Ononun ər-avad həyatı əfsanəyə çevrildi. Onların birgə həyatı və yaradıcılığı onlara daha lazımlı və əhəmiyyətli idi, nəinki, müstəqilliyin realizəsi.

Kinorejissor Federiko Fellinin və aktrisa Culyetta Mazinanın nikahı daha əfsanəvidir.

"Kino aləmində rejissorlar və aktrisalar tez-tez bir-birlərini sevirlər. Amma sonradan tez bir zamanda ayrılıq başlayır. Hətta ən gözəl məhəbbət hekayələrinə son qoyulur, onlar xatirələrə çevrilirlər. Culyetta və Federikanının məhəbbət hekayəsi isə demək olar ki, yarım əsrdir ki, davam edir".



Onların məhəbbəti adətən bu ittifaqlarda olduğu kimi bir-birinin yaradıcılığı ilə qiyabı tanışlıqdan başladı və fasiləsiz birgə yaradıcılıqla davam etdi, burada isə onları bir-birindən ayırmaq çətindir.

Onların özləri də vahid bütövlükdürlər, nəinki, iki ayrı-ayrı adamlar. Federikodan müsahibə götürən müxbir ona çox təəccüb etmişdi ki, söhbət zamanı Federiko azı dörd dəfə Mazinaya zəng etdi ki, onun səsini eşitsin.

Bir tərəfdən ər-arvad vahid bütövlük təşkil edirlər və bunda onlara məhəbbət kömək edir, digər tərəfdən isə bir-birindən öz müstəqilliklərini dartışdırmırlar, ona sevinirlər, burada padzəhr, çarə onların iradəsidir.

Müxbirin sizi bəzi dairələrdə Maya Plisetskayanının əri adlandırırlar və siz buna necə münasibət bəsləyirsiniz sualına Şedrin cavab verir ki, digər dairələrdə Plisetskayanı Şedrinin arvadı adlandırırlar".

Bəli, bu nikahda təsir dairəsinin bölünməsi, hətta ər-arvad belə ümumi işlə birləşmiş olsalar da, ağrısız baş verir. Bəli ər-arvadın həqiqi qabiliyyətləri tətbiq olunma sahəsində də çox dəqiq sərhədləri: məhəbbət, iradə vardır. Bu intuisiyanın və məntiqin qarışdırılması (bunlar fəsil 13 və 14-də olan nikahlarda baş verir) olan arvadın soyuq seksual nüfuzetməsinin və ərin çılğın romantin məhəbbətinin və qadının romantik iradəsinin kişinin idraki iradəsi ilə uzlaşması deyildir.

Bu nikahda məhəbbətə ər rəhbərlik edir. Bu cür kişilərin qadın psixologiyası bilikləri haqqında biz artıq yazmışıq. Aleksandr Gertsen arvadının özgə kişiyə aşiq

olmasına, məhəbbət şövqünə, onun Gertseni tərk etmək istəyinə nə qədər ədəblə, nəzakətlə yanaşdı.

Natalya Aleksandrovna əvvəl-axır əri ilə qaldı.

İradı sahəsində arvad başçılıq edir. Məhz o ailənin inkişaf strategiyasını müəyyən edir, təsərrüfatı aparır.

"On beş il keçəndən sonra (Volkonskaya) o, daha çox ülvi firavanlığa can atır.... Çar qəzəbinə gəlmiş knyagina İrkutski evini şəhərin birinci salonuna döndərməyə cəhd edir. Və Mariya Nikolayevanı çox az narahat edirdi ki, onun, həyat haqqında kəndlilərlə söhbət etməyi xoşlayan və tez-tez evə bazar və narın qar basmış saman qoxusu hopmuş paltarda qayıdan anadangəlmə knyaz əri bu salona heç də yaraşmırdı. Mariya Nikolayevna öz bildiyi kimi və ərinin acığına öz gözəl qızının taleyini qurur, onu on beş yaşı tamam olmamış ərə verir.

Həyatın bütün sferalarında bu cür qarşılıqlı təsir zamanı ər-arvaddan birinin həyatdan getməsi faciəyə çevrilir. A.Efron yazır ki, Skryabinin "qaragözlü, gözəl məxməri arvadı onun notları üzərində ağlayır və heç kimi alətlərə toxunmağa qoymurdu".

F.F.Fidler xatırlayırdı ki, "Bir neçə həftədən sonra, nə vaxt mən ona (Mamin-Sibiryaka) birinci dəfə baş çəkdim, qonaq otağı və kabinet mənim nəzərimi cəlb etdi. onlar Marusyanın xatirəsinə həsr olunmuş balaca muzeyi xatırladırdı. Hər tərəfdə insan hündürlüyündən tutmuş miniatür formada onun portretləri asılmış, uzadılmış və durmuşdu".

Nikah isə insanı o qədər dəyişir ki, ayrılmaq faciəsini yaşayaraq o şüursuz olaraq onu tamamlayan özünün ikincisi yarısını axtarır. Bir dəfə başlayan və uzun müddət davam edən mənəvi dəyişilmək prosesi dayana



bilmir. Aleksandr Gertsen ikinci nikahla Nataliya Alekseyevna Oqaryova-Tuqkovaya evləndi. Bu qadın da Gertsenin birinci arvadı kimi Öküz ilində doğulmuşdu. Şahidlərin sözlərinə görə həyat olduqca çətin idi. Nataliya Alekseyevna Gertsenin uşaqları ilə mənəvi kontakt tapa bilmədi. Amma Gertsenə başqa cür olmayan, məhz bu cür həyat lazım idi.

### 136 Nikah. Ər-Siçan, arvad-Xoruz

Açıq bürclərdir. Bu nikahda açıq bürclərin hər şeyi dərk etmək səyi çətin ki, müsbət rol oynasın. Yadda saxlayın ki, siz nə vaxt ki, daxili kontaktınızı düzəldəcəksiniz, onda ümumi sferasına təsir etmək olar. Və müqavimət yolunu seçməyin, sadəliyə can atmağa da lüzum yoxdur.

### 137 Nikah. Ər-Siçan, arvad-İlan

Burada mənəvi nikahın keyfiyyəti arvadın dərrakəliyi, estetliyi ilə müəyyən olunacaqdır. Bu nikahda ərin həyat əlaqələrinin çoxluğu heç nəyə lazım deyil, yaxşı olardı ki, öz gücünü ailyə yönəltsin.

Məhəbbət və iradə ər-arvadı dəyişir, amma ər öz davranışını izləməlidir, soyuqluq və kobudluq sizin ittifaqı möhkəmləndirməz.

### 138 Nikah. Ər-Siçan, arvad-Öküz

Ümumi psixologiya. Özünə qarşı rəhmsiz olmaq olduqca müsbətdir, amma bir-birinə amansız olmağa

ehtiyac yoxdur. Bu ittifaqda hay-küylü dava-dalaşdan qaçmaq yaxşı olar. Yalnız məhəbbət lazımdır, onu göz bəbəyi kimi qoruyun. Arvad ailəyə çox istiqamətlənmiş bürcdür, ərə isə bu planda öz üzərində böyük işlər görmək tövsiyə olunur. Amma şər deməsən xeyir gəlməz, ər öz arvadının könül sərhədlərini, mənəvi axtarışlar bazasını genişləndirə bilər.

139 Nikah. Ər-Meymun, arvad-Xoruz

Ümumi psixologiya, və dəməli peşədə bütövlük tapmaq imkanı var. Bütövlük üçün baza var, əgər bu peşə deyilsə, onda xobbi, maraq ola bilər. Ər bütün bunlara estetik əsas, arvad isə qavrama genişliyi verə bilər. Və siz mənəvi birlik zirvəsinə artıq yaxınsınız.

Əsas odur ki, ərin sosial yönümlülüyü öz şəxsiyyətini açmağa, arvadının şəxsiyyətini nüfuz etməyə işləsin.

140 Nikah. Ər-Meymun, arvad-İlan

Vektor dairəsi və ər-arvadın ezotrizmi (mərhəmliyi) özgə şəxsiyyətinə nüfuz etmə bacarığı kimi burada çox pis rol oynayır. Heç yana nüfuz etmək lazım deyil, siz onsuz da tam ayrılmazsınız, mənəvi axtarışların dərinliyi sizi həyat gücündən məhrum edə bilər, ancaq güvənmək olar ki, insanpərvər arvad insanpərvər sahibə olacaq, ərə isə qadın psixologiyasını başa düşmək ona nökər üçün taleyüklü səhvlər etmək imkanı verməyəcəkdir.

Bu nikahda yaxşı olardı ki, hər biri özünə qapansın. Zəngin daxili aləm vektor ehtiraslarından əla sığınacaqdır.



141 Nikah. Ər-Meymun, arvad-Öküz

Arvadın nikahı möhkəmləndirməyə ortodoksal səyi hər bir nikah üçün yaxşı əsasdır. Amma burada çoxlu "amma"lar var. Hamı tərəfindən qəbul edilən stereotiplərin əsarətində olan arvad ərin zahiri qəribəliyində onun sevən qəlbini görə biləcəkmi? Arvad ərinin qəribə dünyasına baş vura biləcəkmi? Bundan başqa ər arvadın qarşısında bütünlüklə açılacaqmı? Əsas olan isə arvadın təkidliyi və əbədiliyidir. Adətən isə ərdə ədəb kifayət qədər olmur.

142 Nikah. Ər-Əjdaha, arvad-Xoruz

İkiqat romantizm mənəvi sahədə sonsuz axtarışlar üçün həmişə bazadır. Başlıcası isə məişətə şıltaqlıqlar və qalmaqallar səviyyəsinə yuvarlanmamaq. Ərin irsi ailəcanlılığı buna zəmanət verə bilər, amma onun standartları arvadın geniş qəlbini qıcıqlandıra bilər. Birlik axtarışları həmişə kompromislərlə bağlıdır. Hər ikisi onlara çox ağır gedirlər. Səbr və uğurlar arzu edək.

143 Nikah. Ər-Əjdaha, arvad-İlan

Burada müəyyən mürəkkəblik var, əgər ərin məhəbbəti arvadın qəlbini aça bilərsə, onda mənəvi axtarışların başlanğıcı qoyulmuşdur. Onların ürəyinin dərinliyindəki dəyişilmək gücünə şübhə etməmək olar. Əgər siz yalnız yolun başlanğıcındasınızsa onda həyatın maddi tərəfinə həddindən artıq diqqət verərək öz qanadlarınızı kəsməyin, sizin kontakt yoxa çıxmaz, yoxsullaşmaz.

144 Nikah. Ər-Əjdaha, arvad-Öküz

Ortodoksal nikah o tez-tez yalnız ailə quruculuğu müstəvisində maddi rifahda uşaqların tərbiyəsində realizə olunur. Öz həyatınızı yoxsullaşdırmayın hamı tərəfindən qəbul olunan normalar çərçivəsindən kənara çıxın, sizin ittifaqda böyük imkanlar var. Bu qadın – Öküz üçün ən münasib nikahlardan biridir, ər arvadın düzlüyünə, tərsliyinə, hətta kobudluğuna sakit reaksiya verir. Qoy arvad bu cür həyat yoldaşını qiymətləndirsin.



# NİKAHIN FƏLSƏFƏSİ

Qəribə səslənməsinə baxmayaraq qeyd etməliyik ki, nikah xalis insan təfəkkürünün kəşfidir və kifayət qədər çox olan sfer əlamətləri var ki, bununla insanı başqa canlı varlıqlardan fərqləndirir. Ən məhvedici illyuziya təsəvvürü ondan ibarətdir ki, bu iki insan qütbü kişi və qadın arasında istənilən nikah ancaq bir və yeganə olan qanunlara tabe olmalıdır. Görəsən, bu yalnış fikir haradan götürülüb. Yəqin ki, insanlar onun əjdadları arasında qoyulan sadə fərqdən.

Biz əmin olduq ki, insan cəmiyyətində ən azı dörd əsas nikah tipi var ki, bunlar köklü olaraq biri digərindən fərqlənir və hər biri ayrı-ayrılıqda xüsusi həyat taktikasını və strategiyasını tələb edir.

Hər bir dörd tip nikahın öz məqsədi və təyinatı var. Müəyyən bir hərəkət və ya əlamət bir nikahda böyük xeyir verdiyi halda, digərində zərərli ola bilər. Buna görə də ən vacib olanı aydınlaşdırmaq lazımdır ki, bütün nikahlara şamil edilən heç bir resept və ya qanun yoxdur. Dəqiq desək, qabaqcadan bilinən uğurlu və uğursuz nikah yoxdur.

Düzgün münasibət bəslənilən istənilən nikahı qorumaq olar. **Əgər düzgün münasibət ortaya qoyulmursa, onda onun məhvi labüddür.** Əlbəttə, nikahın problemlərinin həlli ancaq təlimatları düzgün yerinə yetirməklə bitmir. Bu heç mümkün də deyil. Doğrudur insan sosial həyata qədəm qoymaqla artıq müəyyən bir nikah stereotipi daşıyır. Hər hansı nikah tipinə aid olmasından asılı olmayaraq insan çalışacaq ki, öz seçdiyi ideal nikahı həyata keçirsin.

Çox vaxt bu milli və mədəni ən-ənənələrlə bağlıdır, onlardan asılıdır. Əgər milli stereotip ailədə kişinini rəhbərliyini mümkün hesab edirsə çətin ki, bərabər mənəvi nikahda uğur qazanılsın. Əgər seksual münasibətlər ideyası üstünlük təşkil edirsə, çətin ki, yuva nikahı həyata keçirilsin.

Nikahda ilkin qaydaların formalaşması üçün valideynlərin nikahı böyük əhəmiyyət kəsb edir. Çox vaxt uşaqlar şüurlu surətdə çalışırlar ki, valideynlərinin nikahlarını təkrar etsinlər, ya da diametrial əks olan nikah yaratsınlar.

Hər halda dərk etmək lazımdır ki, nikah TAM OLARAQ İDARƏ OLUNANDIR. Sevgidən, mistik hissdən fərqli olaraq o, ağıla, dərrakəyə əsaslanır və nikahda olan ər-arvadın münasibətlərini düzəltmək mümkündür. Çox vaxt birgə həyat özü müəllim olur. Nikahda olanlar çalışırlar ki, nikah ittifaqını saxlasınlar, müxtəlif cür variantları sınaqdan çıxarırlar və çox zaman xilasedici çıxış yolu tapırlar.

> ANCAQ KOR-KORANƏ HƏRƏKƏT, HƏDDƏN ARTIQ ÇƏTİN VƏ ETİBARSIZ MƏŞĞULİYYƏTDİR. HƏYAT QISADIR VƏ GÜC TÜKƏNMƏZ DEYİLDİR.ONUN DA SONU, TÜKƏNMƏYİ VARDIR.
>
> Müasir dövrdə bağlanılan nikahların böhranı buna sübutdur.

Insan artıq nə dinə, nə qanuna güvənir, əvvəlki illərdə olduğu kimi özü ailə səadəti yaratmaq üçün müxtəlif yollar axtarır.

Normal nikah olmayan yerdə həyatın özü mümkün deyil. (Uşaqların tərbiyəsi, psixologiyası, işgüzarlıq, həyata səmimiyyət və bütün insani keyfiyyətlər) Əgər siz hələ ailə qurmayıbsınızsa və ya artıq bağlanmış ittifaqa düzəlişlər edirsinizsə o zaman bir şeyi anlamaq, dərk etmək lazımdır: sizin nikah stereotiplərin necəliyindən asılı olmayaraq dörd tip nikahdan sizə aid olanın və diktə edilənin qanunlarını həyata keçirməklə uğur qazana bilərsiniz, əks halda ailə dağılacaq.



Bizim tərəfdən toplanmış materiallara əsaslanaraq onu demək olar ki, CAVAN YAŞLARDA ƏN OPTİMAL NİKAH – YUVA NİKAHIDIR. Bu nikah olduqca ehtiraslı və münasibətlərin həddən artıq asanlıqla yaranması və tez bir zamanda harmoniyanın əldə edilməsi ilə xarakterikdir. Məsələn: Lev Tolstoy və Sofiya Andreyevna, Şalyapin və Tornagi, Meyer Xold Zinayida Rayxla, Vısotski və Marina Vladiya arasında olan nikah. Onların nikahlarında uşaqların tərbiyə olunması birinci dərəcəli rol oynayırdı. Əlbəttə burada iş ancaq uşaqlarla bitmir, belə nikahlarda SÜLHÜN, SAKİTLİYİN, ƏMİN-AMANLIĞIN olması çox vacibdir. Uşaqlar valideynlərin həddən artıq dərin ünsiyyətə daxil olmalarına imkan verirlər, valideynləri isə yalnız onların vasitəsilə onlara qayğı göstərməklə öz münasibətlərini qururlar.

Bu tip nikahda onsuzda yaxşı olan münasibətləri yaxşılaşdırmağa göstərilən cəhdlərin qarşısının alınması çox vacibdir. Münasibətləri dərinləşdirmək, ümumi işlə məşğul olmaq cəhdi birgə yaşayışın harmoniyasını məhv edə bilər. Bu səbəbdən də Tolstoyun nikahında çətinlik yarandı. Şalyapin İola Tornagi ilə boşandı.

ROMANTİK, ÇOX DA DƏRİN OLMAYAN nikahda uşaqların olmağı maneə deyildir. Cəmiyyətdə zərif və SÖNMƏZ HİSSLƏR ÜZƏRİNDƏ QURULMUŞ belə

nikahlar çox geniş yayılıb. Romantik nikah insanı qanadlandırır ruhlandırır, qəhrəmanlığa çağırır, zirvəyə qaldırır. Belə həyatı arzu edənlərə misal olaraq: MASTER VƏ MARQARİTA BULQAKOVALARIN, BUXARİNLƏ LARİNİN, SAXAROVLA BONNERİN nikahlarını göstərmək olar. Lakin, zərif hisslərin bu tip nikahda saxlanılması üçün müəyyən şərtlər tələb olunur. Bu nikah görüntü və ya illyuziyalarla yaranır. Bunları isə məhv etmək olmaz. Məişət çatışmazlıqları üzərində toqquşma bu tip nikah üçün məhvedicidir. Əgər məişət problemi yuva nikahında müzakirə obyektidirsə onda burada onun müzakirəsi ancaq maneə ola bilər.

NƏHAYƏT, ÜÇÜNCÜ İDEAL NİKAH. Bərabər insanların əməkdaşlığının nikahı. İdeal bərabər nikahlarda REALİZƏ EDİLİR. Adətən, əgər iki nikah tipi tez alovlanmağa başlayırsa, onda bu nikahın çiçəklənməsi üçün müəyyən vaxt və iş tələb olunur. Bu tip nikah formalaşmış öz əməyi fəaliyyətində üstünlük əldə etmiş insanların nikahıdır.

Şalyapin yuva nikahını tərk edərək məhz Mariya Petsoldla bərabər nikaha daxil olur. Dostayevski Sinitkinlə bərabər nikaha tezliklə yox, artıq kamilləşmiş usta olarkən həm də ona qadın əməkdaş lazım olarkən gəlmişdir. Inqilabi mübarizədə Lenin və Krupskaya əməkdaş olmuşlar. Uşaqların olmaması belə nikahda çatışmazlıq deyildir. Əsas odur ki, ümumi iş olsun.

Turgenyev Polina Viardo ilə. Əlbəttə ki, kinomatoqraflar Şuqşin, Dovjenko, Rosselini ilə Berqman, Klimova ilə Şepitkonun nikahlarını misal gətirmək olar. Belə nikahlarda münasibət bərabər gedir və o birgə fəaliyyətdə istifadə edilməlidir.



Və sonuncu dördüncü nikah tipi mənəvi nikahdır. O, yuxarıda sadalananlardan fərqli olaraq bütün üç tip nikahın idealını və quruluşunu toplayır. Ona görə də insan qarşısında yüksək tələblər qoyur. Belə nikahın bütün rənglərinin oyanması üçün nəinki vaxt həm də vasitəsiz və çox zəhmət tələb edən iş lazımdır.

Gənclik illərində bu nikah əksəriyyət üçün mümkün deyil. Hətta, titan mənəviyyatı BLOK VƏ SVETAYEVA həddən çətinliklə mənəvi nikahda harmoniya əldə edə bildilər. Baxmayaraq ki, bu nikah növü gənclik illərində az arzu olunandırsa, yetkin və ahıl yaşda isə kiməsə hədiyyədir. Nə vaxt ki, insanın maksimal mənəviyyata ehtiyacı var, onda o uşaqların tərbiyəsinə, məişətin qurulmasına, əməyə, qayğıya çox ehtiyac olmamalıdır. Nikahların müxtəlif olmasının dərk olunması ÇOX ARVADLILIĞA ÇAĞIRIŞ DEYİLDİR. Sadəcə olaraq hər bir insan anlamalıdır ki, o, seçim qarşısında olaraq onun üçün: uşaqların, məhəbbət ehtirasının, işin, məişətin, yaxınlığın dəyərli olduğunu müəyyən etməlidir. Demək olar ki, əksər nikah bağlayanların əsas səhvi ondadır ki, onlar nikahdan tez bir zamanda həm təmtəraqlı məişət, həm qaynar məhəbbət, həm uşaqlar, həm də mənəvi yaxınlığı istəyirlər. BAŞA DÜŞMƏK LAZIMDIR Kİ, BU TAM ÖLÇÜDƏ MÜMKÜN DEYİL, OLDUQCA ÇƏTİNDİR. LAKİN, VACİBDİR. MƏHZ BU NİKAH FƏLSƏFƏSİNİN ƏSAS İDEYASINI TƏŞKİL EDİR.

# NƏTİCƏ

**Nikah bağlayanlara məsləhət**
**Ən ümumi təyinat-təmiz yaşları nəzərə almaqla.**

Romantik nikah, gənclik nikahıdır, ona daxil olmaq üçün optimal yaş dövrü – 30 yaşa qədərdir.

«Yuva» nikahı ən çox təsərrüfat və uşaqlara bağlıdır. İnsanlar bu tip nikahı 30 yaşdan 40 yaşa qədər dövrdə daha asan qədəm qoyurlar.

Əgər sizin yaş həddi 40-dan yuxarıdırsa və siz özünüzü əməli işə həsr edibsinizsə, bu zaman optimal xoşbəxtliyi bərabər əməkdaşların nikahında axtarmaq lazımdır.

Əgər siz yetkin yaşda nikah bağlayırsınızsa, bu zaman nailiyyət şansı ən çox ruhi nikahda alınır. Birinci təyinat ümumi xarakter daşıyır. Hər bir ulduz falı – ümumilikdə cəmələnmiş – sosioloji, psixoloji, ideoloji keyfiyyətlərin müəyyən ölçüdə vəhdədini təşkil edir. Göstərdiyimiz keyfiyyətlərin hər biri ayrılıqda – tək şəkildə işləmir. Buna görə də göstərdiyimiz dörd nikah tipindən müəyyən birini yaradarkən, qurarkən, insan öz əməllərinə düzəlişlər götür-qoy edə bilər ki, bunlar nikahın sxeminə uyğun olsunlar.

**Siçan**
Vektor cütü: At, Meymun
Romantik nikah: İt, Pələng
Yuva nikahı: Siçan, Əjdaha
Bərabər nikah: Pişik, Donuz, Keçi
Ruhi nikah: Xoruz, İlan, Öküz
Qadın – siçan üçün ən yaxşı Romantik və yuva nikahıdır, kişi – siçan üçün romantik və ruhi nikah.

**Öküz**
Vektor cütü: Pələng, İt
Romantik nikah: Pişik, Donuz, Keçi



Yuva nikahı: Xoruz, İlan, Öküz
Bərabər nikah: At
Ruhi nikah: Siçan, Meymun, Əjdaha

**Pələng**
Vektor cütü: Keçi, Öküz
Romantik nikah: Siçan, Meymun, Əjdaha
Yuva nikahı: At, Pələng, İt
Bərabər nikah: Xoruz, İlan
Ruhi nikah: Pişik, Donuz

**Pişik**
Vektor cütü: Xoruz, Əjdaha
Romantik nikah: İlan, Öküz
Yuva nikahı: Pişik, Donuz, Keçi
Bərabər nikah:Siçan, Meymun
Ruhi nikah: At, Pələng, İt

**Əjdaha**
Vektor cütü: Pişik, Donuz
Romantik nikah: At, Pələng, İt
Yuva nikahı: Siçan, Meymun, Əjdaha
Bərabər nikah: Keçi
Ruhi nikah: Xoruz, İlan, Öküz

**İlan**
Vektor cütü: Meymun, Keçi
Romantik nikah: Pişik, Donuz
Yuva nikahı: Xoruz, İlan, Öküz
Bərabər nikah: At, Pələng, İt
Ruhi nikah: Siçan, Əjdaha

**At**
Vektor cütü: Donuz, Siçan
Romantik nikah: Meymun, Əjdaha
Yuva nikahı: At, Pələng, İt
Bərabər nikah: Xoruz, İlan, Öküz

Ruhi nikah: Pişik, Keçi

**Keçi**
Vektor cütü: İlan, Pələng
Romantik nikah: Xoruz, Öküz
Yuva nikahı: Pişik, Donuz, Keçi
Bərabər nikah: Siçan, Meymun, Əjdaha
Ruhi nikah: At, İt

**Meymun**
Vektor cütü: Siçan, İlan
Romantik nikah: At, Pələng, İt
Yuva nikahı: Meymun, Əjdaha
Bərabər nikah: Pişik, Donuz, Keçi
Ruhi nikah: Xoruz, Öküz

**Xoruz**
Vektor cütü: İt, Pişik
Romantik nikah: Donuz, Keçi
Yuva nikahı: Xoruz, İlan, Öküz
Bərabər nikah: At, Pələng
Ruhi nikah: Siçan, Meymun, Əjdaha

**İt**
Vektor cütü: Öküz, Xoruz
Romantik nikah: Siçan, Meymun, Əjdaha
Yuva nikahı: At, Pələng, İt
Bərabər nikah: İlan
Ruhi nikah: Pişik, Donuz, Keçi

**Donuz**
Vektor cütü: Əjdaha, At
Romantik nikah: Xoruz, İlan, Öküz
Yuva nikahı: Pişik, Donuz, Keçi
Bərabər nikah: Siçan, Meymun
Ruhi nikah: Pələng, İt



## ƏDƏBİYYAT


1. Linda Qudmen (США) "Знаки Зодиака".
2. Сергей Алексеевич Вронской «О браке и совместимости» (Россия).
3. Григорий Кваша, Жанна Аккуратова. «Энциклопедия брака» (Россия).

**Ələkbər Quliyev**

*Müəlliflə əlaqə telefonları*
050-485-51-88
055-661-35-70
050-230-20-88

**NİKAHIN ENSİKLOPEDİYASI**

Müəllifin hüquqları qorunur, onun razılığı olmadan kitabın çap olunması qadağandır.

| | |
|---|---|
| Nəşriyyatın direktoru | E.A. Əliyev |
| Mətbəənin direktoru | S.O. Mustafayev |
| Korrektor | M.S. Cəlilova |
| Kompyuter tərtibatçısı | M.H. Xanbabayeva |

Çapa imzalanıb: 14.05.2008. Formatı 60x90 1/16.
F.ç.v. 12. S.ç.v. 12.
Ofset kağızı. Məktəb qarnituru. Sifariş №186.
Sayı 425 nüsxə. Qiyməti müqavilə ilə.

**«Çaşıoğlu» mətbəəsi.**
Bakı ş., M.Müşfiq küç.,2a.